AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

ELMİRA ABBASOVA

# ŞİRVAN ORTA ƏSRLƏRDƏ (IX-XVII əsrlər)

**(Hacıqabul, Kürdəmir, Salyan rayonları və Şirvan şəhərinin arxeoloji materialları əsasında)**

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurasının 2018-ci il 21 noyabr tarixli iclasının qərarı ilə çap olunur (Protokol №12)

**BAKI-SABAH-2019**

**Elmi redaktor:** **Arif Məhəmməd oğlu Məmmədov**
**tarix elmləri doktoru, professor**

**Rəyçilər:** **Qafar Cəfər oğlu Cəbiyev**
**tarix elmləri doktoru**

**Taleh Vasif oğlu Əliyev**
**tarix üzrə fəlsəfə doktoru**

**E.İ.Abbasova. Şirvan orta əsrlərdə: Hacıqabul, Kürdəmir, Salyan rayonları və Şirvan şəhərinin arxeoloji materialları əsasında) Bakı. 2019, 292 s**

**İSBN.**

**Oxuculara təqdim olunan monoqrafiyada IX-XVII əsrlərdə Şirvanın cənub-şərq ərazisində yerləşən orta əsr yaşayış yerləri, bölgənin iqtisadi, siyasi, dini, mədəni həyatı haqqında geniş məlumat verilir. Yazılı mənbə məlumatları, çoxsaylı arxeoloji material və etnoqrafik müşahidə ərazinin təbii-coğrafi şəraiti və etnik tərkibi araşdırılıb. Çapa təqdim olunan monoqrafiya tarixçilər, arxeoloqlar, etnoqraflar, sənətşünaslar və ali məktəb tələbələri üçün nəzərdə tutulub.**

*@. Abbasova E.İ. Bakı-2019.*

**M Ü N D Ə R İ C A T**

ÖN SÖZ.....................................................................................2

GİRİŞ:..................................................................................... 3

**I FƏSİL: ŞİRVANIN ARXEOLOJİ ABİDƏLƏRİ**

1.1. Yaşayış
yerləri......................................................................................17

1.1.1. Kəndtipli yaşayış yerləri............................................18

1.1.2. Şəhərtipli yaşayış yerləri............................................23

1.1.3. Müvəqqəti yaşayış yerləri..........................................31

1.1.4. Qəbir abidələri...........................................................32

1.1.5. İctimai və memorial tikililər.......................................39

**II FƏSİL: ŞİRVANIN TƏSƏRRÜFAT HƏYATI**

2.1. Bölgənin təbii-coğrafi şəraiti........................................46

2.2.
Əkinçilik..................................................................................52

2.3.
Maldarlıq.................................................................................57

2.4.
Sənətkarlıq...............................................................................61

2.4.1.Dulusçuluq..................................................................62

2.4.2.
Metalişləmə......................................................................89

2.4.3.Şüşə istehsalı...............................................................97

2.4.4. Digər sənət sahələri və peşə növləri............................98

**III FƏSİL: ŞİRVANIN İQTİSADİ VƏ MƏDƏNİ HƏYATI**

3.1. İqtisadi əlaqələr .......................... ................................113

3.1.1. Pul dövriyyəsi, ticarət yolları,

körpülər, karvansaralar…..................................................... 114

3. 2. Mədəni həyat

3.2.1. Evlər, hamamlar, su təchizatı sistemi .........................120

3.2.2. Elm ..............................................................................125

NƏTİCƏ.................................................................................132

İstifadə olunmuş ədəbiyyat siyahısı....................................139

İLLÜSTRASİYALAR

# Ö N S Ö Z

Minilliklər boyu Azərbaycan tarixində mühüm yer tutan cənub-şərqi Şirvanın orta əsrlər tarixinin öyrənilməsi bu gün də aktual məsələlərdən biridir. Uzun illər ərzində cənub-şərqi Şirvan ərazisində aparılan arxeoloji qazıntı və kəşfiyyat işləri zamanı dövlətçilik tariximizin bir sıra mühüm məqamlarına toxunulmuş və aydınlıq gətirilmişdi. Tariximizin mühüm məsələlərinin araşdırılması müstəqillik illərində sonra da mütəmadi olaraq davam etdirilmiş, respublikamızın müxtəlif bölgələrində, o cümlədən Şirvanın cənub-şərq hissəsində yerləşən abidələrdə arxeoloji qazıntı və çöl-tədqiqat işləri davamlı şəkildə aparılmışdı.

Orta əsr abidələrinin sıx olduğu bölgələrdən biri də cənub-şərqi Şirvan və ətraf əraziləridir. Monoqrafiyada ilk dəfə olaraq ərazidə yerləşən IX-XVII əsrlərə aid abidələr sistemli şəkildə elmi tədqiqata cəlb edilmişdir. Kənd və şəhərtipli yaşayış yerləri, dini-memorial abidələr, müdafiə tikililəri, karvansara, körpülər və s. haqqında geniş məlumat verilmişdir. Tədqiqat işinin mənbə bazasını arxeoloji materiallar, çöl-təsərrüfat işləri zamanı və təsadüfi əldə olunan maddi mədəniyyət nümunələri təşkil edir. Monaqrafiyanı zənginləşdirən və oxunaqlı edən müsbət cəhətlərdən biri də odur ki, müəllif yazılı mənbə məlumatlarının arxeoloji materiallarla uzlaşdırılmasına böyük əhəmiyyət vermişdir.

Ərəbşahverdi, Çılpaqlı, Dağ Xillə yaşayış yerləri, Vağam və Dəmro pirləri və s. arxeoloji abidələr haqqında ilkin məlumat verilmişdi.

Problemin öyrənilməsində Həmdullah Qəzvini, Əbdürrəşid-əl-Bakuvi, əl-Məsudi, Yaqut əl Həməvi, İbn Xordatbeh, Övliya Çələbi, Minorski, Abbasqulu Ağa Bakıxanov, Sara Aşurbəyli, Ziya Bünyadov, Vaqif Piriyev və digər müəlliflərin məlumatlarından istifadə edilmişdir. Monoqrafiyada müstəqillik illərindən sonra bölgələrdə aparılmış elmi tədqiqat və arxeoloji qazıntı işlərinin nəticələri öz əksini tapmışdır. Arxeoloji qazıntıların böyük əksəriyyətində müəllifin özü də şəxsən iştirak etmişdir. Cənub-şərqi Şirvanın Xilafət dövrü, Şirvanşahlar, Atabəylər, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu və nəhayət Səfəvilər dövrü abidələrinin xronoloji olaraq ardıcıl tədqiqi bu abidələrin maddi mədəni durumunun bir-birinin davamı olduğunu və dövlətçilik prinsiplərinin davamlı olduğunu deməyə əsas verir. Bununla yanaşı Ümum Azərbaycan ərazisində olduğu kimi cənub-şərqi Şirvan bölgəsində də İslam dini ilə yanaşı digər dini dəyərlərin qorunub saxlanmasına hörmət və qayğı ilə yanaşılmışdır.

Üç fəsli əhatə edən monaqrafiyanın birinci fəslində Şirvanın yaşayış yerləri, qəbir abidələri, ictimai-memorial tikililəri, ikinci fəsildə bölgənin təsərrüfat həyatı, təbii-coğrafi şəraiti, sənətkarlığı, üçüncü fəsildə isə iqtisadi və mədəni həyatı haqqında məlumat verilmişdir. Müəllif əsərdə cənub-şərqi Şirvanın və ətraf ərazilərinin Orta əsr yaşayış yerləri haqqında geniş məlumat verilməklə yanaşı, ərazidə mövcud olan yaşayış yerlərinin lokalizasiyasına və toponimikasına da aydınlıq gətirməyə çalışmışdır.

Bölgənin arxeoloji baxımdan öyrənilməsinin mühüm cəhətlərindən biri də Şirvanın şimal hissəsindən fərqli olaraq burada baş verən etnik proseslərin təsiri altında formalaşmış yekcins tarixi-arxeoloji mədəniyyətin sonrakı dövrlərdə də öz kökləri üzərində inkişafını davam etdirməsidir. Maddi mədəniyyətdə varisliyin qorunması isə problemin istər arxeoloji və istərsə də etnoqrafik tədqiqatlar baxımından olduqca vacib olduğunu sübut edir.

Monoqrafiyadan da göründüyü kimi uzun illər bölgədə aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilmiş zəngin arxeoloji materialların və onların kimyavi analizləri əsasında (cədvəl 1, cədvəl 2) Şirvanın cənub-şərq bölgəsinin ənənəvi sosial-iqtisadi və mədəni həyatının kompleks araşdırılması, orta əsrlər dövründə bölgənin Azərbaycanın iqtisadi həyatında yeri və rolunun müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Şirvanın cənub-şərqində aşkar edilmiş arxeoloji abidələrin dövrünə uyğun (IX-XVII əsrlər) olaraq mədəni təbəqələrin yaşının dəqiqləşdirilməsi zamanı kompleks arxeoloji materiallarla yanaşı, numizmatika nümunələrdən də istifadə edilmişdir. Bu da konkret zaman kəsiyində əhalinin sosial-iqtisadi inkişafının və müəyyən tarixi mərhələdə tənəzzülünün dinamikasını izləməyə imkan verir.

Oxucuya təqdim olunan monoqrafiya Şirvanın Orta əsrlər dövrü arxeologiyasının tədqiqində mühüm yer tutan elmi əsərdir. Bir tərəfdən dinlərin bir-bir ilə əvəzlənməsi, yerli feodal çəkişmələr və sülalələrin bir-birini əvəz etmələri, digər tərəfdən xarici hücumlar məngənəsində sıxılan əhalinin

formalaşmasında və dövlətçilik ənənələrinin qorunub saxlamasında tayfa birliklərinin qurduqları dövlətlərin və bu gün tədqiqat obyektləri olan abidələrin tarixi-arxeoloji tədqiqi, arxeologiya, etnoqrafiya, sənətşünaslıq, antropologiya və digər sənət sahələrinin qarşılıqlı araşdırılması baxımından olduqca aktualdır. Tədqiqata cəlb olunan bölgələrdə müəllif uzun illər tədqiqat apararkən, əsər üzərində işləyərkən məhz bu amillərə xüsusi diqqət yetirmiş və IX-XIII, XIV-XVII əsrlər tarixini araşdırmışdır.

***Arif Məmmədov***

***tarix elmləri doktoru, professor***

# GİRİŞ

Cənubi-şərqi Şirvan Kür çayının sol sahili boyunca, Bakı-Tiflis dəmir yolundan cənuba doğru əraziləri əhatə edir. Bölgə şərqdə Xəzər dənizi, qərbdə və cənub-qərbdə Kür çayı ilə həmsərhəddir. Şimalda bölgə Hacıqabul, Gümüşdağ, Qızdağ, Böyük Mişov və Kalmas dağları ilə sərhədlənir (138,9).

Şirvanın cənub-şərq hissəsi Kür çayının aşağı axarlarını-müasir Kürdəmir, Ağsu, Hacıqabul, Salyan rayonlarını və Şirvan şəhərini əhatə edir. Bu bölgə əlverişli təbii-coğrafi şəraitə malik olub, əsasən düzənliklərdən ibarətdir. Bir tərəfdən münbit torpaqlar, digər tərəfdən bol sulu Kür çayı bu bölgədə insanların daha qədim zamanlardan məskunlaşmasına və əkinçiliyin inkişafına müsbət şərait yaratmışdır.

Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Şirvanın cənub-şərq hissəsi indiyə qədər arxeoloji tədqiqata kompleks cəlb olunmadığı üçün onun arxeoloji abidələrinin hamısı qeydə alınmamış, xəritələşdirilməmiş və ümumiyyətlə lazımı səviyyədə öyrənilməmişdir.

Mövzunun öyrənilməsini şərtləndirən digər cəhət Şirvanın cənub-şərq bölgəsində yerləşən arxeoloji abidələrin müntəzəm olaraq Xəzər dənizinin təsirinə məruz qalmasıdır. Bir tərəfdən dənizin səviyyəsinin qalxması, digər tərəfdən Kür çayında baş verən müntəzəm daşqınlar ətrafda olan mədəni təbəqələrin dağıntıya və eroziyaya məruz qalma dərəcəsini

artırmışdır. Odur ki, qədim tariximizin bir parçası olan həmin abidələrin öyrənilməsi olduqca vacibdir.

Bölgənin arxeoloji baxımdan öyrənilməsinin mühüm cəhətlərindən biri də Şirvanın şimal hissəsindən fərqli olaraq burada baş verən etnik proseslərin təsiri altında formalaşmış yekcins tarixi-arxeoloji mədəniyyətin sonrakı dövrlərdə də öz kökləri üzərində inkişafını davam etdirməsidir. Maddi mədəniyyətdə varisliyin genetik bağlılığın qorunması isə problemin istər arxeoloji, istərsə də etnoqrafik tədqiqatlar baxımından olduqca vacib olduğunu sübut edir.

Bölgədə aparılmış arxeoloji qazıntılar nəticəsində və yeni əldə edilmiş zəngin arxeoloji materiallar əsasında Şirvanın cənub-şərq bölgəsinin ənənəvi sosial-iqtisadi və mədəni həyatının kompleks araşdırılması, orta əsrlər dövründə bölgənin Azərbaycanın iqtisadi həyatında yeri və rolunun müəyyənləşdirilməsi Azərbaycan tarixinin aktual problemlərindən biridir.

**Bölgənin siyasi tarixinə dair** VII əsrin 40-cı illərində ərəblər Azərbaycanı işğal edərək Şirvanda yerli hakimiyyəti ləğv etmişdilər. VIII əsrin 80-ci illərindən başlayaraq Şeybani nəslindən olan Məzyədilər sülaləsinin nümayəndələri-Yezid, Əsəd, Xalid və Məhəmməd növbə ilə Azərbaycana hakim təyin olunmuşdular. IX əsrin ikinci yarsında Məzyədilər Şirvanda hakimiyyəti ələ alaraq "Şirvanşah" ləqəbini qəbul etdilər. IX əsrin ikinci yarısında Məhəmməd ibn Xalid Arrandan Şirvana çəkilib burada müstəqil dövlət yaratmış Haşimi Əbdüllanın ölümündən istifadə edərək Dərbəndi də öz ərazilərinə qatmışdı (132,43-79).

IX əsrdə Azərbaycanda ərəb işğalına qarşı milli azadlıq hərəkatı davam etməkdə idi. Babəkin başçılığı ilə aparılan mübarizə ərəb xilafətinə hərbi, iqtisadi baxımdan ağır zərbə vurdu. Xilafət iqtisadi-siyasi və hərbi cəhətdən xeyli zəiflədi. Ayrı-ayrı vilayətlərin hakimləri bundan istifadə edərək xilafətə tabe olmaqdan boyun qaçırmaqla özlərini müstəqil elan etdilər (24, 178-181).

Beləliklə, Azərbaycan ərazisində bir sıra feodal dövlətləri meydana gəldi və müstəqil dövlətçilik ənənələri dirçəldi. Onların ən güclüsü Şirvanşah Məzyədilər, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər idi (20, 91-95).

Hələ VI əsrin sonu-VII əsrin əvvəllərində Azərbaycanın şimalında - Şirvanda kiçik feodal hakimliyi kimi meydana gələn Şirvanşah Məzyədilər dövləti IX əsrdə xeyli gücləndi (32, 40).

IX-XIII əsrlərdə Azərbaycanın hər yerində feodal münasibətləri xeyli inkişaf etmişdi. Ölkənin ən münbit və suvarılan torpaqları iri feodalların, ilk növbədə Şirvanşahların əlində idi. Onlar həm də örüş və otlaqların, qışlaqların da sahibi idilər. Feodalların əlində olan torpaqlara "mülk" deyilirdi. Mülklər nəsildən-nəslə keçə bilirdi. Habelə dövlətə yaxın olan əmirlərə və feodallara da pay torpaqları verilirdi. Bu torpaq növü "iqta" adlanırdı. Bundan başqa Şirvanşah İbrahim özünə yaxın olan şəxslərə də torpaq paylayırdı (20, 41-43; 121, 32).

Məhəmməd ibn Xalidin ölümündən sonra Şirvanı onun qardaşı I Heysəm ibn Xalid idarə etməyə başladı. 861-ci ildə I

Heysəm öz dövlətinin müstəqilliyini elan etdi və Şirvanşah oldu. I Heysəm ərəblərin ölkəni idarə etmək üçün təyin etdikləri hakimi ləğv etməyə müyəssər olmuşdu. I Heysəm İbn Xalid ərəb mənşəli Məzyədilər sülaləsinin ilk hökmdarı idi (20, 91-95).

Şirvanşah Məhəmmədin vaxtında Şirvan ərazisi daha da genişlənmişdi. Mənbələrdə qeyd edilir ki, 994-cü ildə Şirvanşahlar dövlətinin ərazisi bir aylıq yola bərabər idi və onun sərhədləri Kür çayının sol sahilindən başlayaraq Dərbəndə qədər uzanırdı (145, 43-45).

Dağıstanın cənub hissəsi II Heysəm ibn Məhəmməd ibn I Heysəm dövründə Şirvanşahların ərazisinə daxil edilmişdi. Şirvanşah Dərbənd qazılərinə bir neçə kəndi vəqf kimi vermiş, ehtiyacı olanlara taxıl paylamaq üçün ambarlar tikdirmişdi.

914-cü ildə ruslar 500 gəmi ilə Bakı sahillərindən şəhərə, daha sonra isə cənub-şərqi Şirvana, bütövlükdə Arana basqın etmişdilər. Şirvanşah Əli İbn Heysəmin dövründə Şirvan bu hücumlardan xeyli zərər çəkdi. Başlıca səbəblərdən biri Şirvanşahların Xəzər dənizində hərbi gəmilərinin olmaması idi. Onların mövcud gəmiləri yalnız ticarət gəmiləri idi (145, 75-77).

917-918-ci illərdə isə III Yəzid Əbu Tahir əş – Şeybani Şirvanı işğal etdi və burada Yəzidyyə adlı şəhər saldı. O, Layzana 2 oğlundan birini girov verdi. III Yəzid Əbu Tahirinin 31 illik hakimiyyətindən sonra - 948 - ci ildə hakimiyyətə oğlu II Məhəmməd ibn II Yəzid keçdi. O,

Əhməd adlı oğlunu Layzana, digər oğlu Heysəmi Təbəristana hökmdar təyin etdi.

X əsrin sonlarından başlayaraq Şirvanşahlar dövləti bir qədər də möhkəmləndi. Şirvanşah III Yəzid 999-cu ildə Qəbələni öz ərazilərinə qatdı və Dərbənd üzərinə yürüş etdi (180, 5-6, 9).

Beləliklə, XI əsrin birinci yarısına kimi hakimiyyətdə olduqdan sonra Şirvanda Məzyədilər sülaləsini (861-1027) Kəsranilər əvəz (1027-1382) etdi.

955-ci ildə Şirvanşahlar Salar Mərzbanın dövründə Salarilər dövlətinin xəzinəsinə ildə bir milyon dirhəm ödədikləri halda, sonrakı illərdə ödənilən verginin məbləği on milyona çatdırılmışdı (121, 43-53).

1062-ci ildə alanlar Dərbənd istiqamətindən arrana hücum etmiş və ölkəni talamışdılar. Şəddadilər sülaləsindən olan I Şavur onları Arrandan qovduqdan sonra Şirvana hücum etmiş, bir çox əraziləri ələ keçirməklə yanaşı Şirvan qalasını da mühasirədə saxlamışdır. Şirvanlılar məğlub olduqdan sonra-1066-cı ildə Şavurla Şirvanşahlar arasında sülh müqaviləsi bağlanıldı və müqaviləyə əsasən Şirvanşah Şavura 40 min dinar verməklə Şirvan torpaqlarını geri qaytardı.

XI əsrin əvvəllərində Mərkəzi Asiyada fəallaşan səlcuqlar Toğrul bəyin başçılığı ilə Qəznə sultanı Məsud üzərində (1038-1063) qələbə çalaraq öz ərazilərini genişləndirdilər. Mərkəzi Asiyadan qovulan Səlcuqlar Sultan Məhəmmədin başçılığı ilə Azərbaycana basqın etdilər. XI

əsrin ortalarında Arrana hücum edən Mərkəzi Asiya Səlcuqları şəhər və kəndləri qarət etməyə başladılar. Rəvvadilər sülaləsindən olan Vəhsudan 1038-ci ilin qışında Səlcuqları tamamilə məğlub etdi. Məğlub olan səlcuqlar Buğanın başçılığı altında Azərbaycanı tərk edərək Rey və Həmədana getməyə məcbur oldular.

1041-ci ildə səlcuqlar yenidən 30 minlik qoşunla Gilandan Azərbaycana hücum etdilər. Bu hücum zamanı onlar Sərab yaxınlığında Təbriz hökmdarı Vəhsudana məğlub oldular və Diyarbəkrə üz tutdular (20, 63).

Ümumiyyətlə, səlcuqlar 1020-ci ildən 1054-cü ilədək Azərbaycana dörd dəfə axın etmişdilər. 1054-cü ildə Toğrul bəy Təbrizə daxil olduqdan sonra Təbriz hökmdarı Vəhsudan ona tabe olduğunu bildirdi. O, xütbə oxutdurub, çoxlu miqdarda pul və hədiyyələr verməklə Toğrul bəylə razılığa gəldi və öz oğlunu onun yanında əmanət qoydu.

Azərbaycanın cənub vilayətlərini işğal etdikdən sonra Toğlul bəy Gəncəni ələ keçirdi. Toğrul bəyin bu qələbəsindən sonra Azərbaycanın dıgər feodal hakimləri bir-birinin ardınca ona tabe oldu.

Səlcuq sultanı Məlikşah Kəsranilər (1072-1092) sülaləsindən olan Şirvanşah I Fəribürzu (1063-1096) Arrandakı qərargahına dəvət edir və onu 70 min dinar bac və hər il 40 min dinar həcmində xərac verməyə məcbur edir. Bu hadisədən sonra Kəsranilər tərəfindən Azərbaycan faktiki olaraq birləşdirilir.

XI əsrin 80-ci illərində Şirvanşahlar Səlcuqlardan asılı vəziyyətə salınaraq vergi verməyə məcbur edilmişdilər. Lakin Məlikşahdan sonra onların mərkəzi hakimiyyəti zəiflədi və Səlcuqlara tabe olmaqdan boyun qaçırdılar. XII əsrin əvvəlləri üçün, daha dəqiq desək, Şirvanşah III Mənuçöhr I Əfridun oğlu dövründə (1120 – 1159) Şirvanşahlar dövləti daha da möhkəmləndi (195, 71). III Mənüçöhrdən sonra hakimiyyətə keçən oğlu I Axsitanın (1160-1196/ 97) zamanında Şirvanşah ölkəni xəzərlərin basqınlarından qorumaq məqsədilə müharibələr apardı (24,351-353;149,128-130).

XII əsrdə Şirvan şahlığı ilə yanaşı Azərbaycanda üç feodal dövləti mövcud idi. Şirvanşah Kəsranilər dövləti ilə bərabər, ərazisi Marağaya qədər uzanan Atabəylər (yaxud Eldəgizlər) və Marağadan cənuba və cənub-qərbə doğru - Rəvanduz qalasına qədər olan ərazilərdə yerləşən Rəvvadilər (Ağsunqurilər) dövlətləri də mövcud idi (148,25-27).

Məlumdur ki, XIII əsrdə monqol istilaları nəticəsində bütün Azərbaycanda olduğu kimi, Şirvanın cənub-şərqində də böyük dağıntılar baş vermişdir. XIII əsrin sonlarından başlayaraq şəhərlər və onların iqtisadiyyatı bərpa olunmuş yeni inkişaf (kütləvi şəkildə olmasa belə) mərhələsinə qədəm qoymuşdur.

XIV əsrin 80-ci illərinə qədər Şirvanşah Kəsranilər sülaləsi hakimiyyətdə oldu və bu hakimiyyətə sülalənin 16 nəfər nümayəndəsi başçılıq etdi.

Şirvanşahlar Gürcüstanla qohumluq münasibətlərinə malik idi və Şirvanşah II Mənüçöhr gürcü çarı Davidin qızı Tamara ilə evlənmişdir (20, 70-73).

Yadellilərin, o cümlədən, oturaq həyat tərzinə uyğunlaşa bilməyən monqol əyanlarının hücumlarına məruz qalan Azərbaycan şəhərləri dağıdılmış, şəhər sənətkarlığı tənəzzülə uğramışdır. Bu proses uzun bir müddət, təxminən XIV əsrin əvvəllərinə qədər davam etmişdir. XIV əsrin ortalarından etibarən, hülakülərin dövründə (112, 45-46; 25; 66;19;120, 47-49) şəhər həyatının yenidən dirçəlməsində, ticarətin və sənətkkarlığın bir çox sahələrində canlanma baş verir. Yeni şəhərlər salınır və qala divarları ilə möhkəmləndirilir, dağılan körpülər bərpa edilməklə yanaşı yeniləri də inşa edilirdi. Şəhərlərin və şəhər sənətkarlığının inkişaf dinamikası XVII əsrrin ortalarınadək davam etmişdir. Düzdür, XVII əsrin sonunda şəhər həyatında və sənətkarlığın inkişafında yenidən durğunluq baş vermiş olsa da bir sıra sənətkarlıq sahələri öz fəaliyyətini davam etdirmiş və yeni-yeni sənətkarlıq sahələrinin möhkəmlənməsinə səbəb olmuşdu. Belə ki, XII-XIII əsrlərdə dulusçuluq sənəti daxilində mövcud olan şirsiz saxsı məmulatı istehsalı son orta əsrlərdə ayrıca istehsal sahəsi olaraq formalaşmış, fayans-farfor sənətkarlığı meydana gəlmiş, tikinti-memarlıq keramikası istehsalı davam etdirilmişdir. Bunlarla yanaşı XIV-XVII əsrlərdə filizçıxarma, dağ-mədən sənəti də xüsusilə inkişaf etdirilmiş və yeni sənət sahələri müstəqil fəaliyyətə başlamışdır.

Bütün bu hadisələr öyrənilən dövrdə cənub-şərqi Şirvanda baş verən proseslərə bilavasitə öz təsirini göstərməyə bilməzdi.

799 –cu ildən 1538-ci illədək Şirvanşahların paytaxtı Şamaxıda yerləşən müstəqil dövlət kimi mövcud olmuşdur. 1538-ci ildə isə Səfəvi hökmdarı I Təhmasibin hakimiyyəti illərində Şirvanşahlar dövləti müstəqilliyini itirdi və Şirvan vahid Azərbaycan dövlətinin tərkibinə daxil edildi.

XIV əsrdə Səfəvilər dövlətinin tərkibinə dxil edilən Şirvan XVIII əsrdə xanlıq kimi fəaliyyət göstərməyə başlamış və 1813-cü ildən isə Gülüstan müqaviləsi bağlandıqdan sonra Rusiyanın tərkibinə daxil edilmişdir.

XVIII-XIX əsrlərdə bölgədə yaşayan əhalinin say tərkibi çoxalır, nəticədə kəndlər böyüyrdü. Bu proses daxili miqrasiya nəticəsində yeni kəndlərin yaranmasına səbəb olurdu. XIX əsrin ortalarına aid rus mənbələrində ərazinin xəritələrinə nəzər saldıqda rast gəlinən toponimlərin bəziləri bu qəbildəndir (xəritə 1,2,3,4,5,6,7,8,9,10,11).

**Arxeoloji tədqiqatlar** Cənub-şərqi Şirvana daxil olan indiki Şirvan şəhəri (Əli Bayramlı) ətrafında ilk arxeoloji tapıntılar 1946-cı ildə əldə olunmuşdur. Həmin ildə Kürovdağın zirvəsində Z.İ.Osipov tərəfindən aşkar olunan və Şamaxı şəhərində zərb edilmiş gümüş sikkələrin çəkisi 3,84 q. olmaqla Şirvanşahlar (Dərbəndilər) sülaləsinə məxsus idi (191, 90, 192,73-76).

1959-cu ildə Şirvan şəhərində elektrik stansiyasının tikintisi zamanı xeyli miqdarda maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Rayon mərkəzi ilə Hacıqəhrəmanlı arasında, Kür çayının sol sahilində 150-200 metr məsafədəki ərazidən 17 ədəd gil qab (bütöv halda) götürülmüşdür. Götürülən qablar tayqulp, tək və iki qulplu, istisna hallarda isə qulpsuz küpələrdir. Tayqulplu bardaqlar boz rəngli, şarşəkilli gövdəyə və müstəvi formalı oturacağa malik olub, dulus çarxında hazırlanmış və xaricdən səliqə ilə cilalanmışdır. Qabların enli formalı qulpları onların çiyninə, ağzının kənarlarına birləşdirilmişdir. Tapılan digər nümunələr isə bir-birindən fərqli enli və dar ağızlı, xaricdən batıq xətlər və nöqtələrlə bəzədilmiş təkqulplu bardaqlardır (69, 87-92, tablo 2, şəkil 9-10).

Aşkar olunan saxsı qablar hazırlanma texnikasına görə eramızın III-VI əsr qabları ilə daha çox eyniyyət təşkil edir və nümunələr ilk orta əsrlərə aiddirlər. Nümunələrin tapıldığı sahə isə eramızdan əvvəl VIII-III və eramızın III - VI əsrlərinə aid qəbiristanlıq olmuşdur (95 ;102, 37).

Maddi mədəniyyət nümunələrinin aşkar edildiyi digər bir qazıntı sahəsi Qırxçıraqdır. XX əsrin 20-ci illərində Y.A.Paxomov tərəfindən buradan çoxlu mis pullar aşkar edilmişdir (189,45-47). 1969-cu ildə arxeoloji tədqiqat işləri V. A. Kvaçidze tərəfindən davam etdirilmişdir. Qırxçıraq şəhər yerindən aşkar olunan arxeoloji materiallar seladon (tablo 26, şəkil 1-4), boyalı qablar, tikinti keramikası, mis və gümüşdən hazırlanmış zərgərlik nümunələri, ox ucluğu, dəbilqə qalıqlarından və s.-dən ibarətdir. Qırxçıraq yaşayış

yerindən həmçinin monqol hökmdarları adından zərb edilmiş sikkə nümunələri (100-dən artıq) tapılmış və həmin sikkələrin bəzilərinin üzərində Mahmudabad və Güştəsfi şəhərlərinin adları, bəzilərinin üzərində isə qədim türk tayfalarına məxsus "xoşbəxtlik simvolları" adlanan əlamətlər həkk edilib ( 87, 27, tablo49, şəkil 11-12).

V.A.Kvaçidze uzun illər I və II Bəndovanda (169, 50-57), Mahmudabadda (Qırxçıraq)-həm quruda, həm də su altında qalmış şəhər yerlərində arxeoloji tədqiqat işləri aparmış və bir sıra elmi nəticələr əldə etmişdir (170, 209-219).

Tədqiqatların nəticəsi olaraq Qırxçıraq şəhər yerinin 2 hissəyə; birinci hissə kanalın arxa tərəfindən şimala doğru uzanan, ikincisi isə kanalın cənubunda tikinti qalıqlarından ibarət təpələr. Vaxtilə bu ərazidə istehkam olmuşdur.

Tarixi-arxeoloji araşdırmalar göstərir ki, Qırxçırağın əsası Elxani hökmdarı Sultan Mahmud Qazan xan (1295-1304) tərəfindən qoyulmuşdur. Onun göstərişi ilə Muğanda-Xəzər dənizinin yaxınlığında Kür çayının sahilində Mahmudabad adında şəhər salınmışdır. XIV əsr tarixçisi Həmdullah Qəzvini də "Müzhət-əl Qulub" əsərində-"Mahmudabad dəniz kənarında vaqe olub, Qazan xan tərəfindən bina etdirilmişdir. Beşinci iqlimdədir" (87, 26-27; 133,27).

1970-1975-ci illərdə Şirvan Milli parkında-Nord-Ost-Qoltuk (Bəndovan burnu və ya Bəndovan tirəsi-E.A) sahil rayonunda V.A.Kvaçidzenin rəhbərliyi ilə quruda və suda

arxeoloji qazıntı işləri nəticəsində şərti olaraq I Bəndovan adlanan orta əsr şəhərinin qalıqları aşkar edilmişdir ( 166, 99-103, tablo 34).

Cənub-şərqi Şirvanın arxeoloji abidələrinin böyük əksəriyyəti Güngörməz, Qubalı və Tava kəndləri ərazisində yerləşir və ilk dəfə 1958-ci ildə elmə məlum olub (63,917-923). Bu illərdə R.M.Vahidov (150, 39-40), 2003-cü ildən isə Ş.S.Əhmədov tərəfindən qeydiyyata alınmış qəbirlər, kurqan, müdafiə istehkamı, memorial abidələr və s. haqqında monoqrafiya çap edilmişdir. Ş.S.Əhmədov (52, 40-43) 2006-cı ildə nəşr etdirdiyi "Pirsaatçay hövzəsinin ilk orta əsr arxeoloji abidələri" monoqrafiyasında Yanıq Qubalı kəndi ərazisindəki yaşayış yeri, orada aşkar edilmiş tikinti qalıqları, təndirlər, zəngin maddi mədəniyyət nümunələri barədə geniş məlumat verir. Güngörməz qalasının cənub tərəfində-dağ yamacında aparılmış arxeoloji qazıntı işləri nəticəsində sahənin qərb tərəfində, şimaldan cənuba doğru uzanan uçulmuş divar qalığı müəyyən edilmişdir.

Qazıntı nəticəsində təndir qalıqları, təsərrüfat küpləri və saxsı qabların müxtəlif hissələri, müdafiə istehkamı ərazisindən isə kvadrat formalı kürə qalığı  aşkar edilmişdir.

Güngörməz müdafiə qalasında aparılan arxeoloji qazıntılar barədə A.M.Məmmədovun "Arxeologiya və Etnoqrafiya" kitabında daha geniş məlumat verilib (83, 112-113).

Kolanı yaşayış yerində aparılmış kəşfiyyat qazıntısı nəticəsində aşkarlanmış tikinti qalıqları, şirsiz və şirli saxsı

məmulatlarının tədqiqi yaşayış yerində həyatın XV əsrədək davam etdiyini təsdiqləmişdir (11, 57-63).

2000-2002-ci illərdə cənub-şərqi Şirvanın inkişaf etmiş və son orta əsr arxeoloji abidələrində Ə.İ.Novruzlu tərəfindən kəşfiyyat xarakterli arxeoloji tədqiqat işləri aparılmış və şərti olaraq Şirvan şəhəri adlandırdığımız şəhər yerində müxtəlif tikinti qalıqları və dulusçuluq məhəlləsi aşkar edilmiş, Cəmcəmli, Çaxnaq yaşayış yerində, Güngörməz istehkamında, Şəhristan qalasında, Kənd yeri yaşayış yerində, Kolanı müdafiə istehkamında ilk orta əsr arxeoloji abidələri-torpaq, küp qəbirlər, daş qutu qəbirləri (Poladlı, Alıbəyli, Güngörməz, Cəmcəmli) qismən də olsa öyrənilmişdir (101, 75-79; 53, 32-34).

Kəşfiyyat işləri zamanı aşkar edilmiş sənətkarlıq məhəlləsi və çoxsaylı dulus kürələri, maddi mədəniyyət nümunələri şəhər əhalisinin həyat tərzi, məişəti, təsərrüfatı və mədəniyyəti, dövrün istehsalı barədə zəngin məlumat verir.

Pirsaat çayı (Hacıqabul) ətrafında və onun orta axarlarında aparılmış arxeoloji qazıntı işləri zamanı ilk orta əsrlərə aid şəhər-qalaları aşkar edilmişdir. Tədqiqatlar nəticəsində əhalinin əsas məşğuliyyəti (maldarlıq və əkinçilik olsa da, sənətkarlığın inkişafı) izlənilir. Göründüyü kimi Pirsaatçay ətrafında ilk orta əsr arxeoloji abidələrinin tədqiq edilməsinə baxmayaraq, XI-XVII əsr arxeoloji abidələri kifayət qədər öyrənilməmişdir.

Tarixi mənbələrin məlumatına görə, cənub-şərqi Şirvan orta əsrlərdə Güştəsfi vilayəti adlandırılmış və burada eyni

adlı bir şəhər də mövcud olmuşdur. Şəhər müasir Şirvanın (Əli-Bayramlının) təqribən şimal-şərq hissəsində (1-1,5 km-də), Mişovdağın cənub ətəkləri boyunca böyük bir ərazini əhatə etmişdir. Çünki, ərazi boyu divar uçuqları və binaların özül qalıqları izlənilmişdir (100, 69).

Mişovdağ ətrafında, Qazıməmməd şəhəri yaxınlığında-I Qazıməmməd yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində XII-XV əsrlərə aid tikinti qalıqları ilə yanaşı, digər zəngin maddi mədəniyyət nümunələri, o cümlədən ovdan qalıqları da aşkar edilmişdir.

II Qazıməmməd yaşayış yeri də hazırkı eyniadlı şəhərin şərq qurtaracağında yerləşir. Burada yerüstü tədqiqatlarla kifayətləndiyindən, aşkar edilmiş maddi mədəniyyət nümunələri də təqribən XII-XIII əsrlərə aiddir.

Orta əsr Şirvan şəhəri ətrafında bir neçə müvəqqəti yaşayış yerləri də tədqiq edilmişdir. Bu sırada Şəkixan obası, Tava, Daşağıl, Keçi yatağı və Göytəpə müvəqqəti yaşayış yerlərini misal göstərmək olar. Onlardan yüzilliklər boyu qışlaq kimi istifadə edilmişdir və burada hər hansı bir mədəni təbəqə izlənilmir.

Çay yatağının sağ sahilində böyük ustalıqla inşa edilmiş dulus kürələri bir cərgədə səliqə ilə düzülmüşdür. Belə bir düzülüş orta əsr Şirvan şəhərinin planlı şəkildə salındığını sübut edir. Ətraf ərazi dulusçuluq üçün yararlı olan müxtəlif gil ehtiyatları ilə zəngindir. Diametri 230-300 sm olan dulus kürələrinin hamısı dairəvi planlıdır və bişmiş kərpicdən inşa edilmişdir. Kürələrin divarlarının eni 1 metrdən artıqdır.

Dulus kürələrinin əsasən yanma kameralarının bəziləri yaxşı vəziyyətdə qalmış, bəziləri isə uzun illər istifadə edildiyindən bişmiş kərpiclərin oda davamlılığı zəifləmiş və dağıdılmışdır. Bu problemi aradan qaldırmaq məqsədi ilə dulusçu ustalar dulus kürələrini daxildən xüsusi odadavamlı gillə suvamışlar. 3-6 sm qalınlığında olan gil təbəqə istiliyin yaxşı saxlanmasına kömək etməklə yanaşı köhnəlib sıradan çıxan bişmiş kərpiclərə yeni həyat vermişdir (96, 14; 137, tablo 28, şəkil 2).

Dulus kürələrində arxeoloji tədqiqat aparılan zamanı aşkar olunan saxsı qablar forma və tiplərinə görə olduqca müxtəlifdir. Onların birində şar-konusvari qab qalıqları və şlakları (ərintiləri) diqqəti cəlb edir. Görünür, kürədə müxtəlif formalı və ölçülü şar-konusvari qablar istehsal edilmişdir. Bu fakt da özlüyündə orta əsr Şirvan şəhərində dulusçuluq sənətində ixtisaslaşmanın baş verdiyini sübut edir. Dulusçuluq sənətinin vəziyyətini və inkişafını əks etdirən dulus kürələri, maddi mədəniyyət nümunələri və əmək alətləri Əlican və Türyançay hövzəsinin IX-XIII əsrlərə aid yaşayış yerində aparılmış arxeoloji tədqiqatlardan da məlumdur (57).

Şirvanın cənub-şərq bölgəsinin arxeoloji abidələri indiyə qədər kompleks tədqiqata cəlb edilməsə də, ayrı-ayrı vaxtlarda burada arxeoloji qazıntı işləri aparılmışdır. Bölgənin ayrı-ayrı abidələri hələ XIX əsrdə bir çox səyyah və həvəskar tədqiqatçıların diqqətini cəlb etmişdir. Onlar müşahidələr əsasında bu ərazidə daş binalar, karvansara, məscid və minarə qalıqlarının olduğunu qeyd etmişlər. Yerli əhali həmin ərazini Qırxçıraq, ətrafı isə Qaraçala adlandırmışlar. XX əsrin 20-ci

illərində professor Y.A.Paxomov Qırxçıraqdan saxsı, şüşə, mis əşyalar və sikkə nümunələri tapıldığını qeyd etmişdir (189,92).

1960-cı ildə arxeoloq R. B.Göyüşovun rəhbərliyi ilə Qırxçıraqda arxeoloji tədqiqat işləri aparılmışdır. Arxeoloji qazıntılar zamanı orta əsrlər dövrünə aid maddi–mədəniyyət qalıqları, xeyli sayda istehsal tullantıları, istehsal prosesində işlədilən alətlər və s. əldə edilmişdir. R.B.Göyüşovun rəhbərlik etdiyi ekspedisiya vaxt məhdudiyyətindən ancaq kəşfiyyat xarakterli qazıntılarla kifayətlənmişdir.

2001–ci ildə N.Ə.Müseyiblinin Qırxçıraqda apardığı arxeoloji qazıntılar zamanı müəyyən edilmişdir ki, abidənin ümumi sahəsi dağıntılara məruz qaldığından mədəni təbəqələr qarışmışdır. Bu səbəbdən də aşkar edilən materiallarda yerin səthindəki materiallarla eyniyyət təşkil etdiyi müşahidə edilmişdir. Arxeoloji tədqiqatlar zamanı tikinti qalıqları, təndir və ocaq yerləri, şüşə bilərziklərin nümunələri, XV əsrdə Qaraqoyunlu hökmdarı Qara Yusifin dövründə zərb edilmiş 11 ədəd sikkə və digər maddi mədəniyyət qalıqları aşkarlanmışdır. N.Ə.Müseyibli Qırxçıraq abidəsinin orta əsrlərdə yüksək inkişaf etmiş bir yaşayış yerinin qalıqları olduğu qənaətinə gəlmişdir (92,46-47).

2011- ci ildə Ələt-Masallı magistral yolunun çəkilişi ilə əlaqədar Qırxçıraqda arxeoloji qazıntılar A.M.Məmmədovun rəhbərliyi ilə davam etdirilmişdir. 100 $m^2$ qazıntı sahəsində arxeoloji tədqiqatlar davam etdirilmiş və 2,8 metr qalınlığında mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir. Arxeoloji

qazıntıların nəticələri burada XVII əsrin sonuna qədər gur yaşayış məskəninin olduğunu təsdiqləmişdir (85,108 ).

1978-ci ildə F.L.Osmanov, F.A.İbrahimov, S.B.Hüseynova və M.S.Əlicanov bölgənin mühüm arxeoloji abidələrindən olan Şəhərgahda kəşfiyyat xarakterli arxeoloji tədqiqat işləri aparmışlar (188, 65-67). Şəhərgah yaşayış yerində arxeoloji tədqiqatlar 90-cı illərin əvvəllərində Ə.İ.Novruzlu, 2009-2010-cu illərdə isə Q.C.Cəbiyev (müəllifin iştirakçısı olduğu) tərəfindən davam etdirilmişdir. Q.C.Cəbiyev Şəhərgahın Kür çayının sol sahilində-Kürdəmir ərazisində (36; 37, 261-268), Ə.İ.Novruzlu isə Şəhərgahın cənub tərəfində (Cavad bölgəsi-Sabirabad rayonu) arxeoloji qazıntı işləri aparmışlar (97, 51; 102, 45-50).

V.Kvaçidze uzun illər I və II Bəndovanda (167, 50-57), Mahmudabadda (Qırxçıraq)-həm quruda, həm də su altında qalmış şəhər yerlərində arxeoloji tədqiqat işləri aparmış və bir sıra elmi nəticələr əldə etmişdir (168, 209-219).

Uzun illər orta əsr Kürsəngi yaşayış yerində, Qırxçıraq, I Bəndovan və II Bəndovan və Şəhərgah abidələrində, bir sıra kənd tipli yaşayış yerlərində, yarımköçəri əhalinin yaşadıqları qışlaqlarda arxeoloji qazıntı işləri aparılmış və xeyli maddi mədəniyyət nümunələri götürülmüşdür. Kifayət qədər zəngin olan tapıntılar barədə tədqiqatçılar tərəfindən qısa hesabatlar, məqalələr yazılmış, lakin ümumiləşdirilməmiş və sistemləşdirilməmişdir (70; 164).

# I FƏSİL.

# ŞİRVANIN ARXEOLOJİ ABİDƏLƏRİ

## 1.1. Yaşayış yerləri

Cənub-şərqi Şirvanın yaşayış yerləri 3 qrupa bölünür. Kəndtipli yaşayış yerləri; şəhərtipli yaşayış yerləri; müvəqqəti yaşayış yerləri.

Kəndtipli yaşayış yerlərinə Hacıqəhrəmanlı, Kolanı, Quşçu, Bəy yeri, Cəyirli, I Qazıməmməd, II Qazıməmməd, I Ərəbqubalı, Ərəbşahverdi, Dağ Xillə yaşayış yerləri daxildir. Yaşayış yerləri əsasən su mənbələrinə yaxın yerlərdə salınmışdır. Ancaq, bütün hallarda həm şəhərtipli, həm də kəndtipli yaşayış yerləri karvan yollarının kənarında yerləşirdi.

Şəhərtipli yaşayış yerləri olduqca geniş sahəni əhatə etməklə çay və dəniz kənarlarında salınmışdır. Cənub-şərqi Şirvanın şəhərtipli yaşayış yerlərinə Mişovdağ, Şirvan, Hacıqabul, Şəhərgah, Qırxçıraq, I və II Bəndovan şəhərləri aiddir.

Üçüncü qrupa müvəqqəti yaşayış yerləri aid edilir. Yaşayış yerlərinə Daşağıl, Tava, Nemət Tava, Keçiyatağı, Çıraqlı, Mişovdağ, Oba yaşayış yeri, Şəkixan obası və s. daxildir. Onlarda bir qayda olaraq tikinti təbəqəsi izlənilmir. Həmin yaşayış yerlərindən əsasən Şirvanın dağlıq ərazilərindən gələn maldar tayfalar qışlaq kimi istifadə etmişlər.

Müvəqqəti yaşayış evləri adlanan bu cür evlər qışlaqlarda, əsasən, keçə alaçıqlardan ibarət idi. Köçəri maldarların digər bir qismi qazma evlərdə məskunlaşmışdılar.

Etnoqrafik tədqiqatlar göstərir ki, alaçıqlar ailə üzvlərinin sayından və həmin ailənin maddi imkanlarından asılı olaraq müxtəlif ölçülərdə qurulurdu. Bunun üçün 10-dan 20-ə qədər keçə, 30-40 ədəd həcmində çubuq, 2-3 dəstə gövdəli və alaçığın ölçüsündə toxunma üçün nəzərdə tutulan qamış tələb olunurdu.

Alaçıqlar qurulduqdan sonra həm yanlardan, həm də üstdən keçə ilə örtür, 0,07-0,18 m enliyində yundan toxunmuş və xüsusi olaraq bunun üçün nəzərdə tutulan kəndirlə möhkəmləndirirdilər. Bu cür alaçıqların ön künclərinin birində yemək və çörək bişirilməsi üçün ocaq nəzərdə tutulurdu (139, 80).

Qazma evlər üçünsə torpağı bir metrə qədər qazır, içərisini çubuqla hörərək bir növ toxuma şəbəkə əmələ gətirirdilər. Bundan sonra isə həm divarları, həm də döşəməni əvvəl qamışla hörür sonra isə torpaqla suvayırdılar.

Qazma evlərin də, alaçıqların da ölçüləri ailə üzvlərinin sayından və ailənin maddi imkanlarından asılı olurdu.

**1.1.1. Kəndtipli yaşayış yerləri.** Cənub-şərqi Şirvanın arxeoloji abidələri içərisində kəndtipli yaşayış yerləri xüsusi əhəmiyyət kəsb edir. Kəndtipli yaşayış yerləri tutduğu ərazisinin nisbətən kiçikliyi və maddi mədəniyyət nümunələrinin azlığı ilə fərqlənir. Kəndtipli yaşayış yerləri

biri-birindən müəyyən məsafələrdə, nisbətən hündür ərazilərdə, yol kənarında, çay və arxların yaxınlığında yerləşirdilər. Belə yerləşmənin bir çox səbəbləri vardır. Bir tərəfdən sel daşqınlarından qorunmq, sudan istifadə etmək idisə, digər tərəfdən də yolları nəzarət altında saxlamaq idi. Şəhər yaxınlığındakı təpəliklərdə salınan kəndtipli yaşayış yerləri şəhəri düşmən hücumlarından qorumaq məqsədi daşıyırdı.

Cənub-şərqi Şirvanın kəndtipli yaşayış yerləri haqqında tarixi və arxeoloji ədəbiyyatda qismən məlumatın olduğundan, habelə arxeoloji tədqiqatların kəşfiyyat xarakter daşıdığını nəzərə alaraq yerüstü maddi mədəniyyət nümunələrinə istinad edilib.

Yaşayış yerlərindən biri də Hacıqəhrəmanlıdır. Cənub-şərqi Şirvanın mərkəzi hissəsində yerləşən Hacıqəhrəmanlı yaşayış yeri arxeoloji materialların zəifliyi baxımından diqqəti cəlb edir. Tədqiqat işləri zamanı burada XI -XIV əsrlərə aid mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir.

“Kolanı” yaşayış yeri Şirvan düzündə - Hacıqabul rayonu ərazisində, Kür çayının sol sahilində yerləşir. Kolanılılar tarixən Azərbaycanın müxtəlif ərazilərində məskunlaşmışlar. Təsadüfi deyil ki, XIX əsr Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy “Uşacıq kəndindən Göyçə sərhədinə qədər olan bütün Tərtər çayı hövzəsini kolanılıların məskəni” adlandırmışdır (28, 57).

XVIII yüzilliyin birinci yarısında Nadir şah Əfşarın fərmanı ilə kolanılılar Xorasandan Azərbaycanın müxtəlif

bölgələrinə (Naxçıvan, Yevlax, Salyan, Siyəzən, Şamaxı) köçürülmüşdür. Məhz o zaman 282 ailədən 71-i Hacıqabul rayonunun "Toyuqplov" adlı qışlaq yerində məskunlaşdırılmışdı.

Kolanı yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yaşayış yeri çoxtəbəqəlidir. Abidənin üst təbəqəsində aparılan kəşfiyyat işləri nəticəsində XI–XV əsrlərə aid şirsiz və şirli saxsı məmulatı aşkar edilmişdir.

Çıplaqlı yaşayış yeri Kürdən təxminən 100 metr aralı, şərq istiqamətindədir. Ərazi yumşaq, boş torpaq, səhra və yarımsəhra relyefə malikdir. Çıplaklı yaşayış yerinin adı tayfa və ya bitki örtüyünün seyrəkliyi ilə də əlaqəli ola bilər. Göyçay rayonu ərazisində Lək Çıplak, Türkiyənin Mardin və Qars vilayətlərində Çıplaklı kənd adlarına təsadüf edilir. Türk tədqiqatçısı Mehmet Eröz bu adlar barədə " bu köylər xalqının "Çıplaklı" yörüklərindən olduğu anlaşılmaqdadır" yazaraq "1126-cı il tarixli bir sultan fərmanında Kıbrısa sürülən Çıplaklı cəmaatının adı çəkilir", deyə məlumat verir.

1796-cı ildə 30 min qoşunla Azərbaycana yürürus edən general Valeriyan Zubov xüsusi təyinatlı hərbi dəstəsi ilə gəmilər üçün yüksək strateji mövqeyə malik Çıplaklı yaşayış yerində məskunlaşmışdır. Zaman-zaman Kür çayının sel sularına məruz qalan Çıplaqlı yaşayış yeri bir müddət Zubovka adlandırılmışdır (*201).

"Quşçu" Şamaxı yolu üzərində yaşayan kolanılılar su ehtiyatlarına yaxın olmaq məqsədilə Pirsaat çayının sol sahilində-Salyan rayonunun Arx arası deyilən ərazidə məskən

salmışlar (28, 58). Onlar, əsasən təsərrüfatın maldarlıq sahəsi ilə məşğul olmuşlar.

Arxeoloji tədqiqatlar zamanı Quşçu yaşayış yerindən müxtəlif keşidli saxsı qablar aşkar edilmişdir. Yerüstü arxeoloji materialların xarakterinə görə eyni adlı kəndin yaxınlığında yerləşən bu yaşayış yerində həyatın XII - XV əsrlərə qədər davam etmişdir.

"Bəy yeri" adlı digər yaşayış məskəni Dağ Kolanı ərazisinə daxil olan düzənlik ərazidə yerləşir. Arxeoloji kəşfiyyat işləri zamanı yaşayış yerindən müxtəlif çeşidli saxsı qablarla yanaşı, baş hissəsi insan, ayaq hissəsi isə balıq olan büt-heykəl də tapılmışdır. Bu tapıntının insanların qədim dini inancları və mifoloji görüşləri ilə bağlılığı şübhə doğurmur. "Bəy yeri" yaşayış düşərgəsi son antik və ilk orta əsrlərə (II-VII) aiddir (103, 5).

"Cəyirli" yaşayış yerinin adının orta əsr mənbələrində "çakirlu", "çəkirli" kimi qeyd olunan Cəyirli tayfasının adından götürüldüyü bildirilir. XV əsrdə Ağqoyunlu və Qaraqoyunlu tayfa birliklərinə daxil olmuş cəyirlilər Ərdəbil mahalında və Muğanda yaşamış, sonralar isə Azərbaycanın digər ərazilərinə yayılmışlar.

Qızılbaş tayfası kimi tanınan cəyirlilərin 90 ailədən ibarət üzvü XIX əsrin ortalarında keçmiş Cavad qəzası ərazisində (indiki Sabirabad) qeydə alınmışdır. Şirvan düzündə (Göyçay rayonunda), Şamaxının dağətəyi ərazilərində və Şəki yaylasında da Cəyirli tayfa üzvlərinin məskunlaşdığı məlumdur (28, 206).

Arxeoloji tədqiqat işləri zamanı orta əsr Cəyirli yaşayış yerində torpaq üzərinə seyrək şəkildə səpələnmiş çəhrayı və boz rəngli şirsiz saxsı sınıqları aşkar edilmişdir. Nümunələr IX-XVI əsrlərə aiddir.

I Qazıməmməd yaşayış yeri Şirvan düzünün Mişovdağ ətrafında, Qazıməmməd şəhərinin şimal-şərqində-Harami dağlarının ətəklərində təxminən 10 hektar sahəni tutur. Ərazinin əksər sahələrində ev və ictimai binaların qalıqları çətinliklə də olsa izlənilir. Yaşayış yerindən aşkar edilən maddi mədəniyyət nümunələri məişətdə işlənən şirsiz saxsı qabların fraqmentləridir (11, 57-63).

I Qazıməmməd yaşayış yerində ovdan da qeydə alınmışdır. Ovdana gedən yol darısqal olub, hər iki tərəfdən daşla hörülmüş və içərisinə daxil olmaq üçün pilləkənlər qurulmuşdur.

Arxeoloji tədqiqat işləri nəticəsində müəyyənləşdirilmişdir ki, ovdanın içərisində bir neçə yerdə daşdan yonulmuş novçalar var. Onlar kənardan suyun ovdana axmasını təmin etmək məqsədi ilə qurulmuşdur. Ovdanın içərisinə indi də kifayət qədər su yığılır. Vaxtilə yerli əhalini içməli su ilə intensiv təmin edən ovdanın tavanının daşları hazırda çökməkdədir.

Aşkar edilmiş yerüstü saxsı qabların formasına və hazırlanma texnologiysına görə I Qazıməmməd yaşayış yeri XI-XV əsrlərə aiddir.

II Qazıməmməd yaşayış yeri I Qazıməmməd yaşayış yerinin şərqində - Harami dağlarının ətəklərində yerləşir. Başqa ərazilərdə olduğu kimi, bu yaşayış yerinin də üst təbəqəsi təsərrüfat işləri nəticəsində dağıdılmışdır. Təxminən 10 ha qədər sahəni əhatə edən yaşayış yerinin bəzi hissələrində tikili qalıqları izlənməkdədir. Aşkar edilən qablar əsasən məişətdə və təsərrüfatda istifadə edilən maye qabların hissələridir.

Yaşayış yerindəki yerüstü arxeoloji tapıntılar XII-XVI əsrlərə aiddir. Buna baxmayaraq II Qazıməmməd yaşayış yeri antik və ilk orta əsrlər dövrünə aid arxeoloji materiallarla da zəngindir.

"Oba" yaşayış düşərgəsinin yaxınlığında II Mişovdağ yaşayış yeri aşkar edilmişdir. 3-3,5 ha sahəni əhatə edən yaşayış yeri bir neçə bina qalığının yerüstü əlamətləri ilə seçilir. Aşkar olunan müxtəlif çeşidli qab hissələri XII-XV əsrlərə aiddir.

I Ərəbşahverdi yaşayış yeri Mişovdağın ətəklərində, mədənlərə gedən yolun üstündə yerləşir və təxminən 4 ha ərazini əhatə edir. Qalıqları aydın görünən evlərin inşasında əsasən yerli daş və bişmiş kərpiclərdən istifadə olunmuşdur. Yaşayış evləri Mişovdağın ətəklərində, əkin sahələri isə düzənlik ərazidə yerləşmişdir.

Ərazi orta əsrlərdə otlaq sahəsi olmuşdur. Yaşayış yerindən götürülən saxsı qab fraqmentlər, əsasən küpə və səhəng tipli qablara aiddir. Yerüstü arxeoloji materiallara

əsasən yaşayış yerini XI-XII; XIII-XV əsrlərə aid etmək olar (103,78, tablo 43, şəkil 1).

II Ərəbşahverdi yaşayış yeri birinci yaşayış yerindən 2,5-3 km məsafədə yerləşir və 2 ha-dan çox ərazini əhatə edir. Binaların inşasında müxtəlif ölçülü yonulmuş daşdan, çiy və bişmiş kərpiclərdən istifadə edilmişdir. Yaşayış yerində ocaq izləri aydın seçilir. Maddi mədəniyyət nümunələri şirsiz, şirli qabların müxtəlif hissələrindən ibarətdirlər. Nümunələrin üzəri yapma, kəmərvari, batıqlarla bəzədilmiş, sarımtıl və boz rənglərlə saya şirlənmişdir. (5, 165-167, tablo 43, şəkil 2).

Tikili qalıqlarının uzunluğu 7-8 m, eni 3-4 m, divarlarının qalınlığı isə 80 sm-dir. Otaqların döşəməsinin suvanmasında gəc və gildən istifadə edilmişdir. Ərazidə arxeoloji materialların çoxluğu burada əhalinin davamlı yaşadığını sübut edir.

İnşasında daha çox daşdan istifadə edilən üçüncü və dördüncü Ərəbşahverdi yaşayış yerlərində də tikili qalıqları tədqiq edildi. Yaşayış yeri arxeoloji materiallarla zəngin deyil. Götürülən nümunələr 2 saxsı qabdan; onlardan biri simvolik qapağı, uzun lüləyi və çiyin hissədən qoşa qulpu olan çıraq (-matra tipli), digəri isə ağzının kənarı sınmış bütöv gövdəyə malik aftafa tipli qab nümunəsidir.

Hacıqabul rayonunun Abdullaabad və Dağ Xilə yaşayış yerləri ərazilərində aparılan arxeoloji tədqiqatlar və maddi mədəniyyət nümunələri XI-XIII və XIII-XVII əsrlərə aiddir.

Şirvan düzündə, Kür çayının sol sahilində yerləşən bu yaşayış yerini vaxtilə Cənubu Azərbaycandan gələn və Kür hövzəsi boyunca salınmış balıq vətəgəsində işləyən ailələr inşa etmişlər. Abdullaabad toponimi – "Abdulla" və "abad", "şəhər" sözündən ibarət olub "Abdullanın şəhəri" mənasını verir.

Köçəri maldar tayfalar tərəfindən salınan Dağ Xilə yaşayış yeri isə Kür çayının sol sahilində yerləşir. Təbii xüsusiyyətlər tədqiqat aparılan ərazidə yerüstü əlamətləri izləməyə çətinlik törətsə də, yaşayış yerinin bəzi hissəsində ovdan tipli tikinti qalıqları aşkar nəzərə çarpır. Aşkar edilmiş ovdanlar iki hissədən: yerüstü hissədən və yeraltı tağlı su anbarından ibarətdir. Ovdanın içinə enmək üçün açıq tağlı giriş və çoxsaylı pillələr düzəldilmişdir. Ovdanların bəzilərinin portallarında ərəb əlifbası ilə yazılar həkk edilmişdir. Karvan yollarının üstündə tikilən ovdanların daşdan hazırlanan novçalarının yanına saxsıdan hazırlanmış qablar qoyulurdu. Bu qablardan karvanla gələn heyvanların və süvari dəstələrin atlarının suvarılması üçün istifadə edilmişdir (7, 95).

Cənub-şərqi Şirvanın orta əsr kəndtipli yaşayış yerlərində aparılan arxeoloji tədqiqatlar və müxtəlif keşidli maddi mədəniyyət nümunələrinin IX-XIII, XIII-XVII əsrlərə aid edilməsi yaşayış yerlərinin davamlı olduğunu göstərir. Yaşayış məskənlərinin salınması zamanı yol, su və təbii şərait nəzərə alınmışdır.

**1.1.2.Şəhər tipli yaşayış yerləri.** Bölgənin şəhərtipli yaşayış yerləri bir qayda olaraq planlı şəkildə inşa edilmişdir. Onlardan yalnız Qırxçıraq qala divarları ilə

möhkəmləndirilmişdir. Şəhərlər relyefə uyğun olaraq düzənlikdə, yaxud dağların yamaclarında salınırdı. Düzən ərazilərdə şəhərlər əsasən su mənbələrinə yaxın yerlərdə inşa edilirdi.

Kür çayının sol sahilində salınmış şəhərlər şərti olaraq Şirvan, Qırxçıraq adlanır. Şəhərgah orta əsr şəhəri isə Kür çayının hər iki sahilini əhatə edir. Kürün deltasında- Xəzər dənizinin sahilində salınmış şəhərlər isə I və II Bəndovan adları ilə tanınır (71, 42-45).

Planlı şəkildə inşa edilmiş şəhərdə əhali əsasən üç növ evlərdə yaşamışlar. Varlı təbəqə sadə kərpic və daş evlərə üstünlük verirdilər. Belə evlərin divarları daxildən və xaricdən sadə gillə suvanırdı və bu tipli evlər şəhər qalıqları arasında çoxluq təşkil edir.

İkinci qrupa daxil olan evlər Mişovdağın daş ehtiyatlarından istifadə edilməklə tikilirdi. Evlərin divarları xaricdən gil, daxildən gəclə suvanırdı. Evlərin döşəməsinə tərkibinə saman və qəzil qatılmış gil çəkilirdi. Bu tip evlərdə əsasən əhalinin orta təbəqəsinə mənsub insanlar yaşayırdı (96; 89; 2, 94-97).

Üçüncü qrup evlərin tikintisində daşla bərabər bişmiş kərpiclərdən də istifadə edilmişdir. Yüksək keyfiyyətli kərpiclər şəhərin sənətkarlıq məhəlləsində bişirilirdi. Bu qrupa daxil olan ev qalıqları azlıq təşkil edir. Belə evlərin divarları əksər vaxtlarda hər iki tərəfdən gəclə suvanırdı. Döşəmələri bişmiş kərpicdən düzülürdü (103, 71-72).

Sənətkarlıq məhəlləsi Mişovdağdan şəlalə formasında tökülən kiçik çayın sol sahilində salınmışdır. Burada dulus kürəsinin qalıqları aşkar edilmişdir. Dairəvi quruluşa malik dulus kürələri keyfiyyətli bişmiş kərpicdən inşa edilmişdir (3, 284-285).

Mənbələrdə Şirvanın cənub-şərq hissəsi "Güstəsfi" adlandırmış və buranın Xəzər dənizinin sahillərində yerləşdiyi, eyni zamanda vilayətin əsasının mifik hökmdar Guştəsp ibn Luxrasp tərəfindən qoyulduğu qeyd edilir.Həmçinin Kür və Araz çaylarından çəkilmiş su kanallarının vasitəsilə əkinçilik inkişaf etdirilmişdir. Burada bol buğda,düyü və pambıq da yetişdirilirdi (126, 196-220; 127, 3-8;134, 53).

Monqol istilasınadək vilayət əhalisi bir milyon dinaradək vergi ödəyirdi. Monqol istilasından sonra isə vergi 118500 dinar təşkil etmişdir. Bundan başqa monqol istilası dövründə hərbi qüvvələrin saxlanılması üçün əlavə adlanan vergi də ödənilirdi. Vergi fərqləri monqol istilası dövründə verginin azalması ilə bağlı deyildi. İstila zamanı təsərrüfatın məhv olması nəticəsində əhalinin var-yoxdan çıxması, istehsal edilən məhsulun 8-10 dəfə azalması vergilərin miqdarında dəyişikliyə səbəb olmuşdu (197, 47; 113, 23-42). A.A.Bakıxanov Güştəsfi şəhəri xarabalıqlarının qaldığını qeyd etmiş və onun Şirvanşah I Gersabs (Güştasb) ibn Fərruxzad (1204-1224) tərəfindən salındığını yazmışdır (147, 88).

R.Məmmədov və V.Kvaçidzenin fikrincə, Güştəsfi şəhəri İlandağ və Babazənən palçıq vulkanlarının püskürdüyü sahədə

mövcud olmuşdur (87, 18-20; 170, 79-84). Belə bir fikri söyləyərkən, müəlliflər XII-XV əsrin əvvəlinə aid yazılı sənədlərin dövrünə və burada aşkar edilən maddi mədəniyyət abidələrinin uyğunluğuna əsaslanmışlar. Vulkanın püskürdüyü yerdən dördkünc kərpicdən tikilmiş divar qalıqları, orta əsrlərə aid saxsı qab parçaları, 2000-ci ildə isə orta əsr şəhər yeri və onun qəbiristanlığı aşkar edilmişdir (9,75-80). Şəhər qalıqları vulkanın palçıq layları altında qaldığı ehtimaldır. Şəhərin xarabalıqları müasir Şirvan şəhərinin təqribən şimal-şərq hissəsində (1-1,5 km-də), Mişovdağın qərb və şərq ətəkləri boyunca böyük bir ərazidə yayılmışdır. Burada şəhər boyunca divar uçquntuları və özül qalıqları izlənilir.

Orta əsrlərdə ərazinin müəyyən hissəsində, daha dəqiq, Dağlıq Şirvanın yaylaqlarında əsas məşğuliyyəti maldarlıq olan Ərəbqardaşbəyli tayfaları məskunlaşmışdılar. Əkinçiliklə məşğul olanlar isə düzənlik ərazidə yurd salmışdılar.

Dördkünc planlı quruluşa malik evlərin tikintisində əsas material kimi Mişovdağdan gətirilən vulkanik daşlara, bəzi hallarda isə çiy və bişmiş kərpiclərə üstünlük verilmişdir. Daşların yonulmasında «qaraçapma» üsulundan geniş istifadə edilmişdir. Daşyonmanın bu və ya digər üsullarından tikinti ilə bərabər, məzar daşlarının hazırlanmasında da geniş istifadə olunmuşdur (83, 112-121).

Bakı-Salyan şose yolunun 115 kilometrliyində yerləşən Qırxçıraq orta əsr şəhər yerlərindən biridir. Şəhər yerinin sahəsi təxminən 50 hektara yaxındır. XIX əsrdə Qırxçıraqda olmuş səyyahlar və həvəskar arxeoloqlar bu ərazidə bişmiş kərpic və daşdan hörülmüş binaların, köşklərin (müvəqqəti

dayanacaq), karvansara, məscid və minarələrin olduğunu qeyd etmişlər.

Yerli əhali buranı Qırxçıraq, ətraf ərazini isə Qaraçala adlandırır. Belə bir ad bəlkə də əbədi yanar-odlar və atəşpərəstliklə əlaqədardır. Şəhər yeri iki sahəyə ayrılır: onun bir hissəsi kanalın arxa tərəfindən şimala doğru uzanmaqla, uçurumda sona çatır. Vaxtilə bu sahədə bürclərin və istehkamın olduğu ehtimal edilir. Kanalın cənubundakı hissədə isə tikinti qalıqlarından ibarət təpələr mövcuddur (87, 26).

Y.A.Paxomov tərəfindən XX əsrin 20-ci illərində Qırxçıraqda aparılan qazıntı işləri zamanı xeyli saxsı, şüşə, mis əşyalar və sikkə nümunələri tapılmışdır (190, 26).

Azərbaycan Tarixi Muzeyinin təşkil etdiyi sualtı arxeoloji ekspedisiya orta əsr Bəndovan şəhər yerini öyrənməklə yanaşı, 1969-cu ildən Qırxçıraqda kəşfiyyat məqsədi ilə arxeoloji axtarışlar aparmışdır. Bu tədqiqatlar zamanı bir çox maddi mədəniyyət nümunələri əldə edilmişdir. Tapıntılar şəhərin XII-XVI əsrlərdə iqtisadi və mədəni həyatını öyrənməyə imkan verir.

Qırxçıraq şəhərindən tapılan tarixi əşyalar içərisində saxsı məmulatları çoxluq təşkil edir. Yaşayış yerindən yerli istehsalla yanaşı, gətirilmə dulusçuluq məmulatları da aşkarlanmışdır. Nümunələr şirsiz, şirli, fayans qablardan, onların fraqmentlərindən, keramika, əmək alətlərindən, qabların bişirilməsində istifadə olunan gil oturacaqlar və gil çubuqlardan ibarətdir. Yaşayış yerindən əmək alətlərinin

tapılması sənətkarlıq sahələrinin davamlı fəaliyyət göstərdiyini bildirir (tablo 20, şəkil 2-6).

Qırxçıraqdan bişmiş boz və qırmızı rəngli, kvadrat ölçülü kərpiclər və kaşı parçaları da tapılmışdır. Kərpiclərin ölçüləri orta əsr Bərdə (107), Gəncə, Şətəl (Goranboy) (80), Qəbələ (29), Ağsu (38) və Örənqaladan (48) aşkar edilmiş kərpiclərin ölçülərinə uyğundur. Zərif kaşı parçaları həm incəsənət, həm də inşaat texnikası baxımından böyük maraq doğurur (74;89). Maddi mədəniyyət nümunələri içərisində qabların naxışlanmasında istifadə olunan alətlər və möhürlər aşkarlanmışdır. Qəlib möhürlərin birinin səthində bitki təsvirləri və düz xətt boyunca üç kiçik ulduz şəkilləri, digərinin üzərində şahmat qaydası üzrə cərgələr düzülmüşdür.

Yaşayış yerindən götürülən keramika nümunələri XII-XIV əsrlərə aid olub, Azərbaycanın digər həmdövr abidələrindən də məlumdur (22, 392).

Qırxçıraq yaşayış yerindən tapılan möhürlərin üzərində dini səciyyəli yazılar diqqəti cəlb edir. Dairəvi formaya malik möhürün mərkəzi hissəsində və üzük qaşı uçun nəzərdə tutulan lövhəciyində yazılar məhz bu səpkidədir. Ehtimal ki, möhürlər orta əsr vəqf sənədlərinin tərtibində və dəftərxana işlərində istifadə olunmuşdur. Belə nümunələrə Azərbaycanın digər orta əsr şəhərlərində də (Beyləqan və s.) rast gəlinmişdir. Vaxtilə buradan (1360-cı ildə Saray əl–Cədiddə-Yeni Sarayda) monqol hökmdarları adından zərb edilmiş sikkə nümunələri tapılmışdır. Son tədqiqatlar zamanı Qırxçıraqdan toplanmış yüzdən artıq sikkə təmizlənmişdir. Bəzi sikkələrin üzərində Mahmudabad və Guştəsfi şəhərlərinin ;adı zərb edilmişdir. Bəzi

sikkə nümunələrinin üzərində isə qədim türk tayfalarına məxsus «xoşbəxtlik halqaları» adlanan əlamətlər vardır.

Məlum olduğu kimi, mis pullar adətən zərb edildiyi ərazidə işlənir və xarici tədavüldə iştirak etmirdi. Mahmudabadda kəsilmiş mis sikkənin çoxluğu isə Qırxçıraq yaşayış yerinin bu ərazidə yerləşdiyini təsdiq edir. Yaşayış yerindən aşkar olunan çoxsaylı sikkələr burada zərbxanaların davamlı fəaliyyət göstərdiyini təsdiqləyir.

Qırxçıraq abidəsi haqqında müxtəlif mülahizələr var. Mülahizələrə görə, Qırxçıraq şəhərinin əsası Elxani hökmdarı Sultan Mahmud Qazan xan tərəfindən qoyulmuş Mahmudabad şəhəridir. Mahmudabad Muğanda-Xəzər dənizinin yaxınlığında, Kür çayının sahilində (Salyandan bir qədər aralı) bina edilmişdir. XIV əsr tarixçisi Həmdullah Qəzvini «Nüzhət əl-qulub" əsərində yazır: «Mahmudabad dəniz kənarında vaqe olub Qazan xan tərəfindən bina edilmişdir. Beşinci iqlimdədir. XIX əsrdə rus şərqşünasları da bu fikri təsdiqləmişlər. Azərbaycan Tarixi Muzeyinin əməkdaşlarının əldə etdikləri yeni arxeoloji tapıntılar da bu mülahizələrin doğru olduğunu sübut edir (134, 27; 168, 50-57).

A.A.Bakıxanov şəhərin mövqeyi haqqında «Gülüstani-İrəm» əsərində məlumat verərək qeyd edir ki, Mahmudabad dərya kənarında - Kür çayının iki qolu arasında salınmışdır (147, 27). Həmdullah Qəzvini də "Nüzhət əl Qulub" əsərində Mahmudabadın Xəzər dənizi sahilində, Qavbarı çöllərində yerləşdiyini və Monqol sultanı Qazan xan tərəfindən inşa edildiyini yazır (134, 46). Beləliklə, ehtimal edilir ki, XIV əsrdə Qazan xan tərəfindən salınan Mahmudabad XII-XIII

əsrlərdə mövcud olmuş və Qırxçıraq adlanan yaşayış yerinin xarabalıqlarında inşa edilmiş şəhərdir.

Onu da qeyd edək ki, Mahmudabad adlı şəhərin adı uzun müddət Salyanın adı ilə birgə çəkilmişdir. Bir sıra məxəzlərdə şəhərin adının «Şirvan Mahmudabadı» kimi qeyd olunması faktları da vardır ki, bu da Şirvandan əlavə, Mahmudabad adlı digər bir şəhərin olması ehtimalını da irəli sürməyə imkan verir. Məlum olduğu kimi, XIV əsrdə Xəzər dənizinin səviyyəsi xeyli qalxmış və Mahmudabad şəhərinə daha çox yaxınlaşmışdır. Məhz buna görə də məxəzlər doğru olaraq şəhərin dəniz kənarında olduğunu qeyd edir (86,108-110; 88, 26-27).

Coğrafi və arxeoloji tədqiqatlar vaxtilə Kür çayının tez-tez öz yatağını dəyişdirdiyini göstərir. Kür çayı Qırxçırağın şimal istiqamətindən keçərək Kürsəngiyə yan almış, oradan isə Bəndovan burnu nahiyəsində Xəzər dənizinə tökülmüşdür. Arxeoloji araşdırmalar da Bəndovanla Qıxçırağın maddi mədəniyyəti arasında müəyyən oxşarlıq və ardıcıllıqların olduğunu göstərir.

XIII əsrin sonu XIV əsrin əvvəllərində Bəndovan Xəzər sularına qərq olduqdan sonra Qırxçıraq (Mahmudabad) şəhəri yüksəlməyə başlamış və bu işdə Bəndovanın mahir sənətkarlarının böyük rolu olmuşdur. Faktlar da belə bir nəticəyə gəlməyə imkan verir ki, şəhər XIV−XVII əsrlərdə Şirvanın zəngin vilayəti olan Guştəsfi nahiyəsinin iri sənətkarlıq, ticarət və inzibati mərkəzi olmuşdur. XIV əsrin sonlarında Əmir Teymurun da bu şəhərdə olduğu məlumdur. XVI əsrin əvvəllərində isə Səfəvi hökmdarı I Şah İsmayıl qışı

öz qoşunları ilə Mahmudabadda keçirmişdir. Məşhur «Şərəfnamə» əsərinin müəllifi, Səfəvi əyanı Şərəf xan Bitlisi müəyyən müddət Mahmudabadın hakimi olmuşdur (26, 267).

Mahmudabad (Qırxçıraq) şəhərinin XV-XVII əsr siyasi tarixi haqqında Yəhya Qəzvininin «Lübbət ət-təvarix», Xandəmirin «Həbib əs-siyər», Qazi Əhməd Quminin «Xulasət ət-təvarix», Xurşahın «Tarixi ilçiyi Nizamşah» əsərlərində ətraflı məlumat verilir (26, 149-154; 130, 81).

XVII əsrin tanınmış türk səyyahı Evliya Çələbi dəfələrlə Azərbaycanda olmuşdur. O, öz gündəliklərində Azərbaycanın tarixi abidələri, şəhərləri haqqında məlumat vermişdir. Evliya Çələbinin yol gündəlikləri içərisində Mahmudabadın came və hamamları, böyük bazarları haqqında eyni zamanda, burada yaşayan əhalinin müxtəlif tərkibi (müxtəlif dil qrupuna mənsub) barədə məlumat verir. Mahmudabadı təsvir edən səyyah onun (yəni, şəhərin − E.A) abad, barlı-bəhərli bağları, min dəvə yükli ipək hasil olan tut bağları və nəhayət böyük şəhərə bənzər qəsəbə olduğunu yazmışdır (44, 96).

Orta əsr Şəhərgah yaşayış yeri Kürdəmirdən 40 km cənub-şərqdə, Ərəbqubalı və Sabirabad rayonunun Zəngənə kəndi yaxınlığında, Kür çayından 30 km aralı, axar çayların əhatəsində, Şirvanın cənub hissəsində, Bakı-Kürdəmir magistral yolundan 14 km məsafədə yerləşir. Yaşayış yerinin ərazisi 50 hektara qədərdir (12, 227-232).

Şəhərgah ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində olduqca zəngin və rəngarəng çeşidli maddi mədəniyyət qalıqları aşkar edilərək tədqiq olunmuşdur. Bu

tapıntılar əsasən daş, dəmir, mis, şüşə və gildən hazırlanmış əmək alətləri, məişət və bəzək əşyalarından ibarətdir. Tapıntılar içərisində təyinatı hələlik elmə tam şəkildə bəlli olmayan sferekonus tipli qablar çoxluq təşkil edir. Görünür, bəzi tədqiqatçıların da güman etdiyi kimi, hərbi əməliyyatlar zamanı içərisinə xüsusi partlayıcı maddələr tökülən həmin əşyalardan həqiqətən mərmi kimi istifadə olunub (36).

Şəhər yerindən əldə olunan zəngin keramika məmulatı da özünün forma zənginliyi və orjinal dekor çalarları baxımından diqqəti cəlb edir. Bunlar əsasən cızma üsulu, habelə müxtəlif boyalardan istifadə olunmaqla nəfis bəzədilmiş kasa tipli qablardır. Məişət əşyalarının bəzədilməsində astronomik, nəbati və həndəsi elementlərin mürəkkəb kombinasiyasından olduqca məharətlə istifadə olunmuşdur. Nümunələrin üzərində qütbləri, ulduzları, bəbir, ceyran və quş təsvirlərini, şahmat və şəbəkə üsullarını tez-tez görmək olar. Daxili səthi şahmat xanalarına bənzər təsvirlərlə bəzədilmiş kasa tipli qablar tapıntılar içərisində xüsusi qrup təşkil edir.

Şəhərgah materiallarını fərqləndirən əsas cəhətlərdən birisi də bu əşyaların bəzədilməsində ərəb qrafikası hərflərinə bənzər ornamentlərdən istifadə olunmasıdır. Qazıntı yerində aşkar edilən gil qab fraqmentləri üzərində olan natamam yazıları, habelə hamam-kompleksdəki vanna otaqlardan birinin qapı yerindən tapılmış və sınıq vəziyyətdə olan daş kitabə parçası üzərindəki yazını da hələlik oxumaq mümkün olmamışdır.

Şəhər yerindən arxeoloji qazıntılar zamanı əldə olunmuş üzərində yazı və yazıyabənzər ornamentli tapıntılar Şəhərgahda

çalışan dulusçu ustaların, bənnaların və yerli sakinlərinin yazı mədəniyyətinə malik olduğunu təsdiqləyir.

Şəhərgahın lokalizəsinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu gün də mübahisəli olaraq qalmaqdadır. Bəzi tədqiqatçılar Şəhərgahın Azərbaycanın mühüm orta əsr şəhərlərindən biri olduğunu, bəzi tədqiqatçılar isə onun orta əsr ərəb mənbələrində adı çəkilən Şirvan şəhərinin qalıqları olduğunu ehtimal edirlər. Məsələ burasındadır ki, orta əsr mənbələrinin Şirvan şəhərinin coğrafi koordinatları ilə bağlı məlumatları xeyli dərəcədə ziddiyyətli olduğundan, yuxarıda söylənilən ehtimalın dürüstlüyünə o qədər də güvənmək olmur.

Orta əsr müəlliflərinin əsərlərində Şirvanın həm Şamaxı ilə Dərbənd arasında, həm də Kür və Araz çaylarının qovuşduğu yerlə Xəzər dənizi arasındakı ərazidə olduğuna dair məlumatlar var. Nəhayət, Şirvanı Şabranla eyniləşdirənlər də vardır.

Beləliklə, orta əsr mənbələrində adı çəkilən Cavad və Muğan şəhərlərinin lokalizəsi ilə bağlı, abidənin Muğan düzünə bitişik ərazidə olması və yaxınlıqda Cavad adı ilə bəlli olan yaşayış məntəqəsinin mövcudluğu Şəhərgahın Cavad və ya Muğan şəhərlərinin qalıqları olduğunu deməyə əsas verir.

**1.1.3. Müvəqqəti yaşayış yerləri.** Orta əsr Şirvan şəhəri yaxınlığında bir sıra müvəqqəti yaşayış yerləri də aşkar edilmişdir. Bu tipli yaşayış yerlərindən qədim zamanlardan başlayaraq XX əsrin 20-ci illərinədək istifadə edilmişdir. Onların sırasına "Daşağıl", "Şəki-xan obası", "Tava", "Nemət Tava", "Keçi yatağı", "Çıraqlı", "Mişovdağ" obalıqları aid

edilir. Yataqların əksəriyyəti Mişovdağın ətəklərində yerləşirlər (4, 101-104).

Adları sadalanan müvəqqəti yaşayış yerlərinin heç birində arxeoloji qazıntı işləri aparılmasa da yerüstü maddi mədəniyyət nümunələrinə əsasən yaşayış yerləri XI-XV əsrlərə aiddir.

Bu müvəqqəti yaşayış yerlərindən əsasən qışlaq kimi istifadə edilmişdir. Adlarından da göründüyü kimi, Şəkixan obası şəkililərin, Tava eyni adlı kəndin obası olmuşdur (103, 67-68; 152, 92).

Mişovdağın ətəklərində yerləşən və son dövrlərədək insanların məskun olduğu ərazi "Oba" (müvəqqəti) yaşayış yeridir. Yaşayış yeri 1,5-2 ha ərazini əhatə edir. Aparılmış kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar nəticəsində yaşayış yerinin yerüstü maddi mədəniyyət nümunələrinə əsasən Oba yerindən XVIII əsrin sonlarına qədər istifadə olunmuşdur. Oba yaşayış yerinin yerüstü arxeoloji materialları XI-XVIII əsrlərə aid saxsı qab qırıqlarına aiddir.

"Şəkixan obası" müvəqqəti yaşayış yeri təxminən 4-5 hektar sahəni əhatə edir. Buradakı evlərin inşasında Mişovdağdan və ətraf ərazilərdən əldə edilmiş tikinti materiallarından geniş istifadə edilmişdir.

"Şəkixan obası" yaşayış yerindəki yerüstü arxeoloji materiallar XI-XVII əsrlərə aid müxtəlif çeşidli (küpə, səhəng, badya və s.) şirsiz və şirli qabların sınıqlarından ibarətdir. Dulus çarxında hazırlanan qabların

anqoblanmasında əsasən bozumtul, çəhrayı, tünd qəhvəyi və boz anqobdan istifadə edilmişdir. Bundan başqa, şirli qabların bəziləri cızma üsulu ilə həndəsi xətlərlə bəzədilmişdir. Sarımtıl rəngli şirlə örtülmüş qabların üzərinə müxtəlif rənglərlə bəzəklər vurulmuşdur.

Yaşayış yerindən həmçinin şirli və şirsiz boşqab tipli qabların oturacaq və gövdələrinin müəyyən hissələri də aşkar edilmişdir. Boğaz hissəsi yapma, relyefli kəmərlərlə əhatələnmiş və səthi batıqlarla naxışlanmış qablar sarımtıl və boz rəngli anqob təbəqəsi ilə örtülmüşdür. Abidənin ərazisində yerüstü arxeoloji materiallar seyrəkdir.

**1.1.4. Qəbirüstü abidələr.** Məlum olduğu kimi, VIII əsrin əvvəllərinə qədər Azərbaycan ərazisinin bir hissəsində xristianlıq dini hakim olmuşdur. Bununla bərabər, əhalinin böyük bir hissəsinin məişət və mədəniyyətində, fikir və düşüncəsində zərdüşt dini etiqadları, həmçinin müxtəlif ibtidai inanclar (animizm, totemizm, fetişizm, magiya) da hakim olmaqda davam edirdi.

Azərbaycanda islam dininin yayılması ilə yerli əhalinin dəfin adətlərində əsaslı dəyişikliklər baş verir. İslam dini ölü ilə birlikdə qəbir kamerasına maddi avadanlıqların qoyulmasını qadağan edir. Bu dinin tələblərinə görə qəbirin yerüstü hissəsində də baş və sinə daşlarından başqa fərqləndirici heç nə olmamalıdır. Lakin zaman keçdikcə, xüsusən XI əsrdən başlayaraq islamı qəbul etmiş tayfalar öz qədim dəfin adətlərinin bəzi ünsürlərini dirçəltməyə başlayırlar. Müsəlman qəbirlərinin yerüstü hissəsində fərqləndirici əlamətlər meydana

gəlir və bu əlamətlər XI əsrin ikinci yarısından daha da genişlənməyə və inkişaf etməyə başlayır.

Dövlət başçılarının, məşhur din xadimlərinin və müqəddəs şəxslərin qəbiri üzərində möhtəşəm türbələr ucaldılır. Buradakı qəbirüstü sənduqələr, yazılı baş daşları, qəbirüstü qoç, dəvə və at heykəlləri orta əsrlərdə cəmiyyətin sosial tərkibi, məşğuliyyəti və ən başlıcası mənəvi mədəniyyəti haqqında dəyərli məlumat verir. Qəbirüstü abidələr eyni zamanda ərazinin tarixinin öyrənilməsində, təsviri incəsənətin və mədəniyyətin digər sahələrinin araşdırılmasında da qiymətli mənbə kimi çıxış edir. Bu baxımdan Şirvanın cənub-şərq ərazisindəki qəbirüstü sənduqələr və baş daşları mühüm əhəmiyyət kəsb edir.

Mənbələrində Ərəbşahverdi, Çıplaklı, Yekatrinsvod, Zubovka, Mirzədavudbəyli, Əlibayramlı və 2008-ci ildən isə Şirvan şəhərnin yaxınlığında, Mişovdağın cənub ətəkləri və ətraf ərazilərində yerləşən yaşayış yerlərinin qəbirstalıqlarında çoxlu sayda üzəri müxtəlif təsvirli qəbirüstü daşlar vardır. Müşahidələr göstərir ki, müxtəlif naxışlı və bəzəkli qəbir daşlarının bir qismi zaman-zaman torpaq altında qalmış, bir qismi isə əhali tərəfindən dağıdılaraq onlardan yeni inşaat işlərində istifadə edilmişdir.

Şirvan şəhərinin təxminən 1,0-1,5 km-də, Mişovdağın cənub ətəklərində Bakı-Şirvan şose yolunun sol tərəfində, təxminən 3-4 hektar sahəsi olan orta əsr qəbiristanlığı yerləşir (tablo 39, şəkil 1).

Qəbiristanlığın bir hissəsi nisbətən salamat qalmışdır. Burada diqqəti cəlb edən və üzərində müxtəlif təsvirlər və yazılar olan qəbirüstü daş sənduqələrdir. Sənduqələrin üzəri xəttat və həkkaklar tərəfindən yüksək ustalıqla işlənmişdir. Öz orjinallığı ilə fərqlənən bu qəbir daşları orta əsr Şirvan-Abşeron memarlıq məktəbinin nadir nümunələri sırasındadır. Belə ki, üzərində sinəbənd, at, dəvə karvanı, tüfəng, qılınc, ay-günəş və s. qazma, oyma üsulu ilə yüksək zövq və məharətlə həkk olunmuş daşların bəziləri öz bədiiliyi və zərifliyi ilə diqqəti xüsusilə cəlb edir. Başdaşılarından birinin üzərindəki (tablo 38, şəkil 1-3) azərbaycanlı qadınlarının istifadə etdikləri sinəbənd təsviri olduqca maraqlıdır. Sinəbənd, günəş və onun üzərində çəkilmiş həyat ağacı formasında təsvir edilmişdir. Digər bir daşın üzərində isə dəvə karvanı-bir at və üç dəvə rəsmi çəkilmişdir. Atın və axırıncı dəvənin üstündə adam oturmuş, ortadakı dəvələrin üstünə isə yük qoyulmuşdur. Bu təsvir ümumilikdə hərəkətdə olan karvanı xatırladır (9, 75-80).

Təsvirlər etnoqrafik baxımdan da böyük maraq doğurur. T. Bunyadovun fikrincə, hazırlanma texnologiyasına görə Şirvan-Abşeron memarlıq məktəbinin nümunələrindən olan bu qəbir daşları sənət əsəri olmaqla yanaşı, həm də o dövrün nəbati və zoomorf aləmi ilə bağlı zəngin məlumat verir (32, 24-25).

Qəbir daşları quruluşuna və hazırlanma texnologiyasına görə, müxtəlif dövrlərin məhsuludur. Ustalıqla yonulmuş bu daşların üzərində bəzək və rəsmlərlə yanaşı, Quran-i Kərimdən surələr və mərhumun ölüm tarixi həkk edilmişdir (Məhəmməd və Əli əl Məhəmməd Sübhan Allah və bi Həmdi ([1]qeyd: Fars

və ərəb əlifbası ilə olan yazıları numizmatika şöbəsinin müdiri Akif Arif oğlu Quliyev oxuyub (tablo 42,şəkil 2). Qəbiristanlıq XI-XIV əsrlərə aiddir.

Tədqiq olunan ərazidə sənduqə tipli qəbir daşları da geniş yayılmışdır. Bu sənduqələrin üzərində orta əsrlərə məxsus süjetlərlə doldurulmuş dərin məna kəsb edən təsvirlərə də təsadüf olunur. Sənduqələrdən birinin baş və ayaq tərəflərində və ortasında haşiyə içərisində ay, 5 guşəli ulduz və həndəsi ornament, hər iki yanlarında isə gül ləçəyini xatırladan nəbati ornamentlər təsvir edilmişdir. Sənduqənin uzunluğu 1,70 metr, hündürlüyü 80 sm, eni isə 60 sm-ə bərabərdir. Ay içərisində bərabəryanlı, 5 guşəli ulduz təsviri qədim şərqdə geniş yayılmış astral təsəvvürlərin məhsuludur və Şərqin müsəlman ölkələrinin bir çoxunda indi də dövlət rəmzləri sırasına daxildir (15,16-20; tablo 41).

Qeyd etmək lazımdır ki, «5» rəqəmi də özlüyündə müxtəlif mənalar daşıyır. Belə ki, bütpərəstlərdə təbiətlə cəmiyyətin əlaqələndiriciləri olan "5"-in (Amoqasiddixi, Ratnasambaxava, Akşobıxya, Amitbaxa və Vayroqana) hər bir guşəsi dünyanın beş səmtinin (şimal, cənub, şərq, qərb və mərkəz) ayrı-ayrılıqda təmsilçiləridir. Həmçinin beş rəqəmi dünyanın beş rənginin (ağ, qara, qırmızı, sarı və mavi), bütövlükdə mövcudluğunda (torpaq, su, hava, od, külək) və nəhayət beş əsas duyğunun (görmə, eşitmə, dad, qoxu, toxunma) varlığında özünü göstərir. Bu rəqəmin Hind-Avropa xalqlarının mifologiyasında da öz yozumu vardır (184, 80; 15, 35, 59, 80-83).

Ustalıqla yonulmuş abidə üzərində yuxarıdakılardan başqa, yarpaq, beş və üç ləçəkli güllər təsvir edilmişdir. Birinci halda «3» rəqəmi göy üzündən (asimandan) başlamış yerin üst və alt qatı da daxil olmaqla bütöv kainatın varlığını, başqa bir fikrə görə isə ata, ana və nəslin davamçısını - uşaqları bildirirsə (198, 45-48; 16, 27), məzarüstü daşların üzərində işlənmiş nəbati təsvirlər elmi ədəbiyyatda “bağçada güllər” adlandırılsa da, mifoloji anlamda bu təsvirlər yer kürəsinin 4 cəhətini, ümumilikdə isə dünyanın dövr etməsinə işarədir(17, 26-29).

Başdaşı üzərində həmçinin qəbrin Həzə Mərqəd əl mərhum Məhəmmədə (hicri 1305) məxsus olduğu yazılmışdır (izahı; bu qəbir mərhum müsəlman Məhəmmədindir).

Şirvan yaşayış yerinin ikinci böyük qəbiristanlığı «Çıplaklı» qəbiristanlığıdır (tablo 39, şəkil 2). Kürdən təxminən 100 metr aralı, şərq istiqamətdə uzanan ərazi yumşaq, boş torpaq, səhra və yarımsəhra relyefinə malik olduğundan, əhali buranı «Çıplaklı» adlandırmışdır. Yaşlı sakinlərin məlumatına görə, vaxtilə bura köhnə dəmir yolu stansiyasına qədər 2 ha-dan artıq sahəni əhatə etmişdir. Baş daşları ustalıqla yonularaq üçüncü bir daşla möhkəmləndirilmişdir ki, bu da sənduqələrin hündür olan baş daşlarına dayaq durması məqsədilə edilmişdir.

Böyüklərdən fərqli olaraq, uşaq qəbirlərinin baş və sənduqəlri nisbətən kiçik ölçülü olmaqla, bütöv yonulmuş və müxtəlif rəsmlərlə bəzədilmişdir (tablo 38, şəkil 2).

Tədqiq olunan bölgədə orta əsr yaşayış yerinə yaxın olan qəbiristanlıqlardan biri də Şirvan sakinlərinin «Yaşayış yeri» və

ya «El qəbiristanlığı» (tablo 39,şəkil 1) adlandırdıqları qəbiristanlıqdır. Qəbiristanlıq şəhər yerinin yaxınlığında, Mişovdağın ətəklərində yerləşir və təxminən 7-8 hektara qədər böyük bir sahəni əhatə edir. Qəbirlərin bəzilərinin üzərində qoç, balıq, quş və s. təsvirlər həkk olunmuşdur.

Qoç (ağ qoç, qara qoç), it, öküz, xoruz, şir, ilan və s. kimi müxtəlif heyvan və quş təsvirlərinin varlığı yalnız bəzək elementi deyil, həm də insanların ibtidai təsəvvürlərində məhsuldarlıq rəmzi kimi çıxış edərək, vaxtilə onlara sitayişin mövcudluğundan xəbər verir.

Məlum olduğu kimi, tarixən Azərbaycanda mövcud olmuş müxtəlif tayfa və xalqların həyatında qoça sitayiş mühüm rol oynamışdır. Bunun əsas səbəblərindən biri xırda buynuzlu heyvanların maldarlıq təsərrüfatında üstünlük təşkil etməsi olmuşdur.

Baş verməkdə olan proseslərin inkişafı başqa sahələrdə olduğu kimi sənətkarlıqda da özünü göstərirdi. Sənətkarlığın bir sahəsi olan heykəltaraşlıqla məşğul olan sənətkarlar gildən və metaldan müxtəlif fiqurları düzəldirdilər. Bunu Azərbaycanın orta əsr şəhərlərində aparılan arxeoloji qazıntılarından tapılan gil fiqurları da təsdiq edir (65, 207-209;13,74-77).

Məlumdur ki, hələ orta əsrlər dövründə qədim Azərbaycan tayfalarından olan Ağqoyunlular və Qaraqoyunlular dövlətinin həm adında, həm də bayrağında ağ və qara qoçun təsvirləri öz əksini tapmışdır. Bundan başqa

Azərbaycan nağıl, əsatir və rəvayətlərində də qoç obrazı geniş təmsil olunmuşdur (55, 140-146; 59, 16-18).

Xalq inanc və etiqadlarında quş sülh, ağ qoç işıq, qara qoç qaranlıq, it sadiq yoldaş, şir od və günəş rəmzi kimi təsvir olunmuş, ilana isə məhsuldarlıq və bolluq simvolu kimi sitayiş olunmuşdur. İndinin özündə də Azərbaycanın bəzi bölgələrində, o cümlədən Şirvanda ilana toxunulmaz, müqəddəs varlıq kimi baxılır.

Onu da qeyd edək ki, Azərbaycanda və Mərkəzi Asiya xalqları arasında ilana ikili münasibət olmuşdur. İlana bir tərəfdən qorxu və bədnəzərdən qorunma, digər tərəfdən isə bolluq, bərəkət və məhsuldarlıq simvolu kimi sitayiş olunmuşdur. Avropa və Asiya ölkələrində ona ilahiləşdirilmiş qadın rəmzi kimi baxılırdı (182,468-471). Belə bir dünya görüş özünü «İlanı görənə lənət, görüb öldürməyənədə lənət, öldürüb basdırmayanada lənət» kimi deyimlərdə də göstərir.

Çox ehtimal ki, qadın bəzəklərində ilan təsvirlərinin geniş yer tutması da bununla əlaqədar olmuşdur. Goranboy rayonunda Bəxtiyar Cəlilovun 6 saylı kurqanda apardığı arxeoloji qazıntılar zamanı bir-birinə dolaşmış dörd cəhətə istiqamətləndirilmiş ilan başları təsvir olunan svastika (nişanın tapılması) deyilənləri sübut edir (40,95-103) .

Beləliklə, qəbirlərdə zinət əşyalarının varlığı bir tərəfdən qadının ali zümrədən olduğuna işarə kimi başa düşülürdüsə, digər tərəfdən də metal əşyaların ailənin şər qüvvələrdən

qorunmasında böyük rol oynadığını bildirən əlamət kimi çıxış edir.

Qadınlara məxsus olan başdaşılar üzərində həkk edilmiş bəzək təsvirləri orta əsrlərdə Azərbaycanda zərgərlik sənətinin geniş inkişaf etdiyindən xəbər verən amillərdəndir. Başdaşılarından birinin üzərində - hər iki tərəfdən açılmış əllər formasında olan təsvirin yuxarı tərəfində ayparaşəkilli sırğa nəqş olunmuşdur. Kompozisiya elə qurulmuşdur ki, sanki qadın əlləri ilə sırğanı tutur. Başqa bir yozuma görə isə qadın Ulu Tanrının ucalığına dua edərək, ondan imdad diləyir. Aşağıya doğru gəldikcə sinə boyu başdaşının orta hissəsində boyun bəzəyi oyma üsulu ilə həkk olunmuşdur.

Çərçivənin içərisində nəbati ornamentlə gül-çiçək təsviri verilmiş, aşağıya doğru hissədə isə ipə keçirilmiş boyunbağı qadaq (mismar – E.A.) vasitəsilə boğaza bənd edilmişdir. Boyunbağının hissələri arpa formasında olub 10 ədəddir. Məlumdur ki, arpa müqəddəs sayılan bitkilərdəndir və bu formalı bəzəklər bərəkət, bolluq rəmzi olmaqla Azərbaycanda bəzək formasında ən geniş yayılan əşyalardan hesab olunur ( tablo 38, şəkil 3).

Cənub-şərqi Şirvanın orta əsr qəbiristanlıqlarından biri də Mişovdağ qəbiristanlığıdır. Qəbiristanlıq kiçik təpə üzərində yerləşir və müxtəlif dövrlərdə əhali tərəfindən istifadə edilmişdir. Arxeoloji materiallara və qəbirüstü abidələrə əsasən qəbiristanlığın XV - XVIII əsrlərə aid olduğunu söyləmək olar. Hal-hazırda da qəbiristanlıq yaxınlıqda olan qışlaqların əhalisi tərəfindən istifadə edildiyindən, burada qəbirlər qarışıq halda

yerləşir. Çox da hündür olmayan baş daşları təbii daşlardan sadə üsulla hazırlanmışdır (tablo 39, şəkil 2)

Sənduqə tipli qəbir daşları düzbucaqlı formadadır. Aşağı hissədən pilləvarı şəkildə hazırlanmış sənduqələrin bəziləri sadə xətlərlə, digərləri isə mürəkkəb həndəsi və stilistik nəbati təsvirlərlə bəzədilmişdir. Onların üzərinə «Quran-i Kərim»dən ayə və surələr yazılmışdır. Qəbiristanlıq ərazisində az da olsa son orta əsrlərə aid arxeoloji materiallara da təsadüf olunur.

Böyük Mişovdağın ətəklərində yerləşən digər qəbiristanlıq «Şəkixan oba» qəbiristanlığıdır. Təpəlik üzərində yerləşən qəbiristanlığın yerüstü əlamətləri tədqiq edilən digər qəbiristanlıqlardan olduqca zəifdir. Burada qəbirüstü daşların əksəriyyəti torpaq altında qalmış, bəziləri isə çətinliklə görünməkdədir. Sənduqələr dağ daşlarından düzbucaqlı formada yonulmuşdur və üzərində təsvirlər yoxdur.

«Şəkixan oba» qəbiristanlığından toplanmış saxsı qab fraqmentlərinin müəyyən hissəsi IX-XI əsrlərə, qəbirüstü sənduqələr isə XIV-XVIII əsrlərə aiddirlər (103, 77-79).

Cənub-şərqi Şirvanın orta əsr qəbirlərini əsasən iki tipə ayırmaq olar. Birinci tip qəbirlər əhalinin az təminatlı təbəqəsinə aid olub, sadə formada təbii daşlardan hazırlanmışdır. İkinci tip qəbirlərin isə varlı təbəqə nümayəndələrinə mənsubluğu diqqəti cəlb edir. Kasıb təbəqəyə məxsus sənduqələr bədii tərtibat cəhətdən zəif hazırlandığı halda, tanınmış şəxslərin qəbirüstü sənduqələri daha çox həndəsi və stilistik-nəbati təsvirlərlə bəzədilmişdir. Dəfin zamanı istifadə olunan sinə və baş daşları bir qayda olaraq

Mişovdağdan və ətraf ərazilərdən gətirilmişdir. Hal-hazırda da qəbiristanlıq yaxınlığındakı qışlaqda yaşayan əhali dünyasını dəyişənləri bu qəbiristanlıqda dəfin edirlər.

Beləliklə, cənub-şərqi Şirvan ərazisində arxeoloji cəhətdən tədqiq olunan qəbiristanlıqlar yerüstü əlamətlərinə görə IX-XVIII əsrlərə aid olsalar da bəzilərindən müasir dövrdə də istifadə edilməkdədir. Burada iri ölçülü daşlardan hazırlanmış sənduqə və baş daşlarından başqa, çoxlu sadə daş qutu və torpaq qəbirlərə də təsadüf olunur.

Qəbir daşları (sənduqələr) orta əsrlər daşişləmə sənətinin müxtəlif üsullarından istifadə edilərək (qaraçapma, cilalama, yonma və s.) hazırlanmışdır. Daşişləmə Şirvan memarlığı üçün xarakterik olmaqla, onun bu və ya digər sahələrindən orta əsr Şabran şəhər sənətkarlığında da geniş istifadə edilmişdir (83,112-121;90, 55;183,17;178).

Qəbiristanlıq ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı saxsı qab nümunələrinə də təsadüf edilmişdir. Bu nümunələrdən bəziləri XIII-XIV əsrlərə aid olub, məişət və təsərrüfatda işlədilmiş bardaq tipli qabın oturacaq hissəsindən və su tüngündən ibarətdir. Saxsı qab və su tüngünün qırıqlarının qəbiristanlığa yaxın olan ərazidən tapılması burada yaşayan əhalinin orta əsrlərdə su təchizatı sistemi haqqında da müəyyən təsəvvür yaradır (tablo 43).

Qəbir abidələrində aparılan tədqiqatlar, yalnız dəfn adətləri ilə bağlı problemlərin həlli üçün deyil, eyni zamanda orta əsr tətbiqi incəsənətin, ümumiyyətlə daşişləmə sənətinin araşdırılmasına da imkan verir.

**1.1.5. İctimai və memoral tikililər.** Cənub-şərqi Şirvanın pirlərinin dərin tarixi kökləri vardır. Bunu pirlərə yaxın olan yaşayış yerlərində aşkar olunan maddi mədəniyyət nümunələri də təsdiq edir. Həmin nümunələr istər arxeoloji, istərsə də etnoqrafik baxımdan böyük maraq kəsb etməklə, orta əsrlər tarixinin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir.

«Pir» sözü Azərbaycan və bir çox başqa dillərdə «ixtiyar qoca», «ağsaqqal», «tayfa başçısı» və s. dini cəmiyyətin əsasını qoyan mənaları ifadə edir (95,16-18; 195,97-99; 60,18). Bundan başqa «ocaq» mənasını ehtiva edən bu ziyarətgahlar Azərbaycan dilində «od yandırılan yer», «yaşayış yeri», «məkan» və s. mənalarında da işlədilir. Azərbaycanda olan bir sıra pirlər öz adlarında «ata» və «baba» sözlərini birləşdirir. Bu isə ata-baba yurdu, ulu babadan yeni nəslə qalmış «ocaq» mənalarını əks etdirir (77, 17-18).

Pirlər orta əsrlərdə sosial-mədəni-ideoloji mərkəz kimi fəaliyyət göstərməklə yanaşı, müridlərin yaşaması, ticarət və qərib adamların gecələməsi üçün sığınacaq yerləri kimi də fəaliyyət göstərmişdir. Pirlərdə dəfn olunan adamlar müqəddəs şəxslər olmuşlar. Pir və digər dini tikililərin hündür dağ zirvəsində tikilməsi insanların hələ qədim dövrlərdən dağları özlərinə yaşayış, yurd yeri seçmələri ilə əlaqədar olmuşdur (176, 207; 180).

İslam dinini və bu dinin adət-ənənələrini qəbul etmiş yerli feodallar IX-XV əsrlərdə də öz hakimiyyətlərini gücləndirmək məqsədi ilə qala istehkam, o cümlədən başqa mülki tikililərlə yanaşı, bir sıra sosial, mədəni-siyasi əhəmiyyət kəsb edən ribat, xanəgah, pir, məscid və s. kimi dini ocaqların, kompleks halda

yeni tikililərin genişləndirilməsinə və abadlaşdırılmasına xüsusi fikir verirdilər. Bu baxımdan istər memarlıq, istərsə də xatirə abidələri üzərindəki kitabələr bir qayda olaraq ərəb dilində yazılır və hər binanın fəaliyyətinə uyğun müqəddəs ayə və hədislərlə tamamlanırdı.

Xanəgah, pir, türbə, imamzadə, ribat və b. kompleks abidələrin kitabələrində, həmçinin məzar daşlarında (sənduqə və baş daşları) dövrün alimlərinin, din xadimlərinin, şeyxlərin, təriqət başçılarının adları həkk olunurdu. Belə müqəddəs yerlərdə əsasən şiə imamlarının ən yaxın qohumları dəfn edilirdilər (186, 4-6).

2000-2005-ci illərdə apardığımız arxeoloji tədqiqatlar zamanı cənub-şərqi Şirvandakı bəzi pirlərə və ocaqlara baxış keçirmiş, qismən də olsa, onları araşdırmağa səy göstərmişik (8, 141-146).

Müqəddəs sayılmış pirlərə əcdadlarımız inam bəsləmiş, müxtəlif niyyətlər üçün dedikləri qurbanları pirlərin həyətində kəsərək orada ocaq daşlarının üstündə bişirmişlər. Etnoqrafik müşahidələr göstərir ki, insanlar niyyətlərinin yerinə yetməsi məqsədilə kəsilən heyvan və qoçların buynuzlarını, dırnaqla birgə ayaqlarını da əksər hallarda pirin həyət qapısından asırdılar. Azərbaycanda mövcud olan qurbankəsmə adəti qədim zamanlarda Misirdə, Çində, Romada, Yunanıstanda, Yaponiyada da olmuşdur (95, 7).

XV əsr Azərbaycan memarlığının maraqlı nümunələri sırasında Əmirsəd məqbərəsi Cəfərabad kəndi (Qərbi Azərbaycanda və Laçın rayonunda); Şeyx Bədrəddin

məqbərəsi (Qəbələ, Həzrə kəndi); Dər kəndindəki məscid (Naxçıvan); Göy məscid (Təbriz); Şeyx Dursun məqbərəsi (Ağsu rayonu); Şakir ağa məqbərəsi (Balaxanı kəndi, Bakı); Şirvanşahlar sarayı (Bakı, İçərişəhər); Tuba-Şahi məscidi (Bakı, Mərdəkan kəndi); Axanqan məqbərəsi (Cənubu Azərbaycan) və s. diqqəti cəlb edir (108, 268-269).

Şamaxının Mərəzə kəndində yerləşən Diri Baba türbəsi də müqəddəs ziyarətgahlardan hesab olunur. 1402-ci ildə (XV əsr) inşa olunmuş bu unikal məqbərə ayrıca tikili olmayıb, qaya içərisində açılmış süni mağaranın içərisində tikilmiş abidədir (109, 69-71).

Abidənin memarı ustad Hacının oğlu, türbənin dekorator-nəqqaşı isə ustad Dərviş olmuşdur. Quruluşuna görə məqbərə ikimərtəbəlidir. Pilləkənlərlə qalxıb dərin tağlar vasitəsilə bəzədilmiş fasada çıxmaq olar. İkinci mərtəbəyə vintvari pilləkənlər aparır. Binanın tağlarının timpanlarında daş oyma naxışlar, yamşaq isə stalaktidvari-naxışlar həkk olunmuşdur. Abidə ənənəvi olaraq şərqə yox, cənub istiqamətinə yönəldilərək tikilmişdir.

Diri Baba türbəsinin kitabəsi sındırılsa da, hissələri bizim dövrümüzə qədər gəlib çatmışdır. Kitabənin üzərindəki tarixçəni ilk dəfə Rus Şərqşünası Dorn oxumuşdur (162,77-82).

Abidənin adının tarixçəsi barədə də çox maraqlı rəvayət söylənilir. Türbədə dəfn olunmuş şəxsin sufi şeyxi Baba olduğu qeyd edilir. Şeyxin ölümünə az müddət qalır, həyatının axır məqamlarını ibadətlə məşğul olmağı qərara alır. Hücrəsində müqəddəs kitabdan ilahi kəlamları oxuyarkən Şeyx

Baba haqq dünyasına qovuşur, lakin Şeyxin müridləri onun öldüyünü bir neçə gün sonradan anlayırlar, hiss edirlər. Yəni, Şeyx ölsə də bir neçə gün "diri qalır". Bu səbəbdən Şeyxin qəbri üzərində türbə tikiləndən sonra buraya Diri Baba türbəsi adı verilir.

Tədqiq olunan bölgədə mövcud olan pirlərdən biri- Şatrovka - Pakirovka (Nizami, Nəsimi kəndləri-E.A) kəndinin dörd kilometrliyində, təpəlik ərazidə yerləşən qəbiristanlıqda olan "Vəğam" piridir. Kənddə daha çox XIX əsrin 30-cu illərində Rusiyanın mərkəzi quberniyalarından köçürülmüş ailələr yerləşdirilmişlər. Yeni yaşayış evləri çadıra oxşar formada inşa olunduğundan, kənd belə adlandırılmışdır (134, 8-9; 142, 97-99).

"Vəğam" piri iri sal qayalardan ibarət mağaranın boşluqlarında düzəldilib. Pirin düzbucaqlı fasadına metlaq döşənmiş (-döşəmə tavalar), üstünə qoruyucu sement layı çəkilməklə ağ rənglə rənglənmişdir. Ayrı-ayrı iri sal daşların birləşən yerlərində olan boşluqlara sement qatışığından ibarət məhlul vurulmuşdur. Bir kiçik otaqdan ibarət olan pirin divarları da əhənglə ağardılıb. Taxta döşəməyə malik pirin tavanının uçmaması üçün hər tərəfində çox da hündür olmayan dördbucaqlı dirəklər bərkidilmişdir. Döşəməyə bir neçə kiçik yastıqça döşənmişdir ki, bu da ziyarətə gələn zəvvarların rahatlığı və istirahəti üçün nəzərdə tutulmuşdur. Giriş qapısında dəmirdən yeşik, yeşiyin üst hissəsində nəzir salmaq üçün oyuq, ondan sağ tərəfdə isə tünd qəhvəyi rəngdə ağacdan hazırlanmış minbər quraşdırılmışdır.

Ağacdan hazırlanmış minbər dişli ornamentlə bəzədilmiş və üzərinə şəffaf rəng çəkilmişdir. Görünür minbər pirə sökülmüş halda gətirilmiş və sonradan quraşdırılmışdır. Çünki, pirin dar qapısından onu qurulu halda içəri keçirmək mümkün olmazdı. Pirin girişindən sağda, qayaların üstündə pöhrə əncir ağacı var. Müqəddəs sayılan əncir ağacının üstünə ziyarətə gələnlər müxtəlif rəngli parçalar bağlayırlar (tablo 42, şəkil 1).

"Vəğam" sözünün etimologiyasına gəldikdə, bu, ərəb dilindən tərcümədə "dava", "döyüş", "gurultu" mənasını verir. Onu da qeyd etmək lazımdır ki, «vəğam» sözü Azərbaycan dilinin tələffüzündə "vağam" kimi işlənilir və bir çox zonalarda, o cümlədən Şirvan, Qarabağ bölgələrində "vaxtı keçmiş" mənasında işlədilir. Məsələn, "Vəğamlanmış taxıl" (yəni vaxtı keçmiş, çox yetişib sünbülü tökülən taxıl və s.). Başqa bir mülahizəyə görə isə pirin adı "Qurani-Kərim"in 56–cı surəsi- "Əl-Vaqiə" ilə də əlaqələndirilir və mənası mütləq baş verəcək "hadisə" kimi izah olunur (176, 78). Tədqiqata cəlb edilən Vəğam piri VIII-XII əsrlərdə sufizmi təbliğ edən dərvişlərin, şeyxlərin yığıncaq məskəni kimi fəaliyyət göstərmişdir.

Ərazidə inşası tamamlanmamış bir məscid də vardır. Bir qədər aralıda isə dəmirdən çardaq quraşdırılmış, uzun stol və oturacaqlar qoyulmuş, çay qaynatmaq üçün samovar və başqa əşyalarla zəngin olan qurbangah vardır. Yerli əhali kütləvi halda piri hər il ziyarət edir və inanırlar ki, o, bir sıra xroniki xəstəliklərin müalicəsinə, ən ümidsiz xəstələrin belə sağalmasına kömək edir.

“Əl-Vaqiə” surəsi Y. İ. Kraçkovskinin tərcüməsində “подающий -padayuş-eye”(176, 42) yıxılan, dağılan, sökülən, uçulan, Q. S. Soblukovanın tərcüməsində isə « постигаю - postiqa-öhi» «olmuş-olacaqlar» kimi tərcümə edilsə də, ayələrdə cənnət, cəhənnəmdə axirət günü yaradanın itaətindən çıxmayanların (möminlərin) üç zümrəyə bölündüyünə işarə edir (195, 57).

Dəmro pri cənub-şərqi Şirvanın Çıplaklı qəbristanlığında yerləşir. Pir adi sinə daşından ibarətdir. Pirə baxanın fikrincə pirin torpağından bəzi xəstəliklərin (dəmro, xora) müalicəsində istifadə olunur (tablo 40, şəkil 1,2).

**Pir Hüseyn Xanəgahı.** Pir Hüseyn Xanəgahı Hacıqabulun Nəvai kəndi ərazisində, Pirssat çayı sahilində yerləşən memarlıq kompleksidir (196,51; 110,184-185). Dördbucaqlı qala divarları ilə əhatə olunan bu kompleks Şirvanı dünya ilə birləşdirən unikal memarlıq abidəsidir. Pirsaat xanəgah kompleksi əhalinin müqəddəs saydığı, pirə çevirdiyi və bu gün də ziyarət yeri olan Pir Hüseyn Şirvaninin türbəsi ətrafında yerləşdirilmişdir. Türbə XI yüzilliyin sonlarında tikilmişdir. Pirsaat məscid və minarəsi yaxşı yonulmuş daşdan yüksək səviyyədə tikilmişdir. Şirvan memarlığı üslubunda inşa edilən abidənin fasadı gəc və çoxçeşidli kaşi ilə işlənmişdir. Elxanilər hakimiyyətinin güclənməsi dövrünə aid olan məscidin dekor bəzəyi miladi 1285-1286-cı illərdə (h.684-cü il) Ömər Məhəmməd oğlu Qəzvini yerinə yetirmişdir.

Xanəgah kompleksi türbə, məscid, minarə, ziyarətçilərin və zəvvarların qalması üçün binalar, karvansaray, heyvanların saxlanması üçün tövlə və qədim qəbristanlıqdan ibarətdir.

Pirsaatçay üzərində inşa olunan xanəgah zəngin inşaat texnikasına malik olan qiymətli tarixi-memarlıq abidəsidir.

Memarlıq kompleksi haqqında B.Dorn (162, 74) və V. Sısoyev (196,51) maraqlı məlumatlar vermişlər. Onlar, kompleksdə dörd qala divarı, qərb divarı yanında məqbərəli məscid və çox da böyük olmayan tikililər, şimal divarı yaxınlığında tikili və minarə, habelə abidədən xaricdə yardımçı binalar, həmçinin kompleksin cənub-şimalında xırda tikililərin olduğu haqda məlumat vermişlər.

Cənub-şərqi Şirvanın Şirvan memarlığı üslubunda inşa edilən Pir Hüseyn Xanəgahının kaşıları və onların üzərində işlənmiş ornamental dekor bəzəkləri şərqşünas-alim V. A. Kraçkovskaya tərəfindən ətraflı tədqiq edilmiş və fundamental monoqrafik əsər şəklində nəşr olunmuşdur (177,35-50). Yüzilliklərin tarixi yaddaşına həkk olunan Pir Hüseyn Xənagahı karvan yolu üzərində inşa edilən və XI-XIII əsr Şirvan memarlığında xüsusi əhəmiyyət kəsb edən abidələr kompleksidir.

# II FƏSİL.

## ŞİRVANIN TƏSƏRRÜFAT HƏYATI

Şirvanın cənub-şərq bölgəsində arxeoloji tədqiqatlar zamanı əhalinin məşğul olduğu ayrı-ayrı təsərrüfat sahələrində istifadə etdikləri əmək alətləri əldə edilmişdir. Əldə edilmiş materiallara əsasən yerli əhalinin oturaq həyat yaşadığını demək olar. Aşkar olunan əmək alətləri metal, sümük, daş, ağac və s. ibarət olanlardır. Oturaq həyat yaşayan əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq, sənətkarlıqla yanaşı, yardımçı təsərrüfatla da məşğul olmuşlar. Yardımçı təsərrüfatın başlıca sahələri olan balıqçılıq, ovçuluq, bağçılıq və bostançılığa aid yaşayış yerindən aşkar olunan çoxsaylı ostoloji qalıqlar də təsdiq edir. Tədqiq olunan yaşayış yerində aşkar olunan maddi mədəniyyət nümunələri orta əsrlər dövründə cənub-şərqi Şirvan əhalisinin təsərrüfat həyatı haqqında mükəmməl məlumat verir.

Ona görə ki, cənub-şərqi Şirvanın ərazisi maldarlıq və əkinçilik təsərrüfatının inkişafı baxımından geniş imkanlara malikdir. Əkin sahələri üçün Kürə yaxın ərazilər daha əlverişlidir. Əsas yaylaqlar Hacıqabul dağları ərazisindən cənuba, Kürün şərq və cənub hissəsinə doğru yerləşir. Kür çayının bu hissəsi Xəzər dənizi ilə birləşir və bu torpaqlar əkinçilik, maldarlıq üçün o qədər də yararlı deyil. Qışlaq üçün əlverişli düzənlik ərazilər, əsasən, Bəndovan, Qoltuq yeri və Bozdağdan ayrılır.

Mənbələrdən məlum olur ki, cənub-şərqi Şirvanın böyük bir ərazisi dənizlə həmsərhəd olmuş, duzlu gölü və düzən

sahələri ilə zəngin olmuşdur ki, sonralar bu sahələr qum ilə örtülmüşdür. Yazılı mənbələrə əsasən qışlaq yerləri tamamilə duzla örtüldüyündən otlaq sahəsi kimi bir o qədər də yararlı olmamışdır (127,3-15;129,4-11).

Bəndovan qışlağı isə cənubdan Bozdağ dağlarına doğru çox da böyük olmayan təpəlikdən ibarətdir. Ona görə də yaylaqda heyvanların saxlanması və suya olan tələbatını ödəmək üçün otlaq sahələrindən Kür və Pirsaat çaylarına qədər yol çəkilmişdir. Eyni zamanda Şirvan sakinlərinin həm dağ, həm də Aran əraziyə yaxın yerlərdə məskunlaşması burada maldarlıq təsərrüfatının inkişafına səbəb olmuşdur. Mənbələrdən bir daha aydın olur ki, şimal yaylaqları, əsasən Ərəbşahverdi kəndinin əhalisinin heyvanlarının otarılması üçün istifadə edilmişdir.

**2.1.Bölgənin təbii–coğrafi şəraiti.** Azərbaycanın tarixi ərazilərindən biri olan Şirvan VI–IX əsrlərdə paytaxtı əvvəlcə Bərdə, sonra isə Gəncə şəhəri olan Şirvan şahlığının tərkibinə daxil olmuşdur. Şirvan vilayətinin sərhədləri şərqdə Xəzər dənizi, cənubda Kür çayı, şimal-qərbdə Qafqaz sıra dağları, Bozdağ silsilələri və Dərvaq çayı yatağının Xəzər dənizinə qovuşduğu yerə qədər uzanan ərazi ilə məhdudlaşır (147, 13).

Yaqut əl Həməvinin "Mucam əl Buldan" ("Ölkələrin coğrafi lüğəti – E.A) əsərində cənub-şərqi Şirvan bölgəsində "Güştəsfi vilayəti"nin olduğu qeyd edilir. Müəllifin fikrincə, Güştəsfi və vilayətin böyük şəhərlərindən biri olan Mahmudabad beşinci iqlimə aiddir. Bu məlumat digər mənbələrlə də təsdiqlənir (132,52; 27,17).

Cənub-şərqi Şirvanın düzənlikləri dördüncü dövr yaşlı çöküntü süxurları ilə örtülmüşdür. Bölgənin Xəzər dənizinə yaxın olan ərazilərində isə dəniz mənşəli süxurlar üstünlük təşkil edir. Bu bölgə çay mənşəli süxurlardan ibarət olub neft və qaz yataqları, çöküntü mənşəli qeyri-filiz faydalı qazıntıları ilə zəngindir (23, 108-109).

Cənub-şərqi Şirvanın nəbatat aləmi də çox müxtəlifdir. Alp nahiyəsində 7 ½ -14 min fut yüksəklikdə olan dağların vegetasiya müddəti çox qısadır (6-8 həftə). Ona görə də M.Vəlili qeyd edir ki, bu bölgə yaşıllıq və əkin sahələri baxımından məhduddur. Bozqır hissədə nəbatat yoxsuldur. Çünki buralarda çox isti və quru yay olur. Baharda qarlar əridikdən və yağmur düşdükdən sonra bozqırlar təmiz və zəif otlar, gözəl və böyük çiçəklər (lalə, zəfəran gülü, çöl mimozası və s.) və tikanlı güllərlə (gövhər, biyan kökü, dəvətikanı və qeyriləri ilə) örtülür. Bu bitkilər çay sahillərində və durmuş (axmaz) su kənarlarında gizlənir. Yayda yandırıcı günəşin istisindən bu nəbatat tamamilə yanır və bozqır boz rəng alır. Bəzi yerlərdə quruluğa davam edə bilən ot bitkiləri görünür. Payız yağışları yağdıqdan sonra bu yaşıllıqlar təzədən canlanıb bütün qışı baharadək davam edir (79, 16).

Hacıqabul şəhərindən başlayaraq qərbdən və cənubdan Kür çayının yatağı, şərqdən Xəzər dənizi, şimaldan Ələt tirəsi ilə əhatələnən cənub-şərqi Şirvan ilk növbədə landşaftının müxtəlifliyi ilə seçilir. Bunu şərtləndirən əsas amillər ilk növbədə ərazinin qərb və şərq istiqamətlərində su hövzələri ilə əhatələnməsi, şimalda Pirsaat çayı ərazisinin şimal hissəsində kiçik sahədə də olsa, çəmən-çala komplekslərin

mövcudluğu, nəhayət ərazinin qərb sərhədləri boyu və daxili hissələrdə ara-sıra tektonik strukturların (qırışıqların) və dairəvi formalı palçıq vulkanı təpələrinin olmasıdır (23, 219).

Ərazinin şimal hissəsində yerləşən Pirsaat düzənliyini cənub düzənliklərindən Qalmaz (198 m), Mişovdağ (292 m), palçıq vulkanları və cavan tektonik qalma nəticəsində əmələ gəlmiş yüksəkliklər ayırır.

Cənub-şərqi Şirvanın fiziki coğrafiyasını tədqiq etmiş M.A.Müseyibov qeyd edir ki, Şirvanın ön əyilmə zonasının maili düzənlikləri Kürün sol sahili düzənliklərinin şimal dağətəyi zonasını əhatə edir. Bu maili düzənliklər Acınohur-Ləngəbiz inversion qırışıqlığı zonasından cənubda qövsvari uzanan neotektonik mütləq əyilmə zonasına tuş gəlir. Cənub-şərqi Şirvan düzü, müəllifin fikrincə, Şərqi Kür depressiyasının bir hissəsidir. Kür-Araz ovalığının qalan hissələrindən fərqli olaraq, burada relyefin struktur formaları və inversion qırışıqlıq zonaları, palçıq vulkanı morfostrukturları inkişaf etmişdir. Kalmas, Hamamdağ, Bozdağ, Kürsəngi, Bəndovan, Mişovdağ palçıq vulkanları bu bölgəni Kür-Araz ovalığı düzənliklərindən fərqləndirir (92, 87-89).

Cənub-şərqi Şirvan düzü cənub-şərq istiqamətində daralan bir neçə düzgün olmayan dördbucaqlı formasındadır. Bölgə şimaldan cənuba doğru təqribən 65 km təşkil edir. Tədqiqatçı L. Q. Romanovun fikrincə, ərazinin əksər hissələri Baş Qafqaz sıra dağlarının davamı olmuş, sonralar dağılmışdır. Müəllif nümunə kimi Pir-Yarım və Kürovdağı misal göstərir (192, 51-55).

Cənub-şərqi Şirvanın düzənlik hissəsi dəniz səviyyəsindən 19,2 metr çökəklikdə yerləşir. Bölgənin Şirvanın Kür sahillərində yerləşən hissəsi dördüncü dövr yaşlı çöküntü süxurları ilə örtülür. Kür tektonik çökməsi Kür-Araz ovalığı, Alazan-Əyriçay və Acınohur-Ceyrançöl alçaq dağlarından ibarətdir (23, 125). Xəzər dənizinə yaxın olan ərazilərdə dəniz mənşəli süxurlar üstünlük təşkil edir.

Kür ilə Araz vadilərində qərbdə yüksələn, şərqdə isə Xəzər istiqamətində enən bozqır torpağı əsasən gil və qumdan, 2-10 % isə qara torpaqdan ibarətdir. Ərazinin torpaq örtüyü açıq, ağ, tünd qara və boz olmaqla müxtəlif rənglərdədir. Eyni zamanda Kür və Araz çaylarının daşması nəticəsində ətrafda yaranan torpaq qatının zənginləşməsi də əkinçilik üçün olduqca yararlıdır (79, 10-11).

Tədqiq olunan bu ərazilərin torpaqları göl-çay vadiləri ilə müqayisədə mürəkkəb olub, bəzi yerlərdə duzlaq, sahilboyu yerlərdə isə dəniz qumlarından ibarətdir. Torpaq gil və duzlaq qatı üzərində oturur. Onun dənizdən quruya doğru məsafəsi 1-3 metr arasındadır.

Cənub-şərqi Şirvanın iqlimi 4 iqlim tipindən ikisinə aiddir. Birinci düzəngah- bozqırlardır ki, cənub-şərqi Şirvan üçün yayı isti və quraqlıq, qışı isə qarsız olması ilə xarakterikdir. Bir tərəfdən şiddətli isti, digər tərəfdən duzlaq bataqlıqların və tərpənməyən suların çoxluğu səbəbindən bu yerlərin iqlimi insan səhhəti üçün çox zərərlidir. Ona görə də buralarda daima müxtəlif xəstəliklər- xüsusilə, üşütmə-qızdırma və yatalaq geniş yayılmışdır.

Xəzər sahilinin iqlimi digər bölgələrdən fərqlənir. Burada şaxta az-az görünən hadisələrdəndir. İldə 12 günə kimi qarlı gün olur. Bu yerlər daha çox şimal-qərb küləyi əsməsi ilə fərqlənir ki, əhali tərəfindən xəzri (nord) adlanır. Bölgədə bu küləyin aramsız əsməsi əkinçiliyə və bütövlükdə kənd təsərrüfatına mənfi təsir göstərir.

Cənub-şərqi Şirvanın Qobustandan demək olar ki, fərqlənmir. Burada ən soyuq ayın orta temperaturu $+2.0^0$ ilə (Qazıməmməd) $+3,4^0$ (Ələt) arasında, ən isti ayın orta temperaturu isə $25,5^0$ (Hacıqabul) ilə $27,2^0$ (Neftçala) arasında dəyişir. Qış aylarında isə havanın orta temperaturu -$2^o$ –yə enir.

Kür-Araz ovalığında havanın orta illik temperaturu $14^0$-$14,5^0$-dir. İyulun orta temperaturu müsbət $20^0$-$27^0$, yanvarın orta temperaturu isə mənfi $1^0$-$3^0$s təşkil edir. Kür-Araz çayları boyunca düzənliklərdə qış mülayim, yay quraq və isti keçir. Günəşli saatların illik miqdarı Kür-Araz ovalığında və dağların ətəyində 2200-2500 saata çatır (49, 15- 20).

Orta illik yağıntıların miqdarında cənub-şərqi Şirvanın ayrı-ayrı hissələri arasında o qədər böyük fərq yoxdur. Çoxillik müşahidə materiallarının təhlili göstərir ki, ayrı-ayrı müşahidə məntəqələri arasında illik yağıntıların maksimum fərqi Ələt (218 mm) və Neftçala (294 mm) arasında müşahidə edilir. Ərazinin qalan bölgələrində yağıntıların orta illik miqdarı 250-280 mm arasındadır. Bölgədə buxarlanma isə orta illik yağıntıların miqdarından 500-800 mm çoxdur. Bu da, cənub-şərqi Şirvanda mümkün buxarlanma yağıntılarının orta illik miqdarından 3-4 dəfə artıqdır.

Azərbaycan çaylarının əksəriyyəti yağış və qar suları ilə qidalanır. Məsələn, Böyük Qafqaz silsilə dağlarından axıb gələn Əlicançay, Türyançay, Göyçay, Girdimançay, Qarasu və s. Kürə çatmır, müxtəlif kanallar vasitəsilə çöllərə axıdılır (79, 11).

Cənub-şərqi Şirvan çayları əsasən suvarma üçün yararlı olsa da, bölgədə və Muğanda içməli su kimi də istifadə edilmişdir. Beləliklə, təxmini hesablamalara görə, Kür çayı 400 verst (1verst=1066m=3500fut-E.A) uzunluğunda bir məsafədə olan nəhəng ərazinin suvarılması üçün kifayət edir.

Yağıntıların əksəriyyətinin ilin soyuq yarısında (əsasən, noyabr ayından aprel ayına qədər) yağdığı, mümkün buxarlanmanın isə ilin isti yarısına təsadüf etməsi ərazidə quraqlıq şəraitini daha da gücləndirir. Bunun da nəticəsində yay aylarında mümkün buxarlanmanın aylıq miqdarı 100-200 mm olduğu halda, həmin aylarda yağıntıların aylıq miqdarı 5-20 mm-dən artıq olmur.

Cənub-şərqi Şirvan eyni zamanda Azərbaycanın küləkli bölgələrindəndir. Burada, Şimal (xəzri) və Cənub (gilavar) külələri üstünlük təşkil edir. İlin isti aylarında gündüzlər dənizdən əsən briz (xəfif) küləkləri bura daxil olur və bir qədər havanı sərinləşdirir. Arid iqlim şəraiti səhra və yarımsəhralar üçün xarakter landşaft tiplərinin inkişafı üçün əlverişli şərait yaratmışdır.

Cənub-şərqi Şirvanın qərb və cənub hüdudu boyu Qafqazın ən böyük çayı olan Kür çayı axır və Xəzər dənizinə töküldüyü hissədə dənizə tərəf xeyli irəliləyən ensiz delta

əmələ gətirir. Çay ətraf ərazilərdən axdığına görə, ondan ərazinin yalnız az bir hissəsində, Şirvan şəhərindən cənub-şərqə-Hacıqəhrəmanlı, Xələc, Yenikənd, Kürsəngi kəndinin əkin sahələrini, cənubda isə Salyan və Neftçala rayonlarının təsərrüfatlarını suvarmaq üçün istifadə edilir. Ərazinin şimal-şərq hissələrində isə suvarma indiyə qədər problem olaraq qalır.

Etnoqrafik materiallardan məlum olur ki, əkin sahələrinin suvarılması məqsədilə çayların üzərində su çarxları qurulurdu. Çarxları hərəkətə gətirmək üçünsə atlardan istifadə edilirdi. Orta əsrlər üçün xarakterik olan bu cür ənənəvi suvarma üsulu XX əsrin əvvəllərinə qədər mövcud olmuş, əsasən, cənub-şərqi Şirvanın yaşayış məskənləri yaxınlığından keçən çaylar (Kür, Aquşa) üzərində qurulmuşdur (139,164; 39,65). Dağ və dağətəyi zonada (Hacıqabul ərazisində) su arxlar vasitəsilə birbaşa yaşayış məntəqələri və əkin sahələrinə aparılırdı. Bundan başqa, Nəvai, Pirsaat, Atbulaq kəndlərinin əkin sahələrinin suvarılmasında Pirsaat çayı müstəsna rol oynayırdı.

Azərbaycanın çayları dağ qarlarının ehtiyatı ilə artan çaylara daxildir. Bu çayların suyu bir il düşəcək yağıntının və dağ qarlarının miqdarından asılıdır. Çayların suyu xüsusi kanallar vasitəsilə çölləri, bağları, bostanları və qeyri əkinləri əkmək (suvarmaq) üçün ətrafa çıxarılır. Bu baxımdan Kür və onun qolları suvarma üçün çox yararlıdır.

Kür Cavad şəhərinin yanında Araz çayını qəbul etdikdən sonra Salyan yaxınlığında iki qola ayrılır ki, biri Kür adı ilə Xəzər dənizinə, digəri də Aquşa və ya Bala Kür adı ilə Xəzər

dənizinin Qızılağac boğazına tökülür. Bu iki qolun arasında əmələ gələn qitəyə (hissəyə) "Salyan adası deyilir" (79, 10-11). Ümumiyyətlə, Azərbaycan ərazisinin böyük bir hissəsi Araz çayının qolları ilə birlikdə Kür çayı hövzəsinə daxildir və Kür çayının Azərbaycan ərazisindən keçən hissəsinin uzunluğu 906 km-dir (23,158; 128,3-28).

Ərazidə ən geniş yayılmış boz torpaqlar dördüncü dövr çöküntülərindən (gillər, qumdaşı və b.) yaranmış yüksəkliklərdə şoranlaşmaya məruz qalmışdır. Relyefin müsbət elementləri üstün olan sahələrdə yovşan, yovşan-efemir bitkisi, şoran torpaqlarda soğan otu, qorağan halastaqus, nəmli şoran sahələrdə müxtəlif kol bitkiləri, çay kənarlarında isə çəmən, çəmən-bataqlıq bitkiləri və Kürsahili zonada Tuğay meşələri üstünlük təşkil edir.

Kür və Xəzər sahillərində yerləşən bölgənin faunası da olduqca zəngindir. Burada ceyran, dovşan, qurd, tülkü, dağ kəli, parqut, qaban, ayı, çaqqal, quşlardan alabaxta, quzğun, durna, hacıleylək, göyərçin, bildirçin, sığırçın, qırlanqaç, qarğa, zərd, qaratoyuq, ağacdələn, sağsağan, tərlan, bayquş, kəklik, qırqovul, sahil boyunca qağayı və s. geniş yayılmışdır. Bölgədə həşəratlardan qara qurd, qırxayaq (tarantul), zəhərli əqrəb (falanq, yaxud bouç) və Asiya hörümçəyi (qaraqurd), ilanlardan-gürzə, çanaqlı bağa, kərtənkələ və s. çoxluq təşkil edir. Həmçinin, Salyan rayonu ərazisində Azərbaycan təbiətinin inciləri olan ceyranları qorumaq üçün qoruq da yaradılmışdır.

Qədim zamanlardan bolsulu Kür çayında, Xəzər dənizində müxtəlif növ- qırmızı balıq, ağ balıq, pullu balıq,

qızılbalıq, naqqa, şahmahı, kütüm, sazan, çapaq və s. olması burada əhalinin ayrıca balıqçılıq təsərrüfatı ilə məşğul olmalarına imkan yaratmışdır(79, 17).

Bölgədə yaşayış məntəqələri və təsərrüfatın inkişaf etdiyi sahələrdə seliteb landşaftlar, nəqliyat, sənaye, xüsusilə, neftçıxarma, nəqletmə vasitələri xüsusi antropogen komplekslər əmələ gətirmişdir. Şirvan, Qazıməmməd, Hacıqabul, Ələt və Salyan ərazisinin cənub qurtaracaqları cənub-şərqi Şirvanın ən böyük urbanizasiya mərkəzləridir.

Tədqiqata cəlb edilən bölgənin iqlim şəraiti təsərrüfatın müxtəlif sahələrinin, xüsusilə, kənd təsərrüfatının inkişafı, əhalinin məskunlaşması üçün olduqca əlverişlidir. Günəş enerjisinin bolluğu və Kür, Aquşa, Pirsaat çaylarının su ehtiyatları, qışın mülayim keçməsi hələ orta əsrlərdə burada təsərrüfatın bütün sahələrinin inkişafına şərait yaratmışdır (90, 47-50).

Sənətkarlığın, xüsusilə, metallurgiyanın inkişafında Daşkəsən filizinin, Gədəbəy mis mədənlərinin xüsusi rolu olmuşdur. Əridilmiş metal kənardan Xəzər dənizi və quru karvan yolları vasitəsilə cənub-şərqi Şirvanın əksər şəhərlərinə gətirilirdi.

Beləliklə, təqdim etdiyimiz tarixi-arxeoloji materiallar bir daha təsdiqləyir ki, müasir cənub-şərqi Şirvanın təbii-coğrafi şəraiti burada bütün dövrlərdə insanların intensiv yaşayışının mövcud olmasına imkan vermişdir.

**2.2.Əkinçilik.** IX-XVII əsr cənub-şərqi Şirvan əhalisinin başlıca təsərrüfat sahələrindən əkinçilik olmuşdur.

Cənub-şərqi Şirvanın təbii-coğrafi şəraiti, düzənlik və dağətəyi ərazidə yerləşməsi, ərazinin bol və şirin sulu çaylarla əhatə olması qədim zamanlardan əkinçiliyin inkişaf etdirilməsi üçün böyük imkanlar yaratmışdır. Bu dövürdə əkinçilik təsərrüfatının inkişaf etdirilməsi məqsədilə metal alətlərin istehsalı artırılırdı. Arxeoloji tədqiqatlar zamanı Orta əsr abidələrindən əkinçilik mədəniyyətinə aid müxtəlif əmək alətləri, dənli bitki qalıqları və s. aşkarlanmışdır. Arxeoloji tədqiqatlar və etnoqrafik müşahidələr tədqiqat aparılan yaşayış yerlərində təsərrüfatın, əsasını dənli bitkilərin istehsalına üstünlük verildiyini sübut edir. Kür çayı sahilində əkinçilik təsərrüfatının genişlənməsi burada əhalinin sıx məskunlaşmasına şərait yaratmış, əkinçilik üçün geniş sahələrdən istifadə zərurətini doğurmuşdu. Cənub-şərqi Şirvanın abidələrində aşkar olunan yaşayış yerləri bir-birinə yaxın və sayca çox olmaları təsdiq edir ki, bölgə ən sıx əhaliyə malik yaşayış yerlərindən biri olmuşdur. Arxeoloji tədqiqatlardan və etnoqrafik müşahidələrdən aydın olur ki, Azərbaycanın ayrı-ayrı bölgələrində yerin şumlanması geniş yayılmışdır. Əkin sahələri dəmir gavahınlı xışla şumlanırdısa, sonrakı dövrlərdə qoşqu alətlərilə də şumlanırdı. İlkin mərhələdə xışın hazırlanması üçün yerli ağac materialından istifadə edilmişdir. Xışla əsasən əkiləcək torpaq şumlanır və çevrilirdi. İlkin şum prosesində istifadə olunan xışlar ağacdan hazırlandığından uzun müddət qalmamış və tez xarab olmuşdur. Dəmirin meydana çıxması əkinçilik alətlərinin hazırlanmasında böyük dönüş yaratdı. Artıq, alətlərin

hazırlanmasında ağac dəmirlə əvəzlənirdi. Əkin sahələrinin daha çox bol məhsul verməsi çaylar, arxlar, kəhrizlər və süni suvarma sistemləri ilə vaxtlı-vaxtında suvarılmasından asılı idi. Ərazidə buğda, arpa, çəltik, qarğıdalı və s. bu kimi təsərrüfat əhəmiyyətli bitkilərinin yetişdirilməsinin səbəblərindən biri münbit torpağa malik olmasıdırsa, digər səbəbi isə cənub-şərqi Şirvanın bol sulu Kür çayının və onun qolları arasında yerləşməsidir.

Eramızdan əvvəl I minillikdən başlayaraq mis və tuncdan fərqli olaraq təsərrüfat həyatında dəmirdən hazırlanan işçi alətlərə daha çox üstünlük verilirdi. Bir tərəfdən təsərrüfat işlərində istifadə yerlərinə görə dəmirdən hazırlanan əmək alətlərinə tələbat artırdısa, digər tərəfdən də onların ağaca nisbətən daha uzun ömürlü olması idi. Eyni zamanda dəmirdən hazırlanmış alətlər daha təkmilləşmiş səviyyədə hazırlanmışdır. Belə bir dəmir gavahın Şərqi Gəncəbasarda arxeoloji qazıntılar zamanı tapılmışdır. Üçbucaqlı quruluşa malik olan dəmir gavahın ilk orta əsrlərə (VI-VII əsrlər) aiddir. Uzun müddət torpaq altında qaldığından yaxşı mühafizə olunmamışdır. Fərqli bir gavahın nümunəsi Örənqala qazıntılarından məlumdur və XII–XIII əsrlərə aiddir (81,50-52).

Yerin şumlanmasında gavahınla yanaşı istifadə olunan alətlərdən digəri toxalardır. Gavahınla xırda fərqlərinə baxmayaraq eyni olan toxalardan da əkin üçün ayrılan torpağın şumlanmasında, çevrilməsində geniş istifadə edilmişdir. Mingəçevir qazıntılarından məlum olan toxanın tiyəsi daha çox içəriyə doğru əyintili, top yeri nisbətən qalınlaşmış, Şərqi Gəncəbasar qazıntılarından tapılan toxalar isə tiyənin kəsər

yerindən top hissəsinə qədər eyni formada qalınlaşmışdır (1;19).

Sonrakı mərhələdə yerin şumlanmasında dəmir beldən də istifadə olunmuşdur. Bel nümunəsi Şətəl qalasından Eldəgiz sikkələri ilə birlikdə tapıldığından, eyni dövrə, XII-XIII əsrlərə aid edilir. Oxşar bel nümunələri Kürəkbasarın və Bərdənin orta əsr yaşayış yerlərindən də məlumdur. Nümunələr quruluşuna görə müasir bellərlə oxşardır (82,47-53).

Əkinçilikdə sonrakı mərhələ məhsulun yığılmasıdır. Məhsulun yığılmasında çindən istifadə olunmuşdur. Sünbülün daha çox itkisiz yığılması üçün çinin ağız hissəsi nisbətən kiçik, ucu isə az əyilmiş formada düzəldilirdi. Belə çin nümunələri Qəbələ, Bərdə, Beyləqan, Gəncə, Şamaxı və s. orta əsr yaşayış yerlərində aparılan arxeoloji qazıntılardan məlumdur. Nümunələrin dövrü IX-XIII əsrlərə aid edilir.

Sünbülün yığımından sonrakı mərhələ onun döyülməsidir. Bu mərhələdə vəldən istifadə olunurdu. Vəl nümunələri Şərqi Gəncəbasarın (62;31,51-52) ilk orta və orta əsr yaşayış yerlərindən, habelə Xanlar rayonu ərazisində tunc dövrünə aid olanlardırlar.

Əkinçilik alətləri içərisində dən daşlarını da xüsusi ilə qeyd etmək lazımdır. Aparılan arxeoloji işlər zamanı çoxsaylı və müxtəlif formalı dən daşları aşkar edilmişdir. Forma etibarı ilə onlar oval, uzunsov, dairəvi formalıdırlar. Aşkar olunan dən daşları əsasən Azərbaycanın hər yerində çoxluq təçkil edən əhəngli tuf daşından, nadir hallarda isə çay daşındandır. Oval formalı dən daşından dənin üyüdülməsi üçün sürtgəcdən

(yumuru daş) istifadə olunurdu. Sürtgəcləri eyni qayda da sındırma və ya çapma üsulu ilə hazırlayırdılar.

Kirkirələr də dənin üyüdülməsində çox istifadə edilən dən daşlarındandır. Digər sahələrdə olduğu kimi dən daşlarının təkmilləşməsində də müəyyən mərhələlər olmuşdur. Ən qədim qayıqvarı dən daşları, oval və dairəvi dən daşları ilə, onlar da öz növbəsində kirkirələrlə əvəz olundular. Cənub-şərqi Şirvanın IX-XVII əsr yaşayış yerlərində aşkar olunan dən daşları Azərbaycanın digər yaşayış yerlərindən məlum olan nümunələrlə eyniyyət təşkil edirlər (22,56-58; 105).

Dənin üyüdülməsində istifadə olunan kirkirələr alt və üst daşdan ibarət olub, üst daşında açılmış iri oyuq dənin tökülməsi, kiçik oyuq, ox yeri isə daşı hərəkətə gətirmək məqsədi daşımışdır. Çoxsaylı kirkirə nümunələri 2014-cü ildə ilk orta əsr Torpaqqala abidəsində (kvadrat $18^a$, dərinlik 2.80 sm) aşkar edilib. Nümunənin üst daşının diametri 42 sm, dən tökülən oyuğun diametri 12 x 5 sm, ox yerinin diametri 3 sm, qalınlığı 4 sm-dir. Alt daşın diametri 44 sm, oyuğun diametri 2,5 sm, qalınlığı 4 sm-dir. Puf daşdan olan kirkirənin hər iki daşı yaxşı vəziyyətdədir və IX əsrin əvvəllərinə aiddir (tablo 46).

Bir ədəd dəyirman daşının üst daşı XIV–XVI əsrlərə aid Şıxməzid (Ağsu rayonu) məscid kompleksindən təsərrüfat işləri zamanı tapılmışdır. Onun diametri 1.12 sm, oyuq yerinin diametri 13 sm, dərinliyi 16 sm, qalınlığı 14 sm-dir. Ağsu çayı ərazisində yerləşən yaşayış yerindən aşkar olunan dəyirman daşı su ilə hərəkətə gətirilib və yaxşı vəziyyətdədir (tablo46).

Becərilən məhsulun saxlanması əkinçilikdə əsas amillərdəndir. Cənub-şərqi Şirvanın IX-XVII əsr və Azərbaycanın digər həmdövür abidələrində aşkar edilmiş müxtəlif təsərrüfat quyuları və küplərin aşkarlanması nəticəsində məlum olub ki, toplanmış məhsul məhz bu təsərrüfat quyularna, küplərinə və s. yerlərə yığılaraq saxlanılırdı. Təsərrüfat xarakterli quyuların, irihəcmli təsərrüfat küplərin içərisində buğda, un, arpa və s. saxlanılması Şərqi Gəncəbasarın və Torpaqqala (Ağsu rayonu-Bəyimli kəndi) IX əsr yaşayış yerlərindən və XI-XVII əsr Qəbələ rayonunun Qala orta əsr abidələrdə aparılmış arxeoloji qazıntılarından da məlumdur.

Cənub-şərqi Şirvanın yaşayış yerlərində aparılan arxeoloji qazıntı işləri zamanı çörək bişirilməsində istifadə olunan müxtəlif ölçülü çoxsaylı təndir qalıqları da aşkar edilmişdir. Təndirin tez isinməsi və istiliyi uzun müddət saxlaması məqsədilə onun dibi bişmiş kərpiclə hörülmüş və təndirin dibində havanın yaxşı cərəyan etməsi üçün külfə (nəfəslik-E.A) qoyulmuşdur.

**Bağçılıq və bostançılıq.** Cənub-şərqi Şirvan bölgəsinin Kür çayı sahili boyunca yerləşməsi, təbii şəraiti burada bağçılıq və bostançılıq təsərrüfatının inkişafına şərait yaratmışdır. Burada geniş və çoxsaylı meyvə bağlarının salınması ilə yanaşı, pambıqçılığın, üzümçülüyün inkişafına imkan yaranmışdır. Cənub-şərqi Şirvanın orta əsr abidələrindən çoxlu miqdarda meyvələrdən üzüm, şaftalı, ərik, zoğal, nar, qoz, fındıq, tərəvəzlərdən qarpız, xiyar və s. tumları tapılmşıdır. Arxeoloji qazıntılar zamanı meyvə tumları ilə yanaşı müxtəlif

formalı bağçılıq və bostançılıq təsərrüfatında istifadə olunan əmək alətləri aşkar edilmişdir.

Kür çayı, Girdimançay və Ağsuçaydan çəkilmiş arxlar bölgədə bağ və bostan bitkilərinin becərilməsinə geniş imkan yaratmışdır.

Cənub-şərqi Şirvan ərazisində geniş üzüm bağlarının becərildiyi arxeoloji tədqiqatlardan və etnoqrafik müşahidələrdən məlumdur. Azərbaycanda üzümçülüyün inkişafı haqqında orta əsr ərəb coğrafiyaşünasları geniş məlumat vermişlər (128, 75). Azərbaycanda üzümçülüyün inkişafı haqqında yazılı mənbələrin məlumatlarını orta əsr abidələrində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş mət (-E.A. kristallaşmış üzüm qalığı) və üzüm tumları qalıqları da təsdiq edir.

Cənub-şərqi Şirvanın IX-XVII əsr abidələrində yaxşı becərilmiş bağ və bostan meyvə qalıqları ilə yanaşı, yabanı-meşə meyvə tumları da aşkar edilib. Etnoqrafik müşahidələr göstəriri ki, insanlar bağ və bostan təsərrüfatı ilə yanaşı, yabanı (-meşə meyvələri E.A) meyvələrdən də istifadə etmişlər. Bağ meyvələri ilə bərabər meşə meyvələrini də yığıb qurudaraq istehlak etmişlər.

Azərbaycanın çoxçeşidli, böyük meyvə bağları ilə zəngin olması orta əsr mənbələrdə, səyyahların gündəliklərində və Azərbaycan klassiklərinin əsərlərində dafələrlə xatırladılır (35,107-108). Bu haqqda, Yaqut əl Həməvi "Mən heç yerdə burada olan qədər bol məhsullu bağ görməmişəm" yol gündəliyində yazmışdır (132, 110).

IX-XVII əsrlərdə əkinçiliyin müxtəlif sistemləri (-torpağın dincə qoyulması) geniş yayılmışdı. Torpağın dincə qoyulması ilə yanaşı əkin və biçin sahələrinin müxtəlif üsulla və vasitələrlə suvarılması (kəhrizlər, kanallar, quyular və s. ilə suvarılması) Azərbaycanda suvarma sisteminin inkişafından xəbər verir. Cənub-şərqi Şirvanın təbiəti, iqlimi, torpağının müxtəlifliyi və burada becərilən məhsulun çoxnövlülüyü öz növbəsində suvarma sistem və üsullarının müxtəlifliyinə zəmin yaratmışdır. Ərazinin süni suvarmaya əsaslanan əkinçilik təsərrüfatı əsasən Kür, Pirsaat, Girdiman, Kürün qollarından və s. çaylardan götürülən kanal və ana arxlar vasitəsilə suvarılmışdır. Əkin sahələrini suvarmaq məqsədi ilə çaylardan kanal və ana arxlar ayrılırdı ki, sonra həmin ana arxlardan ayrı-ayrı kəndlərin əkin sahələrinə məsafədən asılı olaraq iri və kiçik arxlar çəkilirdi.

Cənub-şərqi Şirvan orta əsrlərdə sıx əhalisi ilə fərqlənən gur yaşayış yeri olduğundan, burada fərqli təsərrüfat sahələri ilə yanaşı, bağçılıq, bostançılıq təsərrüfatı da şübhəsiz ki, yaxşı inkişaf etmişdir (139,51).

IX-XVII əsrlərdə cənub-şərqi Şirvan bölgəsi tarixin ayrı-ayrı dövrlərində durğunluq olmasına baxmayaraq bostançılıq və bağçılıq təsərrüfatı yaxşı inkişaf etmiş ərazilərdəndir. Deyə bilərik ki, bu gün də bölgə Azərbaycanın bağçılıq və bostançılıq sahəsi üzrə yaxşı inkişaf etmiş ərazilər sırasındadır.

**2.3. Maldarlıq.** Cənub-şərqi Şirvanın əraziləri nəinki orta əsrlərdə, habelə bütün dövrlərdə maldarlıq təsərrüfatının inkişafı üçün əlverişli imkanlara malik olub. Ona görə ki,

cənub-şərqi Şirvanın yerləşdiyi ərazi bol su ehtiyatı, dağlıq, düzənlik və örüş sahələri ilə zəngindir. Yəni, bölgənin qışlaq, yaylaq örüş sahələri ilə zəngin olması maldarlığın inkişafı üçün geniş imkanlar yaratmaya bilməzdi.

Cəmiyyətdə ilkin əmək bölgüsü cənub-şərqi Şirvandan da yan keçməmiş, əkinçiliyin maldarlıqdan ayrılmasına və təsərrüfatın hər iki sahəsinin ayrı-ayrılıqda müstəqil inkişaf etməsinə zəmin yaratmışdır.

Cənub-şərqi Şirvanda başaqa təsərrüfat sahələri ilə yanaşı maldarlığın da inkişafı təbii şəraitlə sıx surətdə bağlı olmuşdur.

Arxeoloji tədqiqatlar nəticəsində cənub-şərqi Şirvanın orta əsr abidələrindən əldə olunan osteoloji qalıqlar sübut edir ki, buranın su hövzələrinə yaxınlığı geniş otlaq sahələrinin movcudluğu, iqlimin və relyefin çoxşaxəliliyi, ərazinin qışlaq və yaylaq maldarlığı üçün əhəmiyyətli olması, maldarlığın inkişafına şərait yaradaraq əhalinin təsərrüfat həyatının aparıcı sahələrindən birinə çevrilmişdir. Maldarlıq təsərrüfatının inkişafı yeni təsərrüfat sahəsinin, ovçuluğun yaranmasına səbəb olub və arxeoloji tədqiqatlar zamanı çoxsaylı ostoloji qalıqlar da bunu təsdiq edir.

Etnoqrafik müşahidələr iribuynuzlu heyvanlardan bir neçə məqsədlər üçün istifadə olunduğunu deməyə əsas verir. Birincisi, iribuynuzlu heyvanlar əhalinin ətə, yuna, gön-dəriyə, yağ və süd məhsullarına olan tələbatını təmin edirdi. İkincisi, iribuynuzlu heyvanların dərisindən dabbaqlıq sənətində istifadə olunurdusa, yunundan (dəvələrin yunundan) isə toxuculuq

sahəsində geniş istifadə edilirdi. Üçüncüsü, kənd təsərrüfatının əkin-biçin işlərində iribuynuzlu heyvanlardan (kəl, öküz və at) yerin şumlanmasında, yaxın və uzaq məsafələrə yük daşınmasında, qoşqu-minik məqsədi ilə çox istifadə edildiyi üçün iribuynuzlu maldarlığın inkişafına xüsusi fikir verilirdi (185, 47).

Arxeoloji tədqiqatlar zamanı ostoloji qalıqların xeyli hissəsi xırdabuynuzlu heyvanlara-qoyun və keçi sümüklərinə aid olanlardır. İribuynuzlu heyvanlardan fərqli olaraq keçi və qoyunların ətindən və südündən qida kimi, dərisindən və yunundan isə sənətkarlıqda xammal kimi istifadə edilirdi. Eyni zamanda, iribuynuzlu və xırda buynuzlu heyvanların sümüklərindən müxtəlif əmək alətləri də hazırlanırd. Arxeoloji qazıntı zamanı aşkar olunan işlənmiş buynuz, düymə, bəzək məmulatı, biz və digər tapıntılar maddi mədəniyyət nümunələri içərisində xüsusi yer tutur. Bu gün də cənub-şərqi Şirvanın dağətəyi və dağlıq ərazilərində yaşayan əhalinin təsərrüfatının xeyli hissəsini iribuynuzlu və xırda buynuzlu heyvanlar tutur.

Bunlarla yanaşı tədqiqata cəlb olunan yaşayış yerlərindən tapılan osteoloji qalıqlar içərisində quş sümükləri də çoxdur. Onların ev və çöl quşlarına aid olduğu ehtimaldır.

Arxeoloji tədqiqatlar zamanı qazıntı yerlərindən it sümükləri də aşkar edilir. İtlərin əhalinin təsərrüfat həyatında böyük əhəmiyyət kəsb etməsinin bir neçə səbəbi var. Birincisi, itlər həyət-bacanı və ev heyvanlarını qorumaq, ikincisi isə ovçuluqda istifadə etmək məqsədi daşıyıb.

Osteoloji qalıqlar yaşayış yerindən, onlara uyğun olan ocaq yerlərindən və quyulardan əldə edilmişdir.

Cənub-şərqi Şirvanın ayrı-ayrı abidələrində aşkar edilən maddi mədəniyyət nümunələri içərisində zoomorf və zoomorf təsvirli qab nümunələri də çoxluq təşkil edir. Qablar üzərində işlənmiş zoomorf təsvirlər qablara xüsusi gözəllik verməklə yanaşı, dövrün heyvanat aləmi haqqında dəyərli məlumat verir (13,74-77;14,72-78).

Bölgə əhalisinin təsərrüfat həyatında atçılıq təsərrüfatının da xüsusi yeri var. Atçılıq təsərrüfatının bir çox sahələrdə və ordu hərb işində yardımçı qüvvə kimi fəaliyyət göstərməsi tarixən məlumdur. Ev işləri də daxil olmaqla, beynəlxalq ticarətdən tutmuş yerli ticarətə kimi, həm minik və qoşqu, həm də müharibələr zamanı süvari döyüş vasitəsi olaraq istifadə olunduğundan atçılıq təsərrüfatının inkişafına tələbat artmışdır.

Beləliklə, IX-XVII əsrlərdə cənub-şərqi Şirvan əhalisinin təsərrüfat həyatında mühüm yeri əçinkilik, maldarlıq, ilk növbədə qoyunçuluq, iribuynuzlu mal-qara və atçılıq tuturdu. Goğrafi şəraitə uyğun olaraq əhali köçəri, yaylaq-qışlaq maldarlıqla məşğul olurdular. Orta əsrlərdə mövcud olan yaylaq-qışlaq otlaq sahələrinin bir çoxu bu gün də istifadəyə yararlıdır.

**Balıqçılıq təsərrüfatı.** Cənub-şərqi Şirvanın yaşayış yerlərinin bolsulu Kür çayının sahili boyunca yerləşməsi burada balıqçılıq təsərrüfatının lazımı səviyyədə inkişafına şərait yaratmışdır.Bölgə əhalisinin iqtisadiyyatında demək olar

ki, balıqçılıq təsərrüfatı əsas yerlərdən birini tutur. Məlumdur ki, balıqçılıq bütün dövrlərdə Xəzər dənizi, Kür və Araz çaylarının yaxınlığında yaşayan insanların həyatında mühüm rol oynamış, onların əsas gəlir mənbələrindən birini təşkil etmişdir. Kür və Araz çaylarında, habelə Xəzər dənizində ovlanmış balıqlardan istifadə olunurdu. Ovlanan balıq və balıq kürüsü satış üçün Yaxın və Orta Şərq ölkələrinə aparılırdı. Kür çayında daha çox şamayı, zərəkən, işuba (71,96-101; 69,96-101), Xəzər dənizində isə qırmızı balıq çoxluq təşkil edirdi (166,112-126). Ovlanan balıqların sayı 280 mindən artıq olurdu ki, onlardan da 32 min puddan artıq kürü istehsal olunurdu. Eyni zamanda balıqların piyindən xüsusi məlhəm və yapışqan hazırlayırdılar. Bu məhsullar dəvələrə yüklənərək satış məqsədilə xarici ölkələrə daşınırdı. Xarici ölkələrdən isə müxtəlif mallar gətirilirdi. Gətirilən malların içərisində fil dişi də olurdu ki, yerli ustalar onlardan müxtəlif bəzək əşyaları hazırlayırdılar. Bəzək əşyaları hazırlayan ustalar balıq piyindən alınan yapışqandan istifadə edirdilər. Uzaq məsafəyə aparmaq üçün balıqlara çoxlu duz vurulurdu.

Balıq təsərrüfatı ilə məşğul olan balıqçılar çay kənarlarında balıq vətəgələri qururdular. Bu vətəgələrdə yerli əhali ilə yanaşı, Azərbaycanın müxtəlif bölgələrindən, habelə Cənubi Azərbaycandan gələnlər də çalışırdılar.

İstər Qırxçıraq yaşayış yerindən, istərsə də Bəndovan sualtı arxeoloji qazıntıları zamanı aşkar olunan şirli qabların daxili səthlərində ərəb qrafikası ilə balıqçılıqla bağlı yazılar (tablo 25, şəkil 3,5), bəzilərinin üzərində isə balıq təsvirləri işlənmişdir (tablo 27,şək4). Bəndovan sualtı arxeoloji

tədqiqatları zamanı aşkar olunan çoxsaylı şirli qablarla yanaşı, balıqçılıqda istifadə olunmuş qarmaq, tarazlıq daşları (pərsəng) və digər ləvazimatlar aşkar edilmişdir (tablo 32 daş ləvazımatlar; tablo 35 daş ləvazımatlar və dəmir qarmaqlar). Balıqçılıq təsərrüfatı ilə bağlı osteoloji qalıqlar və balıqçılıq alətləri R. M. Vahidovun tədqiqatları zamanı Mingəçevirin 1-3 nömrəli yaşayış yerlərinin mədəni təbəqələrindən də xeyli sayda aşkar edilmişdir (123, 81).

**Ovçuluq.** Şirvan əhalisinin təsərrüfat həyatında ovçuluq təsərrüfatı da mühüm amillərdən biri olmuşdur. Bölgənin fauna və florasının zənginliyi burada ovçuluğun inkişafı üçün zəmin yaratmışdır. Müxtəlif heyvan və quşların ovlanması yalnız onların ətindən deyil, habelə geyim kimi dərisindən də istifadə etmək məqsədi daşıyırdı.

İstər qayaüstü təsvirlərdə olan ov və heyvan sümükləri, istərsə də arxeoloji qazıntılar zamanı tapılan ov alətləri, müxtəlif heyvan və quş sümükləri bunu bir daha sübut edir (118,40-42).

Orta əsrə aid, o cümlədən, tədqiqata cəlb olunan məzar daşlarının üzərindəki süjetlərin əksəriyyətində ov səhnələri, ov heyvanlarının və ov quşlarının təsviri o dövrdə insanların həyatında ovçuluğun mühüm rol oynadığını gğstərir. Belə ov təsvirləri həmçinin şirli saxsı qabların dekor bəzəyində və şirsiz saxsı qabların oturacağına vurulan damğalarda da öz əksini tapmışdır (119,2-3).

**2.4. Sənətkarlıq.**Azərbaycanın ticarət və sənətkarıq mərkəzlərindən biri olan cənub-şərqi Şirvan bölgəsi xalqımızın ictimai, iqtisadi və siyasi tarixində mühüm rol oynamışdır. Bölgənin əlverişli təbii-coğrafi şəraitə malik olması, onun quru və dəniz ticarət yollarının kəsişdiyi ərazidə yerləşməsi, burada sənətkarlığın müxtəlif sahələrinin inkişafına şərait yaratmaya bilməzdi (125;147). Bölgədə aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilmiş IX – XV əsrlərə aid zəngin maddi mədəniyyət qalıqları orta əsrlərdə ərazidə yaşamış sakinlərin ictimai və iqtisadi vəziyyəti haqqında dəyərli fikir söyləməyə imkan verir.

Orta əsr müəlliflərinin verdiyi məlumatlar da bölgənin, yaşayış yerlərinin orta əsrlərin mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olduğunu, burada davamlı yaşayışın və istehsalın olduğunu göstəriri.

Arxeoloji qazıntıların nəticələri təsdiqləyir ki, orta əsrlərdə ərazidə dulusçuluq, metaləritmə, dəmirçilik, misgərlik, toxuculuq, şüşə istehsalı və s. sənət sahələri iqtisadiyyatın əsasını təşkil etmişdir. Lakin metal istehsalı ilə əlaqədar nümunələr torpağın altında çürüyüb məhv olduğundan, bu növ sənətkarlıq sahələrinə aid materiallar digər sənətkarlıq məhsullarının qalıqları ilə müqayisədə nisbətən az tapılır. Dulusçuluqla bağlı maddi mədəniyyət qalıqları isə digər sənətkarlıq sahələri ilə əlaqədar materiallarla müqayisədə istisnalıq təşkil edir.

**2.4.1.Dulusçuluq.** Xalqın çoxəsirlik tarixi ənənələri üzərində yaranan, 10-12 min illik tarixi olan dulusçuluq sənəti inkişaf etmiş orta əsrlərdə (IX-XIII) özünün ən yüksək

mərhələsinə qalxdı. Müxtəlif gil qatışıqlarından hazırlanan məmulatlar arxeoloji ədəbiyyatda dulusçuluq sənəti olaraq tədqiq olunur və tədqiqatçılar bu sənəti kərpickəsmə, suvaqçılıq və kaşıçılıq olaraq qruplaşdırmışlar (90,83).

Dulus məmulatlarının formaları və onların üzərindəki bəzək elementləri həmin dövrdə yaşamış xalqların məişətini öyrənmək baxımından ən dəqiq vasitələrdəndir. Qədim zamanlardan insanların təsərrüfat həyatında müəyyən rol oynamış, bəsit üsullarla hazırlanmış gil qablar bütün dövrlərə uyğun olaraq uzun bir inkişaf yolu keçərək müasir dövrə kimi gəlib çatmışdır.

Dulusçuluğun ilkin meydana gəlməsi insanların təbiətlə mübarizəsində əldə etdikləri ən böyük nailiyyətlərdən sayılırdısa, onun zaman keçdikcə formalaşaraq ayrıca sənət sahəsi kimi fəaliyyət göstərməsi inqilab sayılırdı. Gil qabların meydana gəlməsi ilə insanlar özlərinə məhsul ehtiyatı toplamaq, xörək bişirmək və başqa imkanlar əldə etdilər. Azərbaycan ərazisində gil ehtiyyatlarının bolluğu müxtəlif çeşidli məmulatların istehsalına zəmin yaratmışdır. Onlar, su daşımaq və su saxlamaq üçün qabları (səhəng, bardaq, kuzə, qurqur, dolça, parç, tayqulp), yuyunmaq üçün qabları (aftafa, lüləyən, fəşir), mətbəx qabları (çölmək, qazan, piti, dopuları, çilovsüsən), çörək bişirmə vasitələri (kürə, təndir, sac, manqal) və s. olanlardırlar.

Azərbaycanda ilk orta əsr dulusçuluq sənətinin tədqiq edilməsinin vacibliyi son vaxtlara kimi arxeoloji ədəbiyyatda bu sahəyə kifayət qədər yer verilməməsi ilə də izah edilməlidir. A.Ş.Orucovun “İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq

sənəti” (111), S.M. Ağamalıyevanın “Azırbaycan dulusçuluğu” (140) adlı kitabları ilk və orta əsr dulusçuluq sahasəni öyrənmək baxımından mühüm mənbədir.

Cənub-şərqi Şirvanın qədim karvan yolu və çay kənarında olması burada yaşayan əhalinin təsərrüfat və ticarət həyatına müsbət təsir göstərməyə bilməzdi. Qzıntılar zamanı aşkar edilmiş arxeoloji materialların əsas hissəsini şirsiz və şirli saxsı məmulatı, habelə müxtəlif formalı şüşə bilərziklər təşkil edir (42,22-23; 43,30-31,51). Müxtəlif çeşidli saxsı məmulatlarının, daha çox burma naxışlı şüşədən hazırlanmış qadın bilərziklərinin, habelə Elxanilər, Qızıl Orda xanları, Cəlarilər, Qaraqoyunluların adından kəsilmiş mis sikkələrin tapılması burada XVI əsrin əvvəllərinə qədər intensiv yaşayışın olduğunu və Şirvanşahlar dövlətinin mədəniyyəti, incəsənəti ilə yanaşı iqtisadiyyatının da yüksək inkişaf mərhələsinə çatdığını, Azərbaycanın Yaxın və Uzaq Şərq ölkələri ilə mədəni, siyasi və ticarət əlaqələrinin olduğunu təsdiq edir (121, 47-55;114,58-67).

Cənub-şərqi Şirvanın IX-XVII əsr saxsı məmulatını şərti olaraq dörd qrupa ayırmaq olar. Birinci qrupa şirsiz saxsı məmulatı, ikinci qrupa şirli qablar, üçüncü qrupa fayans-farfor tipli qablar, dördüncü qrupa isə tikinti və memarlıq keramikası daxildir. Bu sırada əsas yeri məişətdə və təsərrüfatda çox istifadə olunan müxtəlif formalı və ölçülü qablar təşkil edir.

Aşkar edilmiş saxsı məmulatının statistik təhlili göstərir ki, şirsiz qabların böyük əksəriyyəti təsərrüfat küpləri, küp, küpə, qazan, çıraq və nəfis şəkildə hazırlanmış və bəzədilmiş şirli keramik qablara aiddir. Şirli qabların əksəriyyətini

monoxrom - şirli qab nümunələri təşkil edir. Birrəngli şirlə şirələnmiş qablar əsasən mətbəx və təsərrüfatda istifadə olunmuşdur.

Arxeoloji qazıntılar zamanı cənub-şərqi Şirvanın digər yaşayış yerlərindən kütləvi şəkildə tapılan sənətkarlıq məhsulları da əsasən dulusçuluğa aiddir. Tikinti keramikası da nəzərə alınmaqla, saxsı məmulatı ümumi tapıntıların təqribən 70 %-ni təşkil edir. Tapıntılar içərisində daşişləmə sənəti nümunələri də xeyli saydadır.

Saxsı məmulatı bölgənin Şəhərgah, Hacıqabul, Şirvan, I və II Bəndovan kimi şəhərtipli yaşayış məskənlərində də istehsal edilmişdir. Sonuncu istisna olunmaqla, digər şəhərlərdə gil ehtiyatları kifayət qədərdir. Kəndtipli yaşayış məskənlərinə gəldikdə, görünür əhali sənətkarlıq məhsullarının (xalça istisna edilməklə) əksəriyyətini şəhərlərdən alırdılar.

Maddi mədəniyyət nümunələri içərisində istehsal prosesində istifadə edilmiş avadanlıqlar xüsusi əhəmiyyət kəsb edir. Saxsı qabların bişirilməsində istifadə edilmiş üçayaqlar, müxtəlif ölçülü dayaqlar, dəmirçixanada istifadə edilən əmək alətlərinin qalıqları, forma və qəliblər, çıxdaş məhsullar cənub-şərqi Şirvanın şəhər tipli yaşayış yerlərində yerli istehsalın mövcud olduğunu təsdiq edən mühüm dəlillərdəndir. Seladon və bəzi fayans növləri isə Azərbaycanın tarixən Uzaq Şərq (Çin) və digər ölkələrlə ticarət-iqtisadi əlaqələrindən xəbər verir (194,92-108,tablo 26, şəkil1).

Üçayaq nümunələrindən biri Qırxçıraq yaşayış yerindən aşkar edilmişdir. Bir hissəsi sınmış üçayağın şirli qabların

bişirilməsi prosesində istifadə olunduğu ehtimal edilir. Onun iki dabanında olan marqans və ağ rəng qalıqları da bunu deməyə əsas verir (tablo 28, şəkil 3,4).

Cənub-şərqi Şirvanın dulus məmulatları şirsiz və şirli qablardan ibarətdir. Şirsiz saxsı məmulatı küplər, bardaqlar, qazanlar, dopu, kasa, boşqab tipli qablardan və s. ibarətdir.

**Şirsiz saxsı məmulatı.** Bu qrupa daxil olan qablar istifadə məqsədlərinə görə qablaşdırma üçün istehsal edilmiş saxsı məmulatlarına - təsərrüfat qabları (küp, küpə, bardaq, onların qapaqları), mətbəx keramikası (qazanlar, dopu, səhəng, süzgəcli qablar və biti qabları), süfrə ləvazimatları (kasa, boşqab, dolça (krujka) və duzqabılar), xüsusi təyinatlı saxsı məmulatları (şar-konusvari qablar, çıraqlar, şamdanlar, qəlyanlar və saxsı qabların bişirilməsində istifadə edilən əşyalar), əl-üz yumaq və dəstəmaz almaq üçün nəzərdə tutulan məmulatları (avtafa və ləyənlər), nəhayət tikinti və memarlıq keramikasından (kərpiclər, su tüngləri, kaşılar və s.) ibarətdir.

Qablaşdırma üçün istehsal edilən şirsiz saxsı qablar, əsasən müxtəlif ölçülü küpələrdən ibarətdir. Bu məmulatlar qrupuna daxil olan küplər, küpələr saxsı qabların təqribən 30%-ni təşkil edir.

Küplər. İri ölçülü küplər kifayət qədər geniş yayılmışdır və onlara həm şəhər, həm də kənd tipli yaşayış yerlərində rast gəlinir. Ərzaq ehtiyatlarının saxlanmasında istifadə edilən küplər armudvari gövdəli olub, qısa boğazlı və müstəvi formalı oturacağa malikdirlər, bəzi küp tipli qablar isə iri ölçülü

oturacaqlara malikdirlər. İri ölçülü küplər üç hissədən ibarət olmaqla bir-birinə birləşdirilmişdir.

İri ölçülü küp tipli qabları forma və ölçülərinə görə iki qrupa ayırmaq olar. Birinci qrupa armudvari gövdəli küplər daxildir. Onlar qısa boğazlı və yastı oturacaqlı olmaqla, əksəriyyəti qulpsuzdur (tablo1,şəkil1-3) Bəzilərinin kiçik qulpları çiyinlərinin yuxarı hissələrini gövdəyə birləşdirir. Bu qrupa daxil olan küplər nisbətən dar boğazlıdırlar. Cənub-şərqi Şirvanın XI-XIII əsr mədəni təbəqələrindən aşkar edilmiş dar boğazlı küplər nisbətən kiçik ölçülüdürlər.

Armudvarı gövdəli küplər Şabran (153,111-112), Gəncə, Şətəl (Goranboy-80,47), Bərdə, Qəbələ (34,49;107, 60), Beyləqan (47,66), Bakı (143,39-40), Naxçıvan (187,40-45), Kiran (163,35) şəhərlərinin XI-XIII əsr mədəni təbəqələrindən də aşkar edilmişdir.

Digər qrup küplərin gövdələrinin yuxarı hissəsi daha qabarıqlı və şarşəkillidir. Onların boğazları əvvəlkilərlə müqayisədə daha geniş və qısa olub, iri ölçülü (tablo 1, şəkil 4) və qalın divarlıdırlar (tablo 3,şəkil 8). Qalın divarlı, iri ölçülü küplərin istehsalı Qəbələ (35,107-108) və Naxçıvanda (188,21-26), cənub-şərqi Azərbaycanın (Cəlilabad rayonu) arxeoloji qazıntılarından da məlumdur (56,302-307). Lakin fərq burasındadır ki, cənub-şərqi Şirvanın eyniadlı məhsullarının oturacaqları kifayət qədər enlidir. Fikrimizcə, qrunt sularının yer səthinə yaxın olması səbəbindən küplər yerə basdırılmamış təsərrüfat damlarının divarlarına, yaxud dirəklərə söykənilmişdir.

Arxeoloji qazıntılar zamanı küp tipli qabların iki formalı qapaqları da əldə edilmişdir. Onların əsas hissəsini müstəvi formalı, qalın divarlı qapaqlar təşkil edir. Qapaqların ağızlarının kənarları xaricə açılmış və onların mərkəzinə xaricdən tək qulp birləşdirilmişdir (tablo7,şəkil1). Qulplar 2 cür, lentvarı və çıxıntılı olmaqla basma naxışlarla bəzədilmişdir. Qulpları batıqların əmələ gətirdiyi çoxləçəkli gül təsvirli, həmçinin konusvari formalı yarımdairəvi qulplu qapaqlara da təsadüf edilir. Qulpların bəziləri yarımdairəvi (tablo11,şəkil6,8), digərləri isə çıxıntılı formaya malikdir (tablo 5, şəkil 3,7). Belə qulpları olan qapaqlar nisbətən nazik divarlı olurdu.

Müstəvi formalı qapaqlara Bakı (143,45), Gəncə (81,84), Bərdə (63,50-55;107,75), Şətəl (80,45), Muxortəpə (91,109-111) və Naxçıvan şəhərlərinin (100,41;70) həmdövr təbəqələrində, konusvari formalı qapaqlara isə yalnız Naxçıvanda (99,41-45) rast gəlinmişdir.

Küpə tipli qablar. XI-XIV əsrlərdə qablaşdırılmada istifadə edilən şirsiz saxsı məmulatı içərisində küpələr geniş yayılmışdır. Onlar şirsiz saxsı məmulatının təqribən 3-4% -ni təşkil edir. Bu tip qablar formaca bir növ küpləri xatırladır və gövdələrinin formasına görə 2 yerə ayrılır. Birinci qrupa armudvarı gövdəli küplər daxildir (tablo 2,şəkil 9,6) və onların əksəriyyəti qulpludur (tablo 3, şəkil 4-7). Eyni formalı gövdəyə məxsus küplərin bir hissəsi isə lentvarı qulplara malikdirlər. Lentvari qulplar qabın qısa boğazını onun gövdəsinin mərkəzinə birləşdirir və bir qayda olaraq ağızlarının kənarları xaricə enlənir.

Kiçik ölçülü küpə tipli qablar müstəvi formalı qapaqlara malikdir. Bu tip qapaqların birinci qrupu üçün lentvarı, ikinci qrupu üçün çıxıntılı sonluqla qurtaran düz qulplar səciyyəvidir.

Qablaşdırma keramikasına daxil olan maye qabların əsas hissəsini səhəng, bardaq, dolça və eyni formalı süzgəcli qablar təşkil edir. Səhənglər digər qablarla müqayisədə nisbətən tutumludurlar və onların hündürlüyü 45-55 sm olur. İri tutumlu səhənglər yaşlılar, az tutumlu səhənglər isə nisbətən az yaşlılar üçün hazırlanırdı.

Səhənglər digər su qablarında olduğu kimi dar və hündür boğazlı, gövdələri isə armudvaridir (tablo 4,şəkil1 3). Qırxçıraq və II Bəndovandan aşkar edilmiş səhənglərin saxsıları sarımtıl, Şirvandan aşkarlanmış səhənglərin saxsıları isə qırmızımtıl-qəhvəyi rənglidir.

Formaca gövdələri eyniyyət təşkil etsə də, bu tip qabların boğazları müəyyən qədər fərqlidir. Nümunələrin bəzilərinin boğazları ağzının kənarına doğru genişlənirsə (tablo 4,şəkil1,3; tablo 5, şəkil 2), digərlərində hündür boğazlar ağızın kənarına doğru daralır (tablo 4, şəkil 2; tablo 5, şəkil 4). Bu tip səhənglər bir qayda olaraq zərif hazırlanmış, gövdələri uzunsov, kiçik ölçülü, yastı oturacaqlı, lentvari formalı, tək qulpludurlar.

Armudvarı gövdəli səhəng tipli qablar Şamaxıdan (161,131), Gəncədən (19;80,35) və Bakıdan da (143, 42-43) aşkar edilmişdir. R.Əhmədovun fikrincə bu səhənglər qısa boğazlı olub, Azərbaycanın Naxçıvan bölgəsində də (163, 43) geniş yayılmışdır.

Bardaqlar. Səhənglərdən kiçik olmaları ilə fərqlənirlər. Onları gövdələrinin formalarına görə iki qrupa ayırmaq olar. Birinci qrupa şarşəkilli gövdəli bardaqlar daxildir (tablo 2,şəkil 9-10) ki, onların boğaz və ağız hissələri qıfvarı şəkildədir. Tək qulpları qabın çiynini onun boğazının aşağı hissəsinə birləşdirir. Onların bəziləri sarımtıl, digərləri tünd çəhrayı saxsıdan hazırlanmaqla, xaricdən divarları sarımtıl, çəhrayı, ağımtıl boz rəngli anqob təbəqələri ilə örtülmüşdür. Bu tip qabların çiyin hissələri relyefli olub, qabın oturacağına doğru şüavarı xətlərlə bəzədilmişdir. Şarşəkilli bardaqlara Qala, Naxçıvan, Gəncə, Beyləqan və digər yaşayış yerlərinin XI-XIII əsr təbəqələrindən məlumdur.

İkinci qrupa armudvarı gövdəli bardaqlar daxildir. Bu qrupa daxil olan bardaqlar boğaz və ağızlarının formalarına görə fərqlənirlər. Onların bəzilərinin boğazları silindrik (tablo5,şəkil 5) formaya, digərlərinin ki, isə qıfvari formaya malikdir (tablo 4, şəkil 4),

Bakının eyni tip bardaqlarının bəziləri ştampla vurulmuş naxışlarla bəzədilmişdir (165, 45).

Tutumları baxımdan fərqli olan səhənglərdən yalnız su daşınmasında və saxlanmasında istifadə olunurdusa, bardaqlardan isə su və ya digər mayelərin saxlanması üçün istifadə edilmişdir. Onların qapaqları azacıq konusvari vəziyyətə salınmış silindrik formaya malikdirlər və nisbətən geniş formada olan yuxarı hissə onun ağzının kənarlarını tam qapayır.

Süzgəcli qablar. Maye qabların bir qismi ağzı süzgəcli qablara aid olanlardırlar. Bu tip qabların gövdələri şarşəkillidir və ağızlarının kənarlarına yaxın süzgəc üçün deşiklər açılmışdır (tablo 4,şəkil 9-11). Əksəriyyətinin çox da hündür olmayan boğazları qıfvarı formalıdır və tək qulpları onların çiyin hissələrini boğazları və ağızlarının kənarına birləşdirmişdir. Xaricdən səthləri sarımtıl və tünd çəhrayı rəngli anqob təbəqəsi ilə örtülmüş bu tip qablar IX-X əsrlərdə geniş istifadə edilmişdir. Bununla belə, onlar sonrakı dövrlərdə də istifadə olunmuşdur.

Yeməkxana keramikası. Yeməkxana keramikasına qazanlar, piti qabları, dopular və onların qapaqları, kasa, boşqab, bardaq, duz qabları və dolçalar daxildir. Qazanlar formaca üç qrupa bölünür. Birinci qrupa şarşəkilli gövdəyə malik qazanlar daxildir. Belə qazanların ağızlarının kənarları azacıq xaricə açılmışdır. Onların çiyin hissələrindəki lentvari qulpları (tablo 6,şəkil 1) qabın çiyin hissəsinə birləşdirilmişdir. Bu tip qazanlar Azərbaycanın XIV-XVII əsr şəhərlərində geniş yayılmışdır.

Şarşəkilli qazanların digər qismi qulplarının birləşdirilmə vəziyyətinə görə fərqlənir. Belə qazanlarda qulplar qabın gövdəsini ağzının kənarlarına birləşdirir. Qulpun yuxarı hissəsi ağız hissənin kənarlarından bir qədər dik (tablo 6,şəkil 2), qulpların kənarları və mərkəzi hissəsi bir neçə yerdən batıqlarla bəzədilmişdir.

Şarşəkilli qazanlar Şamaxıdan (161, 48), Bakının IX-XIII əsr təbəqələrindən (143, 36), Naxçıvandan (187,39) da məlumdur. Bozumtul qara rəngli odadavamlı gildən hazırlanmış və əksəriyyəti

sadədir. Bəzilərinin çiyin, gövdə və qulplarının üzəri batıqlarla bəzədilmişdir (tablo 6, şəkil 6-8).

İkinci qrupa gövdələri dirsəkvari formalı qazanlar daxildir (tablo 6,şəkil 6, 2-4). Belə qazanların gövdəsi oturacaqdan başlayaraq genişlənir və çiyin hissədə daralır (tablo 6,şəkil 3-4;tablo 9,şəkil 1). Bu tip qazanların qulpları ağzının kənarlarını onun çiyin hissələrinə birləşdirir və ağzının kənarlarından bir qədər yuxarı qalxır. İri tutumlu qazanlar iki və ya daha çox tutacaqları ilə fərqlənirlər (tablo 11, şəkil 1,2). Bu tip qazanlar əsasən XI-XIII əsrlər üçün xarakterikdir (61, 38-39).

Üçüncü qrupu lüləkli qazanlar təşkil edir. Lülələr qazanların müxtəlif formalı gövdələrinin yuxarı hissələrinə birləşdirilmiş və qazanların ağzının kənarlarından bir qədər yuxarı qaldırılmışdır (tablo 6,şəkil 3,5,10). Bu növ qazanların saxsıları çəhrayı, bozumtul və qara rəngdədir. Sonuncunu his təbəqəsi örtdüyündən qaramtıl rəng almışdır.

Lüləkli qazanların çiyin hissələri dulus darağı ilə çəkilmiş düz və dalğavarı xətlərlə bəzədilmişdir. Əsasən XII-XIII əsrlərə aid olan bu nümunələr cənub-şərqi Şirvan üçün xarakterikdir. Etnoqrafik materiallardan aydın olur ki, belə qazanlar xörəyin suyunun asan boşaldılmasına xidmət etmişdir. Bu tipli qazanlar Azərbaycanın digər bölgələrindən də məlumdur (100,95).

Cənub-şərqi Şirvanda aparılmış arxeoloji qazıntılardan müxtəlif formalı qazan qapaqları da aşkar edilmişdir. Qazan qapaqları formalarına görə iki qrupa ayrılır. Birinci qrupa daxil olan müstəvi formalı qapaqlardır (tablo 6,şəkil 7).

Müstəvi formalı qazan qapaqları sayca çoxluq təşkil edir. Nümunələrin bəzilərinin mərkəzinə cızma üsulu ilə spiralvari naxışlar işlənmişdir. Bu cür formalı qazan qapaqları digər bölgələrdən də məlumdur (99,57; tablo 7,şəkil 1).

İkinci qrupa daxil olan konusvari formalı qapaqlar isə nisbətən hündür olub, ağzının kənarlarına doğru genişlənir. Onların bəzilərinin yuxarı hissəsinə çıxıntılı (tablo 6,şəkil11; tablo 7,şəkil 7) qulp birləşdirilmiş, qulpun ortasına və sonuna birləşdirilmiş kəmərin səthi ardıcıl düzülmüş batıqlarla bəzədilmişdir.

Konusvari qapaqların bir qrupu qulplarının formalarına görə fərqlənir ki, qulplar qapağın yuxarı hissəsinə birləşdirilmişdir (tablo 6,şəkil 8).

Dopu və piti qabları. Bu tip qablar kiçik ölçülü olub küpləri xatırladır. Lakin, küplərdən fərqli olaraq belə qablarda xüsusi yeməklər bişirilirdi.

Gövdəsinin formasına görə bu tip qabları üç qrupa ayırmaq olar. Birinci qrupa şarşəkilli gövdəyə malik qablar daxildir (tablo 3,şəkil 1,6). Bu qabların bəziləri simmetrik, digərləri isə asimmetrikdir.Sonuncular nisbətən hündür boğazlı olub, səthi sadə cızma xətlərlə bəzədilmişdir. Qabların oturacaqları uzun müddət istifadə edildiyindən, qalın his təbəqəsi ilə örtülmüşdür.

İkinci qrupu təşkil edən dirsəkvarı gövdəli qabların kiçik qulpları boğazları ilə çiyinlərini birləşdirir və sayca azlıq təşkil edirlər(tablo 3, şəkil1).

Üçüncü qrupa ağzı nisbətən novçalı piti qabları daxildir. XI-XIII əsrlər üçün xarakterik olan bu tip qablar həm şəhər tipli, həm də kənd tipli yaşayış yerlərindən aşkar edilmişdir. Gövdələri armudvari formalı, qapaqları müstəvi şəkilli olan qabların tək qulpları gövdələrinin mərkəzini ağzının kənarlarına birləşdirir (tablo 2, şəkil 6; tablo 3,şəkil 7).

Kasa tipli qabların divarları oturacaqdan başlayaraq genişlənməklə ağzının kənarına doğru enlənir (tablo 9, şəkil 1,2). Nisbətən iri kasalar çıxıntılı oturacaqları ilə fərqlənir. Qalın divarlı olan belə kasa nümunələrinin ağızlarının kənarı boyunca kəmərvari bəzək işlənmişdir. Qablar hündür və odadavamlıdırlar. Onlara Beyləqanın XI-XIII əsr təbəqələrində də rast gəlinmişdir (48, 36, tablo 9, şəkil 4,6; tablo 8, şəkil 4).

Boşqablar. Bu tip qabların gövdələri azacıq yuxarı qalxmaqla kənarlara açılır və xaricdən bəzilərinin səthinə cızma üsulu ilə dalğavarı xətlər çəkilmişdir (tablo 8, şəkil1 3). Boşqab tipli qablar Beyləqanın həmdövr təbəqələrindən də məlumdur (48,136).

Kasa və boşqab tipli qablar sayca çox azlıq təşkil edir. Bu da çox güman ki, XI-XIII yüzilliklərdə əhalinin eyni tipli qabların şirli nümunələrinə üstünlük verməsi ilə əlaqədardır.

Duz qablarının oturacaqları müstəvi formasında olub divarları şaquli istiqamətdə (azacıq genişləndirilməklə) təqribən 1,7-2 sm yuxarı qaldırılmış və divarları kənarlara açılmışdır (tablo 8, şəkil 5,6).

Aftafalar. Yaşayış yerinin IX-X əsr təbəqəsindən daha çox aşkarlanan qab nümunələridir. Onlar ölçü və formaları baxımından müasir aftafalardan fərqlənmirlər. Dövrün aftafaları gövdələrinin formalarına görə iki qrupa ayrılır. Birinci qrupa gövdələri armudvari şəkildə hazırlanmış aftafalar daxildir (tablo 11, şəkil 4,7). Bu tip aftafaların hündür boğazları bir qədər kənarlara doğru genişlənir. Onların tək qulpları qabın çiyin hissəsini boğazının ortasına birləşdirir və materialının rəngi sarımtıl-bozdur.

Armudvari gövdəli aftafalar Şamaxı (161,166), Beyləqan (48,137) və Azərbaycanın digər bölgələrinin arxeoloji qazıntılarından da məlumdur (137, 3-7).

İkinci qrupa assimmetrik şarşəkilli gövdəyə malik aftafalar daxildir. Bu tip aftafalar hündür boğazlı olub (tablo 11, şəkil 3,4), ağızları kənarlara açılaraq qıfvarı forma əmələ gətirir. Tək qulpları gövdələrinin yuxarı hissələrini qabın boğazına birləşdirir. Belə qablardan bəzilərinin qulpları lentvari formalıdır (tablo 11, şəkil 3,7). Lüləklər qulpun əks tərəfinə birləşdirilmiş və əsasən XIII əsrin əvvəlləri üçün səciyyəvidir. Ümumilikdə, Azərbaycanda İslam dininin qəbulu ilə əlaqədar aftafaların istehsalı daha da artır.

Şarşəkilli gövdəli aftafalar Beyləqan, Bərdə, Gəncə, Şətəl şəhər yerlərində də (80, 105; 1; 48) kütləvi istehsal edilmişdir.

Cənub-şərqi Şirvanın IX-X əsr aftafaları sadə və süzgəcli, XI-XIII əsr aftafaları zəngin naxışlanmaları ilə bir-birlərindən fərqlənirlərsə, XIV-XV əsrlərin nümunələri qatışıqlardan mükəmməl təmizlənməsi, yaxşı yoğrulması, XIV-XVII əsrlərə

aid olanlar isə gilinin ələnməsindən, nisbətən keyfiyyətsiz bişirilməsinə qədər fərqlənirlər.

IV qrupa xüsusi təyinatlı saxsı qablar-çıraqlar, şamdanlar, qəlyanlar, şar-konusvari qablar, saxsı qabların bişirilməsində istifadə edilən üç ayaqlar və çubuqlar daxildir.

Çıraqlar. Cənub-şərqi Şirvanın yaşayış yerlərinin şirsiz saxsı məmulatı içərisində çıraqlar xüsusi yer tutur. Şirsiz çıraqlar formalarına görə üç qrupa ayrılır. Birinci qrupa şarşəkilli gövdəyə malik çıraqlar daxildir (tablo10,şəkil 6-9). Bu tip çıraqların gövdələri ayaqla hərəkətə gətirilən dulus çarxında hazırlanmış, gövdəyə birləşdirilmiş lülələr və qulplar əsasən əldə formalaşdırılmışdır. Onlar əsasən XI-XIII əsrlərə aiddir.

Şarşəkilli gövdəyə malik çıraqlar Azərbaycanın Beyləqan (48,140), Bakı (67,27) şəhərlərindəki arxeoloji qazıntılardan da məlumdur.

İkinci qrupa daxil olan uzunsov gövdəli çıraqlar (tablo10,şəkil 1-3,5) yastı oturacağa, geniş ağıza və yarımdairəvi qulpa malikdirlər. Onların bəzilərinin qulpları və lüləyi cızma xətlərlə bəzədilmişdir.

Eyni formalı çıraqlar Azərbaycanın digər şəhərlərindən də tapılmışdır (34,75).

Yastı oturacaqlı çıraqların lentvari və yarımdairəvi qulpları onların ağızlarının kənarlarını gövdələrinin mərkəzinə birləşdirir. Bəzi çıraqlarda qulplar dairəni xatırladır və qulpun yuxarı hissəsi çıraqların ağzının yuxarı hissəsindən bir qədər

yuxarı qalxmış və bir qayda olaraq geniş ağızlı hazırlanmışdır. Uzun müddət istifadə edilmiş çıraqların səthi his təbəqələri ilə örtülmüşdür (tablo10,şəkil 9-11).

Üçüncü qrupa aid çıraqlar formaca matranı xatırladır. Çırağın yuxarısında qapaq yerinə bərkidilmiş şəbəkə naxışın mərkəzində deşiklər açılmışdır. Bu, yanacaq tökmək və yanma zamanı hava sormaq üçün edilmişdir. Bu tip çıraqların lülələri ağzının kənarından xeyli yuxarı qaldırılmış, çiyin hissəsinə qoşa qulp birləşdirilmişdir. Çırağın lüləyi, gövdəsinin aşağı hissəsi, qulpu qalın his təbəqəsi ilə örtülmüşdür. Azərbaycanın digər bölgələrində onlardan matra kimi istifadə edilmişdir.

Piydanlar. Xüsusi təyinatlı saxsı məmulatı içərisində piydan nümunələri də xüsusi yer tutur. Orta əsrlərdə işıqlandırıcı vasitələrdən olan bu nümunələr yaşayış yerinin XI-XIII əsr təbəqələrində aşkar edilmişdir. Onlardan bir ədədinin alt kasasının bir hissəsi, üst kasası isə tam bərpa olunmuşdur. Üst kasasının kənarı nov vformalıdır. Alt və üst kasasını çubuqvarı qulp birləşdirir. Hündürlüyü 9 sm, ağzının diametri 6 sm, oturacağının diametri 7 sm-dir. Piydan nümunələri Qəbələ Qalaının orta əsr şəhər yerində aparılan qazıntılardan da məlumdur. Tədqiq olunan ərazinin XI –XIII əsr təbəqəsindən xeyli sayda piydanlar və onların fraqmentləri aşkar edilib. 21 ədəd olan piydan nümunələri demək olar ki, istehsaldan sonra istifadə edilməmişdir (tablo10,şəkil 4). Tapıntılara əsasən, çıraqlarla yanaşı piydanlar da əhalinin məişət həyatında əsas yerlərdən birini tutub.

Qəlyan başlıqları orta əsr yaşayış yerlərində az tapılan nümunələrdəndir. Əsasən XVI əsrin sonları və XVII əsr

üçün xarakterik olunan qəlyan nümunələri qəlibdə formalaşdırılmış və üzərləri həndəsi naxışlarla bəzədilmişdir. Qəlyan nümunələri Azərbaycanın ayrı-ayrı orta əsr abidələrindən də məlumdur (30,102-107).

Şar-konuslar. Cənub-şərqi Şirvanın IX-XIII əsrlərə aid yaşayış yerlərində arxeoloji qazıntılar zamanı şarkonuslar da çoxluq təşkil edirlər. Şar-konusvari qabları gövdələrinin formalarına görə üç qrupa ayırmaq olar. Birinci qrupa ürək formasında olan şar-konusvari qablar daxildir (tablo 12, şəkil 1-3). Bu tip nümunələr Beyləqanın XI-XIII əsr təbəqələrindən də aşkarlanmışdır (48,141, şək.1,4).

İkinci qrupa asimmetrik şarşəkilli gövdəli şar-konusvari qablar daxildir. Belə qabların bir qisminin səthi saya, digərlərinin gövdələri cızma xətlərlə bəzədilmişdir və onların divarları nisbətən qalındır (tablo12, şəkil 14,6).

Şar-konusvari qablar Beyləqan (48,104-107), Mingəçevir (156,103-140), Naxçıvan (101,81-87), Kürdəmir (136,24-30), Şəmkir (160), Kiran (163,67), Bəndovan (171,76-77) şəhərlərindən də məlumdur.

Üçüncü qrupa daxil olan şar-konusvari qablar yastı oturacaqlı, divarları çiyninədək asimmetrik şaquli istiqamətdə formalaşdırılmışdır. Çiyindən başlayaraq gövdəsi boğaza doğru daralır, sonra da genişlənərək ağzının kənarlarına doğru bir qədər də nazikləşir. Bu tip şar-konusvari qabların bəziləri sadə, digərləri zəngin həndəsi və sxematik təsvirlərlə bəzədilmişdir (tablo 12, şəkil 5).

İstifadə məqsədləri fərqli və mübahisəli olan şar-konuslar klassiklərimizin əsərlərindən də məlumdur. Nizaminin «Əcəl ildırımı şığıyan zaman, alov püskürürdü daşın agzından» civə saxlamaq məqsədi ilə istifadə olunduğu, Xaqaninin «Dəmirçi kürəsi tək odlu nəfəsim, civə qab boğazı tək daralıb qəlbim» misralarına istinadən tədqiqatçıların bəziləri şar-konusvarı qablardan silah kimi, bəzi tədqiqatçılar isə ondan daha çox civə səxlamaq və daşımaq məqsədi ilə istifadə edildiyi fikrini müdafiə edirlər (103, 81-86;50,25-28).

XI-XIII əsrlərə aid şar-konuslar IX-X əsrlərə aid olan nümunələrdən gilin qatışıqlardan təmizlənməsi, üzərlərinin nəfis bəzənməsi və keyfiyyətli bişirilməsi, habelə gövdələrində (ərəb hərifləri̇lə –“Allah”, “Əli”) olan yazıları ilə fərqlənirlər (tablo12, şəkil 10).

Beləliklə, nümunələrin üzərində işlənmiş bəzəklərə, yazılara əsasən deyə bilərik ki, şar-konuslardan yalnız hərb işində istifadə olunmaq üçün deyil, civə, ətriyat, əcazçılıq və s. məqsədlər üçün də geniş istifadə edilmişdir.

IX-XII əsrlərə aid Qalatəpə yaşayış yerində Təvəkkül Əliyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntı işləri zamanı çoxsaylı maddi mədəniyyət nümunələri içərisində xarici səthi cızma üsulu ilə nəfis bəzədilmiş sferakonuslar da (şar-konus) aşkar edilmişdir. Qazıntı sahəsinin IX-XII əsrlərə aid mədəni təbəqəsindən aşkar olunan maddi mədəniyyət nümunələri cənub-şərqi Şirvanın həmdövür materialları ilə eyniyyət təşkil edirlər (57, 179-185).

İnşaat materialları. Cənub-şərqi Şirvanın şirsiz saxsı məmulatlarının bir hissəsini inşaat materialları təşkil edir. Onlar çoxsaylı kərpic, kirəmit, kaşı və saxsı borulardan ibarətdir.

IX-XI əsrlərə aid olan tikinti materialları içərisində çiy kərpiclər daha üstünlük təşkil edirsə, sonrakı yüzilliklərdə isə əsasən, çay daşı və bişmiş kərpiclərə üstünlük verilmişdir. Arxeoloji ədəbiyyatda sasani kərpicləri kimi tanınan və iri olçülü (49 x 39 x14; 45 x 34 x7 sm) kərpiclərdən IX əsrin əvvəllərinə qədər tikinti materialı kimi istifadə edilmişdir. Sonralar isə (IX əsrin ortaları, X-XVII əsrlər) tərkibinə saman qatılmı, ələnmiş torpaqdan hazırlanmış çiy kərpiclər nisbətən kiçik və eyni ölçüdə olmaları ilə fərqlənirlər. Belə kərpic nümunələri Torpaqqala (Bəyimli kəndi) və Azərbaycanın başqa həmdövr abidələrindən də məlumdur.

Orta əsrlərdə inşaat materialları istehsalında bişmiş kərpicə üstünlük verilsə də çiy kərpicdən də paralel şəkildə istifadə edilirdi ki, çöl divarlar bişmiş, daxili-iç divarlar (ara kəsmələr –E.A) isə çiy kərpiclə inşa edilirdi. Bu da qışda evləri isti, qızmar yay günlərində isə sərin saxlayırdı.

Cənub-şərqi Şirvanın orta əsr abidələrində arxeoloji qazıntı işləri zamanı aşkar olunan bişmiş kərpiclər formalarına görə fərqlənirlər. Onların ölçüləri 19 x 19 x 5.5; 22 x 21 x 5.5; 22 x 22 x 5.5 ; 22 x 23 x 5.5 sm- olan kvadrat formalı kərpiclərdir (38, 48 ).

İkinci qrupa düzbucaq formalı kərpiclər daxildir, Bu tip kərpiclərdən müxtəlif tikililərin inşasında geniş istifadə

edilmişdir. Onların ölçüləri 25 x 25 x 5; 30 x 28 x 5.5 sm-dir. Düzbucaqlı formalı kərpiclərin yayılma ərazisi çox genişdir.

Kaşılar. İnşaat-memarlıq keramikası nümunələrinin bir qismi kaşılara aid olanlardır. Kaşılar mavi, yaşıl, qəhvəyi, az hallarda isə ağımtıl rəngdədirlər. Onlar düzbucaqlı, kvadrat, rombvari, 3- 8 guşəli və ütü formasındadırlar. Kvadrat formalı kaşıların (tablo13, şəkil 6) ölçüləri 4.5 x 4.5 x 2 sm-dir.

Ölçüləri 18 x 8 x 9 sm olanlar isə düzbucaq formalı kaşılardır. Kaşılar hazırlanıb qurudulduqdan sonra usta-rəssam onun üzərinə cızma üsulu ilə müxtəlif həndəsi naxışlar işləyirdi. Bir-birindən aralı olan qoşa cızma xətlərin fonu sonradan ovulur və nəticədə naxışlar relyefli görünürdü. Yarımçıq fiqurlar növbəti kaşılarda tamamlanırdı.

Üçüncü qrupa ilk iki qrupdan fərqli olaraq hər iki üzü bəzədilmiş kaşılar daxildir. Aşkar edilmiş bu cür kaşıların həndəsi naxışlarının bir hissəsi deformasiya nəticəsində tökülmüşdür.

Səkkizguşəli ulduz formasında hazırlanmış kaşılar isə nisbətən zəngin bəzədilmişdir. Ulduzun bucaqlarının kənarına bir-birindən aralı (konturlara uyğun) yenidən səkkizguşəli ulduz təsvir edilmişdir. Qoşa təsvirin ortasına yazılar, mərkəzi hissədə səkkizguşəli ulduzun daxilinə çoxbucaqlı təsvirlər işlənilmiş və orta hissəyə firuzəyi rəng vurulmuşdur.

Digər kaşı sadə olub, anqob üzərindən cızma üsulu ilə işlənmiş yazılarla doldurulmuşdur. Bu tip kaşılar daha çox

Qəbələ (XIV) və Ağsu (XIV-XVI əsrlər) arxeoloji tapıntıları üçün səciyyəvidir (tablo 13, şəkil 7).

Kaşılardan əsasən, ictimai, dini memarlıq abidələrinin bəzədilməsində istifadə edilirdi.

Kirəmit. Orta əsr yaşayış yerində inşaat keramikasının az bir qismi kirəmitlərdən ibarət olan nümunələrdir. Kirəmit nümunəsi Qala şəhər yerinin XI əsr təbəqəsindən məlumdur. Tapılan kirəmit nümunələri ölçülərinə və formalarına görə müxtəlifdir. Məsələn, kirəmitlərdən biri nov formalı olmaqla- uzunluğu 37 sm, eni 19 sm, kərt yeri 14 sm, qalınlığı 2 sm- dir. Digər bir kirəmitin uzunluğu 27 sm, qalınlığı 3 sm, bir kirəmit parçasının uzunluğu 30 sm, eni 12 sm, qalınlığı 4 sm – dir (tablo13,ºəkil 1).

Aşkar edilən kirəmit nümunələrindən fərqli olaraq kərpic və kaşılardan bəzilərinin üzərində müxtəlif formalı naxışlar işlənib. İşlənmiş naxışların bəziləri qəlibdə tökülüb, digər naxışlar isə sonradan itiuclu əmək aləti ilə ovulub.

Su tüngləri. Boru formalı su tünglərinin bir tərəfi geniş, digər sonluğu isə nisbətən kiçik diametrdə hazırlanırdı. Kiçik diametrli hissə ilə tüngün geniş hissəsinin birləşdiyi nöqtəyə əlavə kəmər birləşdirilirdi. Tünglərin uzunluğu 37 x 42 sm, ən geniş hissədə diametri 40 x 36 x 31 sm, birləşmə üçün nəzərdə tutulmuş hissədə isə 34 x 31 x 29 sm olurdu. Bu cür tünglərdən Azərbaycanın orta əsr şəhərlərinin su təchizatında geniş istifadə edilmişdir (73, 17-22; tablo13,şəkil 2-5)

Şirli qablar. Tədqiq olunan bölgənin şirli qablarını şirlənmə və bəzədilmə texnikası və texnologiyasına görə aşağıdakı qruplara ayırmaq olar.

I. Birrəngli şirlə örtülmüş qablar

II. Cızma üsulu ilə bəzədilib birrəngli şirlə örtülmüş qablar

III. Anqob naxışlı qablar

IV. Marqans naxışlı qablar

V. Anqob üzərindən bir rənglə bəzədilən, şəffaf, yaxud yarımşəffaf şirlə örtülmüş qablar

VI. İki və daha çox rənglə bəzədilmiş polixrom şirli qablar

VII. Fonun ovulması yolu ilə bəzədilmiş şirli qablar

VII. Zoomorf naxışlı qablar

Bu tipli qablar əsasən kasa, boşqab və piydan tipli qabların müxtəlif hissələrindən ibarətdir (tablo14,şəkil1-10). Belə qabların divarları xaricdən gövdənin oturacaq hissəsinədək yaşıl şirlə örtülmüşdür. Şir əsasən anqob üzərinə, yalnız bəzi qablarda birbaşa saxsı üzərindən çəkilmişdir.

Anqob üzərindən yaşıl şirlə örtülmüş bardaq tipli qab bütöv aşkarlanmışdır. Ağzı novçalı qabın gövdəsi şarşəkilli formaya malik olub, lentvari qulpu gövdənin yuxarı hissəsini ağzının kənarlarına birləşdirir(tablo 14, şəkil4).

Monoxrom şirlə örtülmüş saxsı məmulatı içərisində piydanlara da təsadüf edilir. Piydanlar kasacıqdan, nəlbəki formalı oturacaq və onları bir-birinə birləşdirən saxsı çubuqdan ibarətdir. Kasacığın aşağı hissəsini oturacağa birləşdirən kiçik qulpları vardır (tablo 14,şəkil 7,9-10). Əsasən, az his verən bitki yağlarıilə istıfadə olunan piydanlar evlərin işıqlandırılması üçün nəzərdə tutulurdu. Bu qrupa daxil olan qabların bəziləri birbaşa saxsı üzərindən çəkilmiş şəffaf şirlə örtülüdür (tablo 14,şəkil 6) və daha çox saxsının öz rəngində - sarımtıl rəngdə görünürlər. Piydanlar daha çox XIII-XIV əsrlər üçün səciyyəvidir.

Monoxrom şirli qablar Bakının (143, 56-57), Şabranın (154,18), Beyləqanın (48, 130-132), Gəncənin (81), Şətəlin (80), Bərdənin (107), Naxçıvanın (187, 49-50) XI-XIII əsr mədəni təbəqələrindən, həmçinin, Qalacıq yaşayış yerində aparılan arxeoloji tədqiqatlardan  (120, 258-260) məlumdur.

İkinci qrupa cızma naxışlarla bəzədilərək, birrəngli şirlə örtülmüş kasa və boşqabların oturacaq və gövdələrinin bir hissəsi aiddir. Belə qabların oturacaq və divarlarına daxildən cızma üsulu ilə həndəsi, nəbati təsvirlər həkk edilmiş, üzərləri yaşıl və göy rəngli şirlə örtülmüşdür. Cızma xətlər saxsının rəngində tünd görünür.

Bəzi qablarda cızma naxışlar kifayət qədər sadə dairəvi xətlərdən ibarətdir (tablo 15, şəkil 1,2). Bəzi qabların oturacağının daxili dairəvi xətlə dövrələnmiş və içərisinə paralel xətlər işlənmişdir. Paralel xətlərin daxilinə isə cızma üsulu ilə ziqzaqvari xətlər çəkilmişdir (tablo 15, şəkil 3). Bu baxımdan boşqabların bir qismi sadə (tablo15, şəkil 1-5), bir

qismi isə nəbati və həndəsi ornamentlərlə daha zəngin bəzədilmişdir (tablo 15, şəkil 6-12).

Qabların bəziləri oturacağının mərkəzindən başlayaraq onun kənarlarına doğru çəkilmiş şüavarı və onları kəsən cızma şaquli xətlərlə bəzədilmişdir. Təsvirlər qabın kənarı boyunca çəkilmiş qoşa dairələr içərisindədir (tablo15,şəkil 4-5). Sadə naxışlardan duzqabıların bəzədilməsində istifadə edilmişdir (tablo15, şəkil 7).

Boşqab və kasaların içəri hissəsi daha zəngin bəzədilmişdir. Onların bəzilərinin oturacağının mərkəzi şahmatvari təsvirlərlə bəzədilmiş, içərisinə növbəli şəkildə yaşıl rəng vurulmuş və dairə ilə sərhədlənmişdir (tablo 15, şəkil 8). Eyni zamanda oturacağının mərkəzi nəbati (zanbaqvari) təsvirlə işlənmiş qablar da vardır. Belə təsvirlər buta rəsmləri ilə əhatələnmişdir (tablo15,şəkil9). Digər qabların üzəri oxşar təsvirlərlə (tablo15,şəkil10), bəzilərinin daxili isə daha zəngin sxematik nəbati təsvirlərlə bəzədilmişdir. Bu cür təsvirlər həndəsi xətlərlə sərhədlənir və əhatələnir (tablo 15,şəkil11). Sadə sxematik nəbati təsvirli qablara da rast gəlinir (tablo 15,şəkil 12). Ümumiyyətlə, cənub-şərqi Şirvanın şirli saxsı qablarının 75-80 %-i yaşıl rəngli şirlə örtülmüşdür. Cızma xətlərlə bəzədilib monoxrom şirlə örtülmüş qablar Beyləqan (48, 133), Gəncə (19), Bərdə (107,60), Şabran (153), Şətil (80,50-53) və Naxçı vanda da (99,99-105) geniş yayılmışdır.

Anqob naxışlı qablar. Anqob naxışlı qabların əsas hissəsini boşqablar təşkil edir. Onlar daxildən birbaşa saxsı üzərindən anqobla işlənmiş naxışlarla bəzədilmiş, bəzilərinin

üzərində isə müxtəlif həndəsi xətlər və quşu xatırladan rəsmlər çəkilmişdir (tablo16, şəkil 4).

Zəngin bəzədilmiş anqob naxışlı qabların bəzilərinin üzərinə bir neçə dairəvi xətt çəkilmiş, içərisi isə həndəsi təsvirlərlə işlənmişdir. Məsələn, belə qabların birinin mərkəzində altı guşəli ulduz və onun kənarlarına bucaqlar düzülmüşdür. Kompozisiya elə qurulmuşdur ki, təsvirlər birlikdə şüa əmələ gətirir. Qabın divarları ağıza yaxın sxematik təsvirlərlə əhatələnmişdir (tablo16,şəkil10). Marqans naxışlı belə qablar Beyləqandan və Naxçıvandan da məlumdur.

Şəhərgahın (-Kürdəmir r-nu) şirli qabları içərisində üzərində döyüşçü səhnəsi təsvir edilmiş nümunələr də var (51,280-288).

Marqans naxışlı qablar**.** Bu tip qabları iki qrupa ayırmaq olar. Birinci qrupa aid anqob üzərindən marqansla bəzədilmiş qablar kasa və boşqablardan ibarət olub, XI-XIII əsrlərə aid edilir və sayca azdırlar. Qablar daxildən oturacağın mərkəzinə doğru marqansla işlənmiş sadə və mürəkkəb həndəsi təsvirlərlə bəzədilmişdir. Onların bəziləri fırça ilə işlənmiş enli dairəvi xətlərlə bir-birinə birləşdirilmişdir (tablo16, şəkil 7).

Kasa və boşqabların digər qrupunun üzərində şüavari təsvirlər işlənilmişdir (tablo 16, şəkil 11). Oturacağının mərkəzinə səkkizguşəli ulduz təsvir edilmiş (tablo 16,şəkil 2,10) bu tip qablar X-XI əsrin əvvəllərinə aiddir.

Marqans naxışlı qabların bir çoxunun bəzədilməsində cızma xətlərdən də istifadə edilməklə çoxləçəkli gül təsviri

çəkilmişdi (tablo 16, şəkil 5). Qabın səthi isə şəffaf şirlə örtülmüşdü. Bəzi qabların üzəridə isə enli şüavarı və şüaların daxilində bucaq təsvirləri işlənmişdir (tablo 16, şəkil 6).

Ağ anqob üzərindən marqansla naxışlanmış qabların bir qismi stilistik-nəbati təsvirlidirlər (tablo 16, şəkil 8). Digər qabların üzərinə kvadrat formalı həndəsi xətlər işlənmiş və kvadratların birləşdiyi nöqtələrdə marqansla çəkilmiş dairələrin içərisi növbəli şəkildə doldurulmuşdur (tablo16, şəkil 5,9).

Anqob üzərindən bir rənglə bəzədilib, şəffaf, yaxud yarımşəffaf şirlə örtülmüş qablara kasa, boşqab və duzqabıları daxildir. Duzqabılarının daxilinə və ağzının kənarına tünd rənglə şüavarı təsvirlər düzülmüş və qab yarımşəffaf firuzəyi rəngli şirlə örtülmüşdü (tablo17,şəkil 2).

Kasa tipli qabların bəzilərinin divarları xaricdən ağ anqob üzərindən kobaltla işlənilmiş həndəsi təsvirlərlə bəzədilmişdir (tablo17,şəkil1). Kobaltla bəzədilmiş qablar içərisində stilistik nəbati, ən çox da günəbaxan təsvirli qablara da təsadüf edilir (tablo17,şəkil 4). Digər qab nümunələrində isə həndəsi təsvirlər yarpaqlarla (tablo17,şəkil 7,şəkil 6), çoxləçəkli gül təsvirləri ilə bəzədilmişdir (tablo17,şəki l8). Onların bir qismində kölgəli nəbati təsvirlər çoxluq təşkil edir (tablo17,şəkil 3,5), digər nümunənin mərkəzində isə iri dairələr çəkilməklə sxematik təsvirlər işlənmişdir (tablo17,şəkil9).Bu tip qabların üzərinə bir-birinə birləşdirilmiş konsentrik dairələr işlənmiş və ətrafına kölgəli təsvirlər düzülmüş (tablo18,şəkil 1-3), onların bəziləri yaşıl (tablo18, şəkil 8), digərləri isə firuzəyi rənglə örtülmüşdü (tablo18,şəkil 3,4,7). Onların bəzədilməsində kölgəli yarpaq

təsvirlərindən (tablo18,şəkil7,9-11) geniş istifadə edilsə də, həndəsi şüavarı təsvirli qablara da rast gəlinir (tablo18,şəkil 8).

İki və daha çox rənglə bəzədilmiş polixrom şirli qablar. Bu qrupa daxil olan qablar həm rənglərinə, həm də naxışların müxtəlifliyinə görə zəngindirlər. Yaşayış yerindən aşkar edilən polixrom şirli qablar kasa və boşqab tipli qabların müxtəlif hissələrindən ibarət olub, bir qismi sadə həndəsi naxışlıdır. Qabın oturacağı və ağzının kənarı eyni təsvirli naxışlarla işlənmişdir. Daxili səthi yaşıl və qəhvəyi şirlə örtülmüş qab nümunələrinin ağzının kənarına eyni rənglərlə üçbucaqlar çəkilmişdi (tablo 19, şəkil 2).

Polixrom şirli qabların digər qrupu düzbucaqlı təsvirlərlə bəzədilmiş və həmin təsvirlər növbəli şəkildə qəhvəyi və yaşıl rənglərlə yerinə yetirilmişdi (tablo 19, şəkil1).

Polixrom şirli qabların digər qrupunu kvadrat formalı naxışlı qablar təşkil edir Dairə daxilində qoşa xətlərlə bir-birindən ayrılmış şahmatvari kvadratların daxilinə qəhvəyi rənglə dairələr çəkilmiş və mərkəzinə eyni rəngli nöqtələr vurulmuşdu(tablo19,şəkil 7).

Kvadrat təsvirli polixrom şirli qabların bəzilərində oturacaqda olan kvadratların sonluqları əyri xətlərlə bir-birinə birləşdirilmiş, kvadratların içərisi isə həndəsi təsvirlərlə doldurulmuşdur(tablo19,şəkil 6).

Bu tip qabların bəzilərində səkkizguşəli ulduz təsvirlərinə rast gəlinir. Ulduzun konturları qəhvəyi rənglə yerinə

yetirilmiş, onların yeddi tilinə nöqtələr vurulmuşdu. Dairəvi xətlə əhatələnmiş ulduz və dairənin içərisinə yaşıl və qəhvəyi rəng doldurulmuşdur (tablo19,şəkil 5).Burada göz muncuqlu polixrom şirli qablara da rast gəlinir (tablo 19,şəkil 8).

Gili qırmızımtıl olan qalın divarlı kasa tipli qabın mərkəzi yanlara doğru çəkilmiş şüavarı təsvirlərlə bəzədilmişdir. Qəhvəyi, açıq yaşıl rənglərlə işlənmiş təsvirlər dünyanın dörd istiqamətini (qütübləri və yarım qütbləri-E.A) bildirir (tablo19, şəkil 4).

Polixrom şirli qabların xeyli hissəsi mürəkkəb bəzədilmə kompozisiyasına malik olub, naxışları müxtəlifdir. Onların az bir hissəsi sadə həndəsi naxışlı (tablo 20), əsas hissəsi isə mürəkkəb naxışlıdır. Daxildən səkkizguşəli ulduz təsviri ilə bəzədilmiş qablar növbəli şəkildə açıq yaşıl və qəhvəyi rənglərlə işlənib (tablo 20, şəkil 1). Şirli qablardan birinin mərkəzində çəkilmiş dairə içərisində düzbucaqlı, içərisi və ətrafı isə qəhvəyi rəngli nöqtələrlə bəzədilmişdir. Qabın kənarları sektorlara bölünmüş və daxili səthi yaşıl, qəhvəyi rənglərlə doldurulmuşdur (tablo 20, şəkil 5).

Polixrom şirli qablar içərisində mürəkkəb nəbati təsvirli qab nümunələrinin təsvirləri tünd və açıq qəhvəyi, açıq yaşıl rənglərlə yerinə yetirilmişdi. Cızma üsulu ilə çəkilmiş şüavari təsvirlərin içərisinə ləkə formasında qəhvəyi və yaşıl rəng vurulmuşdur. Elə qablar da var ki, onların daxildən oturacaqlarının mərkəzinə çəkilmiş şüavarı xətlərin içərisində dördləçəkli gül təsvir edilmişdi. Çox ləçəkli gül yaşıl rənglə, şüalar isə qəhvəyi rəngdə verilmişdi (tablo 20, şəkil 7).

Gili qırmızımtıl olan digər qabın daxili səthi isə anqob üzərindən şux yaşıl rənglə çəkilmiş qarışıq güllə zəncirvarı doldurulmuşdur (tablo 20, şəkil 8).

Fonun oyulması yolu ilə bəzədilmiş qablar. Bu tip qablar sayca azlıq təşkil etsə də, onlar yüksək texnologiyaların tətbiq edildiyi çox qiymətli qab nümunələridir. Fonun oyulması yolu ilə bəzədilmiş qabların naxışlama prosesi aşağıdakı qaydada yerinə yetirilmişdi: qab üzərində əvvəlcə cızma üsulu ilə naxışlar təsvir edilir, sonra isə rəssam naxışların fonunu oyurdu. Bu cür cızılan naxışlar isə təbii ki, qab üzərində relyefli (qabarıq) görünürdü.

Bu qrupa daxil olan qablar sadə dairələr (tablo 21, şəkil 2), mürəkkəb həndəsi və nəbati təsvirlərlə (tablo 21, şəkil 1) bəzədilirdi. Lakin, onların arasında stilistik nəbati təsvirli qablara da təsadüf edilir (tablo21, şəkil 3). Bəzi qabların bəzəklərində sadə həndəsi təsvirləri mürəkkəb stilistik nəbati, həmçinin günəşi xatırladan təsvirlər də işlənib (tablo 21, şəkil 5-7).

Cənub-şərqi Şirvanın şirli saxsı məmulatı içərisində olan zoomorf naxışlı qablar (kasa və boşqab tipli qablar) üzərində vəhşi heyvan, at, ceyran, quş, ev heyvanları və fantastik təsvirləri ilə seçilirlər (156,103-140). Bu təsvirlərin xeyli hissəsi vəhşi heyvan təsvirləridir və daha çox şirə bənzəyir. Təsvirlər dulusçu rəssam tərəfindən fantaziya edildiyindən və yaxud qabın bir hissəsi qırıldığından, təsvirlərin hansı heyvana aid olduğunu müəyyən etmək çətindir (tablo 22, şəkil 1,2,7). Təqribən şirə bənzətdiyimiz vəhşi heyvanların bədəni qəhvəyi

rənglə örtülmüş, bəzilərinin boyun və quyruq hissələri isə yaşıl rənglə işlənmişdir (tablo 22, şəkil 4).

Zoomorf qabların birinin üzərində at (tablo 22, şəkil 5), digər bir qab nümunəsinin üzərində isə daxili səthi yaşıl və qəhvəyi rəngli xal doldurulmuş, buynuzunun bir hissəsi qalmış maral və ya ceyran təsviri işlənmişdir (tablo 22, şəkil 6; tablo 23, şəkil 7-9).

Quş təsvirlərinə gəlincə, onların qaranquş (tablo 23,şəkil 1), qartal (tablo 23 şəkil4) və digər quşlara oxşarlığı daha çoxdur. Dulusçu rəssamlar onların qanad, ayaq və başlarını bir-birindən müxtəlif rənglərlə fərqləndirməyə çalışmışlar.

Fayans tipli qablar. Fayans tipli qablar tapıntılar içərisində sayca azlıq təşkil edir. Birinci qrupa daxil olan fayans qablar naxışsız olub, firuzəyi rəngli şirlə örtülmüşdür (tablo 26, şəkil 1). Belə qablar sadə və naxışsız olub, yerli istehsala aiddir.

İkinci qrupa daxil edilən və həndəsi naxışlarla bəzədilmiş fayans qablar da firuzəyi rəngli şirlə örtülmüşdür.

Üçüncü qrupa isə sxematik (həndəsi, nəbati, soomorf) təsvirlərlə bəzədilmiş fayans qablar daxildir və onların daxili həndəsi xətlərlə çərçivələnmişdir.

Fayans qab nümunələrinin bəziləri (tablo 26, şəkil 4) hər iki tərəfdən anqobla örtüldükdən sonra daxili səthi gül ləçəkləri və ərəb rəqəmləri ilə işlənmişdir. Bu bəzək və yazıları bir-birindən səliqəsiz çəkilmiş paralel xətlər ayırır. Onun diametri

11 sm, hündürlüyü 6 sm, oturacağı 2 sm, oturacaqla gövdənin arası isə 5 sm-ə bərabərdir.

Farfor tipli qablar. Farfor tipli qabların xeyli hissəsi müxtəlif fiqurlar əmələ gətirən həndəsi təsvirlərlə, az qismi isə sxematik nəbati təsvirlərlə bəzədilmişdir. Nəbati təsvirlər mütəmadi olaraq həndəsi xətlər daxilində işlənmişdir. Digər qab nümunələri sarımtıl şir üstündən müxtəlif rənglərlə (yaşıl, şabalıdı) nəbati və sxematik təsvirlərlə nəfis bəzədilib. Onlardan birinin mərkəzində buta gül gövdəsi boyunca çəkilmiş nazik xətlər arası konsentrik dairələr, habelə açılmış gül çəkilib (tablo 25,şəkil2). Üçüncü qab nümunəsinin çiyin hissəsi şabalıdı rənglə çəkilmiş konsentrik dairələrlə qabın ağzından ayrılır. Onun çiyin hissəsi qəhvəyi rəngdən istifadə edilərək nazik xətlərlə üçbucaqlara bölünüb. Üçbucaqların daxili qəhvəyi rənglə çəkilmiş hər biri üç ədəd olmaqla, dairəvi çevrələrlə doldurulub. Onun ağzının kənarı boyunca qəhvəyi rənglə çəkilmiş konsentrik dairənin daxili eyni rəngdən istifadə olunaraq şaquli xətlərlə doldurulub (tablo 24, şəkil 3).

Epiqrafik yazılı qablar. Kasa və boşqab tipli qabların bir qismi üzərində anqobüstü cızma üsulu ilə yerinə yetirilmiş yazılar həkk edilmişdir (tablo 25,27).

Qab nümunəsindən biri çox da hündür olmayan dairəvi oturacağa malik süfrə qabıdır. Diametri 14 sm olan qabın hər iki səthi anqob örtüyü üzərindən göy rənglə bəzədilib. Qab fraqmenti üzərində ərəb əlifbası ilə yazılar verilmişdir. Oxunması mümkün olan tək-tək sözlər - "kəman", "malik”, “qouhər" yazılmışdır. Qabın orta hissəsində tünd göy rəngdə çoxləçəkli gül rəsmi çəkilmişdir. Qabın daxilini nəbati

təsvirlərlə əhatələnmiş qoşa paralel xətt dövrələyir (60,18; tablo 25,şəkil 1,2,4).

Digər qabın qalan hissəsinin mərkəzində ərəb əlifbası ilə "Mahu-balıq" (balıq satanın əli ilə və on dörd) sözü yazılıb (tablo 25,şəkil 5). Zərif qab nümunələri XII əsr və XIII əsrin əvvəlləri üçün xarakterikdir. Qabların müxtəlif hissələri olduğundan yazıların tam oxunması mümkün deyil. Oxunması mümkün olan sözlər-"Şəhabədinin əli ilə, balıqsatanın əli ilə, təkrar olaraq dörd dinar" (tablo 25,şəkil 3) sözlərin oxunması mümkündür. Digər qab nümunələri daha çox hissələrdən ibarət olduğundan yazıların oxunması mümkün deyil (tablo 25, şəkil 1,2 ,4). (Bəndovan orta əsr abidəsindən aşkar olunan yazılı qab nümunələri Azərbaycan Milli Tarixi Muzeyinin Arxeoloji fondunda mühafizə olunurlar).

Qırxçıraq yaşayış yerindən aşkar olunan şirli qab nümunəsi analogiyasına görə XII-XIII əsrlərə aid olub, üst tərəfi ağımtıl rəngli anqobla örtülmüşdür. Anqobun üzərində ərəb əlifbasının süls xətti ilə 3 sətirdən ibarət yazı nümunəsi var. Ərəb dilində mətnlərdə əsasən xoş arzulara uyğun olan söz birləşmələri oxunur. Tam anlaşılan "Onun vüsalından bir xəbər olsun, heyranlıqla təki açılsın, təki çikəçlənsin" kimi oxunur (tablo 27,şəkil 3).

Qab nümunəsinin biri ağımtıl rəngli anqobla örtülmüşdür. Qabın çiyin hissəsi açıq bənövşəyi rənglə şəbəkə üsulu ilə işlənib. Şəbəkə formalı naxışın daxili sarımtıl və göyümtül rənglərdən istifadə olunaraq bəzədilib. Qab nümunəsinin ağzının kənarı boyunca "Bismillahir Rəhmanir Rəhim. Biz sənə Kövsəri hədiyyə etdik. Rəbbinə dua et və qurban kəs.

Sənin şənin yüksəkdir, onlar isə rəzildirlər (Quran-i Kərim. Kövsər surəsi) (tablo 26,şəkil 2).

Şirli qablar üzərində işlənmiş müxtəlif təsvirlər, bəzək elementləri, ornamentlər Aərbaycan dekorativ-tətbiqi sənətinin və bu sahə ilə məşğul olan ustaların yüksək sənətkarlıq səviyyəsindən xəbər verir (45;46).

Yaşayış yerindən aşkar edilmiş nümunələrin rənglənməsində daha çox yaşıl, sarı, qəhvəyi rənglərdən istifadə olunmuş və onlar həndəsi, nəbati təsvirlərlə bəzədilmişlər. Nümunələrdən biri (tablo18, şəkil 1,2) daxildən və xaricdən anqobla örtüldükdən sonra üzərinə yaşıl şir çəkilmişdir. Dib hissədə, daxildən gövdə və oturacağı ayıran iki paralel xətt çəkilmişdi. Qabın səthində həyat rəmzi olan dairələr, onları bir-birinə birləşdirən su zanbağı gülü işlənmiş və üzərinə yazılar həkk edilmişdir. Bu işləmələr marqans vasitəsilə yerinə yetirilmişdir. Qab nümunəsinin gili qırmızı rəngdədir. Oturacağı gövdəyə nisbətən qalındır. Bu nümunənin ölçüsü; 17 sm, oturacağının qalınlığı 1,5 sm, gövdəsinin qalınlığı 1 sm, hündürlüyü isə 15 sm-dir.

Torpaq, hava və su mənasını verən su zanbağı gülü qədim dövrlərdən insanların inancları ilə bağlı olmuşdur. Bu üçlük orta əsrlərdə istehsal edilən qabların üzərində daha çox vurulan naxışlar olmuşdur. Bəzi ölkələrdə, o cümlədən Şərqi Misirdə su zanbağı gülü emblem kimi qəbul edilmiş olsa da, dünya miqyasında simvolik gül rəmzi təsviri hesab edilir (199,86-94; 198,291-292 ).

Digər nümunə üzərində ceyran rəsmi çəkilmiş çox kiçik qab qırığıdır. Qabın daxili və xarici səthinə çəkilmiş rənglər demək olar ki, çətinliklə izlənilir(tablo18,şəkil 6).

Digəri hündür olmayan dairəvi oturacaqlı kasanın bir hissəsidir (tablo 26,şəkil 3). Diametri 7 sm, hündürlüyü 2 sm, qalınlığı 1,3 sm-dir. Qabın ağız hissəsi bir qədər kənara qatlanmışdır. Daxildən ağ anqob təbəqəsi üzərindən tünd firuzəyi şir çəkildikdən sonra şaquli xətlərlə dörd hissəyə bölünmüşdür. Qabın üzərində yan-yana kvadrat təsvirləri çəkilmiş və həndəsi fiqurlar düz xətlərlə bərabər hissələrə bölünmüşdür. Dörd bərabər hissəyə bölünən kvadratların aşağı və yuxarı hissələrinə üçbucaqlar çəkilmişdir.

Dib hissədə səkkiz ləçəkli gül təsviri və təsvirlər dairəvi xətlə bir-birinə birləşdirilmişdir. İlk baxışda xonçanı xatırladan bu təsvir dünyanın dörd cəhətini və yarım cəhətlərini bildirir(tablo 20,şəkil 7).

Təsvirini verdiyimiz qab nümunələrindən ikisi (tablo 20,şəkil 3-4) alçaq dabanlı, tərkibinə narın qum əlavə edilərək hazırlanmışdır. Digərləri isə (tablo 20,şəkil 1,5) hündür dabanlı və yastı oturacaqlı nümunələridir. Bu qabların tərkibi müxtəlif qarışıq gildən hazırlanmışdır. Qab nümunələrinin dördünün gili qismən məsamələdir (tablo 20,şəkil1,3,4,5). Azərbaycanın digər orta əsr yaşayış yerlərindən tapılmış qab nümunələri ilə eyniyyət təşkil edir. Qab nümunələrinin üzərində olan müxtəlif zoomorf (tablo 22,23), bitki və gül təsvirlərinin (tablo 17,18,20) rəng çalarlığı orta əsrlərdə Azərbaycanın flora və faunasının zənginliyini bildirir. Eyni zamanda qabların üzərində olan fərqli rəsm təsvirləri orta əsr dulusçu rəssamlarının ulu təbiətin zəngin

mənzərələrindən geniş istifadə etdiklərini bir daha göstərir. Cənub-şərqi Şirvan ərazisinə daxil olan Qırxçıraq yaşayış yerindən 1975-1985-ci illərdə toplanılan materialları dövrünə görə XII əsrin sonu XVI əsrin əvvəllərinə aid etmək olar (6,358-361; tablo 18, şəkil 3,4,7).

Damğalı qablar. Cənub-şərqi Şirvanın zəngin şirli keramika qablarının təqribən 3-5 %- nin oturacaqlarına müxtəlif formalı damğalar vurulmuşdur. Formalarına görə damğaları bir neçə qrupa ayırmaq olar.

Birinci qrupa kvadrat formalı damğalar daxildir (tablo 24,şəkil 3). Kvadratların mərkəzində relyefli nöqtələr vurulub. İkinci qrupa daxil olan düzbucaqlı formalı damğaların (tablo 24,şəkil 5) içərisində isə növbəli şəkildə nöqtələr düzülmüşdür. Şüavari formalı damğalar üçüncü qrupa (tablo 24,şəkil 4,8,10), qarışıq həndəsi təsvirli damğalar isə dördüncü qrupa daxildir (tablo 24,şəkil 9). Damğalı qablar orta əsr yaşayış yerlərinin həmdövr abidələrindən də məlumdur (157,95-100).

İlk orta əsrlərdə damğalar qabın gövdəsinə, qulpuna vurulurdusa, orta əsrlərdə əsasən qabın oturacağına vurulurdu. Damğalar qabları hazırlayan ustaların və ya onları sifariş verənin kimliyinə işarə idi. Yüksək keyfiyətli hazırlanan qabların oturacağında olan damğalar ixtisaslaşmış sənətkarlara şamil edilirdi. Sənətkarlığın bir çox sahələri, o cümlədən qocaman el sənəti olan dulusçuluq sənəti də nəsildən-nəslə keçmişdir (18,36-38). Ehtimal ki, qablara vurulan damğalar hər nəslin özünün fərqləndirici nişanları olmuşdur. Eyni formalı qabların xarici səthi fərqli naxışlarla bəzədildiyi kimi (zoomorf, təbiət, sxematik və s.) oturacaqlarında işlənən damğalar da bir-

birindən fərqlənirlər. Bu fərqliliyə görə alıcılar qabın keyfiyyətinə, davamlılığına, dekor bəzəyinə əsasən onların hansı usta tərəfindən hazırlandığını müəyyən edirdilər (tablo 24).

Saxsı qab istehsalı. Aparılmış arxeoloji qazıntı işləri nəticəsində bölgənin şəhərtipli yaşayış yerlərindən-Şirvan, Qırxçıraq, I Bəndovandan, Şəhərgahdan dulus kürələri və saxsı qabların bişirilməsində istifadə edilmiş üçayaqlar və çubuqlar aşkar edilmişdir. Qırxçıraq yaşayış yerindən bütöv bir dulusçuluq məhəlləsi tapılmışdır. Kür çayının yaxınlığı səbəbindən, dulusçuluq məhəllələri su ilə yaxşı təchiz edilmişdir.

İstər əhalinin içməli suya tələbatının ödənilməsi, istərsə də suvarma məqsədilə hələ qədim zamanlardan çay üzərində xüsusi su çarxları qurulurdu. Bu ənənə XIX əsrdə, hətta XX əsrin 20-30 cu illərində də davam etmişdir (139, 162; 73,45-50).

Saxsı qab istehsalı üçün zəruri olan gil ehtiyatları isə Mişovdağ və Harami dağlarından gətirilirdi. Daşınmada at və öküz qoşulmuş arabalardan istifadə edilirdi. Dulusçular gili emalatxananın içərisində, yaxud qarşısında qabaqcadan qazılıb hazırlanmış çalaya doldurur və su ilə isladırdılar. Hazır gil quyulara tökülür və hər gün ona müəyyən miqdarda su əlavə edilirdi. Gil quyuda havanın rütubətliyindən asılı olaraq ən azı 4 və ən çoxu 10 günə qədər saxlanılırdı. Gil həll olunduqdan sonra onu emalatxananın içərisində hamar meydançaya yığırdılar. Çünki, palçıq nə qədər tapdalanırdısa, istehsal üçün bir o qədər yararlı olurdu.

Hazır olduqdan sonra qabın ölçüsündən və təyinatından asılı olaraq gildən kündələr kəsilirdi. Kündələr dulus çarxının üzərinə qoyulduqdan sonra isə istehsal prosesi başlanılırdı.

Əsas istehsal avadanlığı hesab edilən dulus çarxı üç hissədən-üst və alt taxta təkərlərdən, həmçinin onları birləşdirən ağac oxdan ibarət olurdu. Küsnətdə aşkar edilən dulus çarxının alt təkərinin diametri 50-60 sm, üst təkərinin ölçüləri 20-30 sm, onları birləşdirən oxun uzunluğu isə 70-75 sm - ə çatırdı.

Kündə dulus çarxının üzərinə qoyulduqdan sonra usta iki əlilə kündəni sıxaraq çarxı hərəkətə gətirirdi (tablo 28,şəkil 1). Arxeoloji qazıntılar nəticəsində cənub-şərqi Şirvan ərazisindən aşkarlanmış saxsı qabların 95%-i məhz dulus çarxında, çox az hissəsi isə əldə hazırlanmışdır.

İstər şirsiz, istərsə də şirli saxsı məmulatları formalaşdırıldıqdan sonra qurudulurdu. Qabların divarları müxtəlif qalınlıqda olduğundan, quruduqda üzərində bəzi çatlar əmələ gəlirdi. Ona görə də dulusçular qabın divarları bərabər səviyyədə qurusun deyə, onun nazik divarlarını parça ilə örtürdülər.

Qab təpidikdən sonra dulus darağı ilə naxışlanırdı. Naxışlama əksər hallarda dulus çarxı üzərində yerinə yetirilirdi. Çarx hərəkətə gətirildikdə qabın divarları üzərində cızma xətlər yaranırdı. Naxışlamanın bir qismi isə əllə yerinə yetirilirdi. Bu, xüsusilə şirli qablara aiddir. Şirli qabların səthi bir qayda olaraq əvvəlcə ağ anqob təbəqəsi ilə örtülür və müxtəlif rənglərlə yerinə yetirilmiş rəsmlər fırça ilə işlənirdi.

Onu da qeyd edək ki, qablar naxışlanarkən dulusçu rəssamlar bir çox hallarda qabın səthini sahələrə ayırır, nisbətən daha böyük sahəni əhatə edən səthə mürəkkəb və iri ölçülü rəsmlər işlənirdi. Bu zaman anqobüstü cızma həndəsi xətlərdən də istifadə edilirdi. Həmin xətlər qabın səthini bir neçə yerə bölür, naxışları sərhədləyir (yəni onun konturlarını müəyyən edir) və saxsının rəngində görünməklə qabın rəng çalarlarını artırırdı.

Naxışlama başa çatdırıldıqdan sonra məmulat qurudulur və səthi müxtəlif şir təbəqəsi ilə örtülürdü. Bu məqsədlə şəffaf və ya yarımşəffaf şirlərə üstünlük verilirdi.

Saxsı qab istehsalının mühüm mərhələlərindən biri də onların bişirilməsidir. Bu əməliyyat dulus kürələrində yerinə yetirilirdi. Artıq qeyd olunduğu kimi, arxeoloji qazıntılar nəticəsində bölgədən xeyli miqdarda dulus kürələrinin qalıqları aşkar edilmişdir. Məsələn, müasir Şirvan şəhərinin 1,5 kilometrliyində bir yerdə dairəvi planda yerləşmiş çoxsaylı dulus kürəsi aşkarlanmışdır (tablo 28,şəkil 2). Dulus kürələrinin çayın kənarında qurulduğu güman edilir. Mütəxəssislər bir cərgədə yerləşən dulus kürələrinin ətrafında olan və diametri 2–2.5 metrə çatan divar qalıqlarını emalatxanalara aid edirlər. Divarlar iki ayrı-ayrı hissədən ibarətdir. Daxili divarın qalınlığı 1.40 sm-dir. Birincidən 20-25 sm aralı tikilmiş ikinci divar iki cərgə bişmiş kərpicdən hörülmüşdür. Görünür, dulusçular dulus kürələrində istiliyin tənzimlənməsi və temperaturun yaxşı saxlanması üçün termos prinsipindən istifadə etmişlər.

Dulus kürələrindən uzun illər istifadə edildiyindən, kərpiclərin odadavamlılığı azalmışdır. Dulusçular kürələrin ömrünü uzatmaq üçün daxildən onun divarlarını odadavamlı gillə suvayarmışlar.

Dulus kürəsi təmizlənərkən buradan bir neçə üçayaq, 2 ədəd sadə formalı dayaq və "S" formalı qarmaq aşkar edilmişdir. Əsasən üçayaqlar şirli (kasa, boşqab və s.) qabların içərisinə dayaq kimi nəzərdə tutulmuşdur. Onların üç ayağının sonuna şaquli istiqamətdə şiş sonluqla qurtaran barmaqcıqlar birləşdirilmişdir (tablo 28, şəkil 3,4). Bundan əlavə, hündür qablarda, məsələn kasalarda üçayaqların altına əlavə olaraq qabın hündürlüyünə uyğun əlavə dayaqlar bərkidilmişdir. Təsadüfi deyil ki, üçayaqlara dulus kürələrinin və emalatxanaların təmizlənməsi zamanı çox təsadüf olunur. "S" formalı qarmaqlardan isə qulplu qabları asmaq üçün istifadə edilmişdir

**2.4.2. Metalişləmə.** Orta əsrlərdə iqtisadiyyatın bütün sahələrinin inkişafına təsir göstərən metalişləmə sənəti nümunələri torpaq altında çox tez korroziyaya uğradığından onların böyük əksəriyyəti öz əvvəlki formasını itirmişdir.

Metalişləmə sənəti də digər sənətkarlıq sahələrində olduğu kimi xammalın hasilindən, yaxud onun alınmasından başlayır. Fikrimizcə, bölgənin sənətkarlıq mərkəzlərində metal hazır şəkildə, əsasən yerli filiz istehsalçılarından alınırdı. Lakin, biz dəniz və karvan yolları ilə gətirilmə xammalı da istisna etmirik.

Cənub-şərqi Şirvanın orta əsr şəhərlərində inkişaf etmiş bir çox sənət sahələri ilə yanaşı metalişləmə sənətinin də xüsusi yeri olub. Bu sənətin inkişafında əsas amillərdən biri, demək olar ki, ən başlıcası Azərbaycan ərazisinin xammal ehtiyatları və faydalı qazıntılarla, habelə qiymətli daşlar, əlvan metallarla zəngin olmasıdır. Məhz zəngin yataqların olması orta əsrlərdə də metalişləmə sənətinin inkişafına zəmin yaradırdı.

Cənub-şərqi Şirvanın metal məmulatlarının bir qismini kəsici alətlər, ox ucluqları təşkil edir (tablo 29).

Yazılı mənbələrdə Azərbaycanda-Gədəbəydə, Aranda, Şirvanda, Naxçıvanda, Daşkəsəndə və digər ərazilərdə olan faydalı filiz, mis yataqları və onlardan istifadə qaydaları haqqında qiymətli məlumat verilmişdir .

Azərbaycanın orta əsr yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar göstərir ki, metal məmulatı istehsalında da xammalın tərkibi təmizləndikdən sonra bir hissəsi metaləritmə mərkəzlərinə, qalan hissəsi isə metaləritmə kürələrində istehsal edilmək üçün mədənlərin yaxınlığında olan məntəqələrə aparılırdı.

Orta əsrlərdə baş vermiş daxili və xarici müharibələr sənətkarlığın müxtəlif sahələrinə mənfi təsir göstərib, durğunluq yaratmış olsa da, metalişləmə sənətinə bir o qədər də mənfi təsir göstərməmiş, əksinə bu sənət daha yüksək səviyyədə inkişaf etmişdir. Bunu deməyə əsas verən başlıca amillər orta əsr Azərbaycan şəhərlərində aparılmış arxeoloji qazıntılar nəticəsində tapılmış istehsal ocaqları, metaləritmə və dəmirçi kürələri, emalatxanalar, istehsal çıxarları (zay

məhsullar), iş zamanı istifadə olunan əmək alətləri, məişət və təsərrüfat avadanlıqlarıdır.

Cənub-şərqi Şirvanın orta əsr şəhər yerlərində aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilən dəmirçi və misgər emalatxanaları IX-XV əsrlərdə Azərbaycan şəhərlərində metalişləmə ilə bağlı sənət sahələrinin tədqiqi baxımından çox mühüm elmi əhəmiyyət kəsb edir.

Mişovdağın ətəklərindəki orta əsr yaşayış yerindən və Qırxçıraqdan dəmirçilik və misgərlik emalatxanasının qalıqları, orada çalışan ustaların iş prosesində istifadə etdikləri alətlər və digər maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Maddi mədəniyyət nümunələri ilə yanaşı buradan dəmirçi ocaqları, onların yaxınlığında isə çoxlu metal külçələr və çıxarlar aşkar edilib. Onlar forma etibarı ilə müxtəlifdirlər. Bəziləri dairəvi, bir başqaları ellipsvari, digərləri isə yastı və ya qabarıq formalıdır. Belə metal külçə və çıxarlar Azərbaycanın digər orta əsr abidələrindən də məlumdur.

Q. Əhmədovun fikrincə IX –XV əsrin əvvəllərinə aid mədəni təbəqədə nəinki metal məmulatına, həm də metal əşyaların istehsalında istifadə olunan əmək alətləri, istehsal ocaqları, xüsusilə istehsalat tullantılarının qalıqlarına da təsadüf edilir. Aydın olur ki, bu dövrdə metalişləmə sənəti bir neçə müstəqil sənət sahələrindən-dəmirçilik, misgərlik, zərgərlik və s. ibarət olmuş və onların içərisində əsas yeri dəmirçilik tutmuşdur (48,52). Metaləritmə və dəmirçi kürələrində istiliyi artırmaq məqsədilə körükdən istifadə edilirdi. Cənub-şərqi Şirvanın yaşayış yerlərindən körük qalığı, Naxçıvanın XIV-XVII əsrlərə aid yaşayış yerindən körük

hissələri, Şamaxı qazıntılarından isə dəmirçi emalatxanasına aid dəzgah, diametri 35 sm olan kürə, havanı körükdən kürəyə ötürmək üçün istifadə olunan saxsı boru aşkar edilmişdir.

İstehsal prosesində əsasən isti döymə üsulundan istifadə edilirdi. İş prosesində ətrafa səpələnmiş tullantı-şlaklar da bunu sübut edir. Cənub-şərqi Şirvanda öyrənilmiş dəmirçi emalatxanalarında tullantılarla yanaşı, kəsilmiş, lakin istifadə edilməmiş xammal qalıqları da çoxluq təşkil edir.

Cənub-şərqi Şirvanın yaşayış yerlərindən ustaların istifadə etdikləri alətlər də tapılmışdır. Daşyonma sənətində, miniatür bəzəklərdə və mis üzərində döymə üçün işlədilən alətləri (maşa, çəkic, balta, dəmirkəsən, dəlikaçan, yiv, isgənə, qayçı, oymaq) misal göstərə bilərik.

Orta əsrlərdə metalişləmə sənəti sahəsində çalışan ustalar bu və ya digər məmulat istehsal edərkən bir çox üsullardan istifadə edirdilər. İstehsal və naxışlama əməliyyatı, sadə döymə, polad və ya dəmirin qaynaqlanması, möhkəmləndirmə, materialın kəsilməsi, yonulması, hamarlanması, ştamplanma və s. üsullar Azərbaycan sənətkarları tərəfindən geniş tətbiq edilmişdir.

Metalişləmə sənətində metalın formalaşdırılması mühüm şərtdir. Bir qayda olaraq dəmirçi ustalar məmulat istehsalına metalın döyülməsindən başlayırlar. Əşyanın formalaşdırılması üçün dəmirin qızdırılmış şəkildə döyülməsinə üstünlük verilirdi. Nadir hallarda isə kiçik əşyaların formaya salınmasında soyuq döymə üsulu tətbiq olunurdu.

Tədqiqatçıların fikrincə isti döymə zamanı qızdırılmış dəmirin döymə temperaturu $900^0$, polad üçün isə $775^0$ istilik kifayət edirdi (174).

Qala orta əsr yaşayış yerində (Qəbələ r-nu) və Şəhərgahda (Kürdəmir r-nu) aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan metal məmulatının kimyəvi analizi göstərdi ki, onların tərkibi çoxkomponentlidir. Başqa sözlə, həmin materialların hazırlanmasında təmiz tərkibli dəmirdən, habelə kömürləşmiş poladdan istifadə etmişlər (cədvəl 1,2).

Tapıntıların təhlili göstərir ki, dəmirçi ustalar məmulatın hazırlanmasında qaynaqetmə üsulundan da geniş istifadə etmişlər. Bu zaman dəmir parçasının qaynaq ediləcək hissələri qızdırılır və bir-birinin üstünə qoyularaq döyülür. Proses o vaxtadək aparılır ki, hissələr bir-birinə birləşsin. Buna misal olaraq bıçaqların, dəhrələrin, baltaların və s. dəstək hissələrini göstərmək olar.

Dəmirçi ustaların istifadə etdikləri üsullardan biri də termik işləmə üsuludur. Bu üsuldan daha çox silah və hərbi geyimlərin (zirehli geyimlərin və zirehdeşən silahların) hazırlanmasında istifadə olunurdu. Dəmir əşyanın hazırlanmasında həmçinin yonma üsulundan da istifadə olunub. Bu mərhələdə soyuq metal işlənilir. Məmulatın yonulması müxtəlif daşlar, o cümlədən bülöv daşları vasitəsi ilə həyata keçirilirdi.

Dəmirçilər müxtəlif sənət sahələrindən sifarişlər qəbul edərək lazımi alətlər, məişət və təsərrüfat avadanlıqları hazırlayırdılar. Bu baxımdan tez-tez olunan sifarişlər sənətin

müxtəlif sahələrinin inkişafına və formalaşmasına zəmin yaradırdı.

Dəmirçilik. Dəmirçilik sənəti ilə bağlı arxeoloji tapıntıların coğrafi sərhədləri böyükdür. Şəhərgahdan tapılmış dəmirçilik emalatxanası planlıdır.

Bölgənin dəmirçiləri müxtəlif təyinatlı əmək alətləri, məişət əşyaları, silahlar və digər əşyalar istehsal edirdilər. Aşkar edilmiş əmək alətləri bel, oraq, dəryaz, balta, dəhrə, çəkic və bıçaq qalıqlarından ibarətdir.

Torpaq şumlanması, suvarma, qazma, qarışdırma işlərində beldən istifadə edilirdi. Bölgədə aşkarlanmış bel qalıqları (tablo 29) bu tip əmək alətinin çox geniş sahələrdə tətbiq edildiyini təsdiq edir. Orta əsrlərdə torpaq işlərində geniş istifadə edilmiş bel Azərbaycanın bütün bölgələrində geniş tətbiq edilmişdir.

Cənub-şərqi Şirvandan aşkar edilmiş əmək alətləri içərisində biçin alətləri xüsusi yer tutur. Taxıl, ot məhsullarının biçilməsində dəryaz, oraq kimi biçin alətlərindən istifadə edilmişdir. Tədqiq olunan bölgədə dəmirçilik sənəti ilə bağlı arxeoloji tapıntıların coğrafiyası böyükdür. Şəhərgahda aşkar edilən dəmirçilik emalatxanaları kvadrat, düzbucaqlı və nadir hallarda yarımdairəvi plana malikdir. Dəmirçilər daha çox müxtəlif təyinatlı əmək alətləri, məişət əşyaları, silahlar və digər əşyalar istehsal edirdilər ki, onların da sırasında bel, oraq, dəryaz, balta, dəhrə, çəkic və s. çoxluq təşkil edir.

Bel qalıqları-bu tip əmək alətinin təsərrüfatın müxtəlif sahələrində geniş tətbiq edildiyini təsdiq edir.Torpaq işlərində geniş istifadə olunan bel, gavahın, toxa (kətmən) Beyləqanın (47,52-53), Naxçıvanda (99, 77-78) həmdövr təbəqələrindən də aşkar edilmişdir və bu alətlərin çoxunun forması son zamanlara qədər dəyişilməmiş qalmışdır.

Aşkar edilmiş əmək alətləri içərisində biçin alətləri xüsusi yer tutur. Etnoqrafik tədqiqatlar göstərir ki, taxıl və ot məhsullarının biçilməsində iki cür biçin alətindən istifadə edilmişdir: dəryaz və oraq. Oraqlar işçi hissələrinin formalarına görə iki qrupa ayrılır. Birinci qrupa daxil olan oraqların işçi hissələri düz olub sonluğa doğru içəriyə yığılır.

Məişətdə və sənətkarlıqda istifadə edilən alətlər daha çox papaqçılıq, pinəçilik, palanduzluq və s. sənət sahələrində işlənirdi. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş biz qalıqları əsasən dəmirdəndir. Onların dəstək hissəsi ağacdan olduğundan çürümüşdür. Oxşar bizlər digər orta əsr abidələrindən də məlumdur.

Dəmirdən hazırlanmış baltalar formasına görə müasir baltalardan az fərqlənirdi. Onların işçi hissələri tədricən genişlənir və ağac dəstə keçirmək üçün xüsusi yerə malikdir. Bu hissə kəsər hissəyə qaynaq edilmişdir.

Bölgədə aparılmış arxeoloji qazıntı işləri nəticəsində kərki qalıqları da aşkar edilmişdir. Kərkilər də iki hissədən-işçi və sap keçirilən hissələrdən ibarətdir. Kərkilərin də işçi hissələri konusvaridir. Baltalardan fərqli olaraq kərkilərin sap

keçirilən hissələri işçi hissələrinə tərs mütənasibdir. Başqa sözlə sap keçirilən hissə işçi hissəyə perpendikulyardır.

Dəmirçilik alətləri içərisində çox geniş yayılmış və həm də müxtəlif sahələrdə işlədilən bıçaqlara çox təsadüf edilir. Bıçaqların kəsici hissələri düz, bəzilərində arxaya doğru azacıq əyilmiş şəkildə formalaşdırılmışdır (tablo 29,şəkil 1,11-12).

Etnoqrafik müşahidələrə əsasən kiçik və nisbətən ortaölçülü bıçaqlardan məişətdə, iri ölçülü bıçaqlardan isə əsasən ovçuluqda, bəzən hərbi sahədə də istifadə edilmişdir.

Məişətdə və təsərrüfatda geniş istifadə olunan dəhrələrin ağacdan olan sapları uzun müddət torpaq altında qaldığından tamamilə çürümüş, kəsər hissələri formasını itirmişdir. Dəhrələrdən kəsici alət kimi daha çox bağçılıq təsərrüfatında istifadə edilmiş və bu gün də istifadə edilməkdədir.

Silahlar. Cənub-şərqi Şirvanın orta əsr abidələrində aparılan arxeoloji qazıntılar zamanı ox ucluqları da aşkar edilmişdir. Ox ucluqlarını formalarına görə üç qrupa ayırmaq olar.

-Birinci qrupa yarpaqvarı formalı ox ucluqları daxildir. Onlar mis xəlitəsindən hazırlanmışdır.

-İkinci qrupa rombvarı formalı ox ucları daxildir. Ox uclarının əksəriyyəti rombvarı formalıdır.

-Üçüncü qrupa dördtilli ox ucları daxildir. Bu qrupa daxil olan ox uclarının oxşarları Azərbaycanın orta əsr şəhərlərindən

məlumdur. Ox ucluqlarının sonluğu şişvari olub, ağac sonluğa keçirilirdi.

-Ovçuluqda və hərb sənətində istifadə olunan ox ucluqlar Azərbaycanın orta əsr silahları içərisində çoxluq təşkil edirlər (52).

Dəmirçi maşası. Uzun müddət torpaq altında qaldığından dəmirçi maşası ilkin formasını itirmişdir. Bu alət ustaların soyuq dəmiri tutmaq, isti kürəyə yığmaq və çıxarmaq məqsədilə istifadə etdikləri sənətkar alətidir. Dəmirçi ustalar əsasən uzun qulplu maşalardan isti məmulatın kürədən çıxarılmasında və istehsalında geniş istifadə etmişlər.

Təsərrüfat alətləri. Dəryazlar təyinatına görə oraqlarla eyni əmək aləti olsalar da forma və ölçülərinə görə fərqlənirlər. Dəryazların işçi hissələri oraqlarla müqayisədə daha uzundurlar. Dəryazların işçi hissələri qövsvarı şəkildə formalaşdırılmışdır. Onların yalnız sonluqları kəskin şəkildə daxilə qatlanır.

Oraqlar işçi hissələrinin formalarına görə iki yerə ayrılır. Birinci qrupa qövsvarı formalı oraqlar daxildir. Onlar formaca dəryazları xatırlatsa da həcmcə kiçik ölçülüdürlər. Bölgənin şəhər tipli yaşayış yerləri Kür çayı və dəniz kənarında salındığından bu ərazilər balıqçılıq üçün əlverişli olmuşdu. Bunu aşkar edilmiş qarmaq qalıqları da təsdiqləyir.

Bölgədə aparılmış arxeoloji qazıntılardan müxtəlif ölçülü mıxlar (yerli əhali onları indi də *qadaq* adlandırır) aşkar

edilmişdir. Onların asimmetrik dairəvi, oval formalı papaqları var. Bir qayda olaraq sonluqları iti ucludur.

Qayçıların yalnız kəsər hissələri məlumdur. Kəsər hissələr sonda kənarlardan içəriyə doğru yığılır.

Nalbəndlik. Nalbəndlik orta əsrlərdə formalaşmış ayrıca sənət sahələrindən biri olmuşdur. Nalbəndlik sənətinin sürətlə inkişafının başlıca səbəbləri tez-tez müharibələrin baş verməsi nəticəsində süvari qoşunların ayaqqabılarının dağılmaması və nəqliyyata (ata) olan tələbatın artması olmuşdur.

Nallar formalarına görə də müxtəlif olurdu. İri diametrli nallar atlar üçün hazırlanır, lövhəşəkilli səthində mıx vurmaq üçün bir neçə oyuq açılırdı. Kiçik nallar isə döyüşçü ayaqqabıları üçün nəzərdə tutulurdu. At nalları Azərbaycanın orta əsr şəhərlərinin həmdövr təbəqələrindən də aşkar edilmişdir.

Cənub-şərqi Şirvanın orta əsr yaşayış yerlərindən müxtəlif ölçülü və formalı mıxlar da aşkar edilmişdir. Daha çox təsadüf edilən bu dəmir əşyalardan tikintidə daha çox istifadə olunmuşdur. İri mıxların uzunluğu 12-15 sm, kiçik mıxların uzunluğu isə 3-5 sm olmaqla, baş hissələri dairəvi papaqvari, göbələkvari formalıdır və bir qayda olaraq hamısı uca doğru sivriləşir. Eyni zamanda həm iri, həm də kiçik ölçülü mıxların bir qisminin en kəsiyi dairəvi, digərləri isə dördkünc formalıdır.

Cənub-şərqi Şirvanda aparılmış arxeoloji qazıntılarda cəftə və halqa nümunələrinə də tez-tez rast gəlinir. Formalarına

görə cəftələri iki qrupa bölmək olar. Onların bir hissəsi çubuq formasında düzəldikdən sonra bərabər qatlanaraq bir ucu sivriləşmiş, qatlanan hissə isə qıfil keçirmək üçün halqavarı formaya salınmışdır. Onların digər ucu isə halqa şəklinə salınmış və görünür midvarlarla birlikdə istifadə olunurdu. Cəftələr daha çox qapı, pəncərə, sandıq və mücrülərin bağlanmasında istifadə edilmişdir.

Cəftələrin bəziləri iki, bəziləri isə bir hissədən ibarətdir. Darvaza və qapıların bağlanmasında istifadə edilmiş cəftələrin bir tərəfi hərəkəti təmin etmək üçün nəzərdə tutulmuş, digər tərəfinin üzərində isə qapını bağlamaq məqsədi ilə yarımdairəvi deşik açılmışdır. Cəftə və onun hissələrini adətən ensiz və uzun dəmir lövhələrdən hazırlayırdılar.

Dəmirçilik sənətində olduğu kimi, mis əşyaların istehsal prosesi də mərhələlərlə yerinə yetirilirdi. Mis parçası ilk növbədə isti döymə üsulu ilə döyülür və yastılanırdı. Bu zaman xüsusi kəlbətin və maşalardan istifadə edilirdi. Kürədən götürülmüş mis çəkiclərlə döyülüb əyilir və proses material yastılanana qədər davam etdirilirdi. Sonrakı mərhələdə yastılanmış mis lazımi ölçüdə dəmirkəsənlə kəsilir, yonulub səliqəyə salınır, birləşdirilməsi üçün hər tərəf ayrıca istiqamətdə qatlanırdı. Arxeoloji materiallardan aydın olur ki, mis qabların bəziləri ayrılıqda bir neçə hissədə hazırlanaraq sonradan bir-birinə birləşdirilmiş və qalaylanmışdır. Qabın qatlanmış hissələri bir-birinə keçirilərək qızdırılmış halda (qaynaqetmə) döyülmüş və bərkidilmişdir. Arxeoloji materiallara istinadən orta əsrlərdə peşəkar misgərlərin daha

çox qaynaqetmə üsuluna üstünlük verdiklərini də söyləmək mümkündür.

Tədqiqatçıların fikrincə, qalay üsulundan əlavə, duz və qurğuşundan hazırlanmış qaraqaynaq, sink, bürünc və tənəkardan ibarət “misqaynaq” adlanan digər üsullardan da istifadə olunmuşdur. Qaraqaynaq üsulu ilə lehimləmək üçün calaq yerinə əvvəlcə kömür lehimi sürtülürdü. Açıq calaqlar daxildən və xaricdən, örtülü calaqlar isə ancaq xaricdən lehimlənir və kürədə qızdırılaraq möhkəm yapışdırılırdı (66,45-49).

Misqaynaq üsulunda isə calaq yerləri isladılaraq, üzərinə sink və bürünc ərintisindən ibarət lehim sürtülür, onun da üzərinə bura (tərə) və duz səpib qarışdırırdılar. Qatışığın tərkibi eyni olmalı idi. Birləşdirilən hissələr lehimlənməzdən əvvəl təmizlənir və hazır məhlul calaq yerlərə sürtülürdü. Onu da qeyd etmək lazımdır ki, təcrübəli misgərlər qabları naxışlayarkən daha çox calaq yerlərə fikir verirdilər.

Arxeoloji qazıntılar zamanı aşkar olunan çoxsaylı nümunələr içərisində su qabları, əmək alətləri, daşdan və saxsıdan hazırlanmış qəlib hissələrinə də rast gəlinib. Misdən hazırlanmış zərif qab nümunələri uzun müddət torpaq altında qaldığından yararsız vəziyyətdədirlər.

Qazanlar. Gövdələrinin formalarına görə bu tip qabları iki qrupa ayırmaq olar. Birinci qrupa şarşəkilli qazanlar daxildir. İkinci qrupa isə ellipsvarı qazanlar aiddir.

Mis qapaq. Qapaq konusvari şəkildə hazırlanmışdır. Bu növ məmulatların xarici səthi adətən müxtəlif həndəsi təsvirlərlə bəzədilmişdir. Naxışlama prosesində əsasən cızma, zərif döymə üsulundan istifadə edilmişdir. Qapağın ağzının diametri 20 sm-dir.

Mis cam. Yastı, dairəvi oturacağa malikdir. Daxildən və xaricdən konsentrik xətlərlə bəzədilmişdir. Cam mərkəzi hissədə daxilə doğru batıqdır. Qabın içərisi dayaz, ağzı isə enlidir. Bir neçə yerdən qırılmışdır.

**2.4.3. Şüşə istehsalı.** Şüşə qablar qrafin və dolçaların müxtəlif hissələrindən ibarətdir. Qabların hamısı dairəvi və yastı oturacaqlıdırlar. Onların əksəriyyəti hündür və dar boğazlıdırlar. Gövdələri armudvari formalıdır.

Şüşə qabların bəziləri lüləkli hazırlanırdı. Lüləklər qabın çiyin hissəsinə birləşdirilirdi.

Kiçik ölçülü şüşə qablar nisbətən çox tapılmışdır. Onlardan əczaçılıq və ətriyyat saxlanılmasında istifadə edilirdi.

Bölgədən tapılmış güzgü çox nəfis şəkildə hazırlanmışdır. Dairəvi formalı güzgünün kənarları geriyə qatlandığından daha möhkəmdir. Şüşə bəzəklərin xeyli hissəsini bilərziklər təşkil edir.

Bölgədə aparılmış arxeoloji qazıntılardan az miqdarda şüşə qab nümunələrinin qalıqları da tapılmışdır. Gövdələri armudvari formalı bu qablar əsasən qrafin və dolçaların müxtəlif hissələrindən ibarət olub, hamısı dairəvi və yastı oturacaqlı (tablo 31,şəkil 10), habelə əksəriyyəti hündür və

darboğazlıdırlar (tablo 30, şəkil1 3; tablo 31,şəkil 9). Burada həmçinin butulka formalı qabların boğaz və gövdələrinin bəzi hissələri də aşkar edilmişdir. Belə qabların boğaz hissələri dar və hündür hazırlanmış, ağızlarının kənarları bir qədər xaricə açılmışdır (tablo 30, şəkil 10). Şüşə qabların bəziləri lüləkli hazırlanır və lülələr qabın çiyin hissəsinə birləşdirilirdi.

Şüşə qabların az bir hissəsi onlara aid olan qapaqlardır. Qapaqların tutacaqları onların mərkəzində formalaşdırılmış və dairəvi formalıdırlar (tablo 30,şəkil 4,5).

Cənub-şərqi Şirvanın şüşə məmulatının müəyyən hissəsi bəzək nümunələrinə aiddir. Onlar əsasən müxtəlif formalı bilərziklərdirlər. Bilərziklərin bəziləri sadə (tablo 31,şəkil 1,5,6), bəziləri isə burma formalıdır (tablo 31,şəkil 2-4,7).

Şüşə nümunələrindən biri isə güzgünün kənarının bir hissəsidir (tablo 31,şəkil 8).

Cənub-şərqi Şirvanın orta əsr abidələrindən aşkar olunan şüşə məmulatları Azərbaycanın ayrı-ayrı yaşayış yerlərində aparılan arxeoloji qazıntıların (173,100-101;145,48-50; 91,109-111) və Buxaranın həmdövr (138, 52-57) şüşə məmulatları ilə eyniyyət təşkil edirlər.

### 2.4.4. Digər sənət sahələri və peşə növləri.

Daşişləmə. Daşişləmə sənətinin ən qədim sahələrindən olan daşyonma və daş üzərində oyma işi Azərbaycanda feodalizm dövründə daha çox tərəqqi etmişdir. Ölkənin ərazisində məhəlli xüsusİyyətləri ilə fərqlənən bir sıra memarlıq məktəblərinin əmələ gəlməsi və onların çoxcəhətli

səmərəli fəaliyyəti ənənəvi daşişləmə sənətini daha da zənginləşdirmişdir. Bu cəhətdən Arran, Naxçıvan, Şirvan-Abşeron memarlıq məktəblərinin rolu daha böyük olmuşdur (21,230).

Bölgənin orta əsrlər dövründə uzun müddət Şirvanşahlar dövlətinin tərkibində olması burada Şirvan memarlıq məktəbinin təsirinin daha geniş yayılmasına şərait yaratmışdır.

Ənənəvi daşişləmə sənətinin dekorativ baxımdan zəngin və mükəmməl növünü həkkaklıq təşkil edir, Daşişləmənin kamil üsulu olan oyma texnikası özünün zərif təzahürünü məhz həkkaklıq sahəsində tapmışdır. Hörgü-inşaat texnikasının meydana gəlməsi, yeni məişət və təsərrüfat vasitələrinə tələbatın artması nəticəsində daşişləmə sənətinin bənnalıq, daşyonma, şəbəkəçilik və s. kimi yeni sahələri yaranıb inkişaf etmişdir.

Feodal münasibətlərinin möhkəmlənməsi dövründə varlı zümrələrin nüfuzunun daha da güclənməsi digər sənət sahələri ilə bərabər, daş üzərində dekorativ oyma sənətinin inkişafına da təkan vermişdir. Hakim-feodal təbəqələri əhalinin aşağı zümrələrindən fərqli olaraq, möhtəşəm saray və qəsr tipli əzəmətli binalar tikdirirdilər. Bu binalar zəngin bədii dekora malik, oyma-naqş ünsürləri ilə bəzədilirdi. Bütün bu amillər də daşişləmə üsullarının tətbiq sahələrinin genişlənməsi və texniki cəhətdən daha da təkmilləşməsinə səbəb olurdu.

Məlum olduğu kimi, qədim dövrlərin dəfn adətlərində və qəbir instruksiyalarında daş əsas ölçü idi (68,184-198). Daşlar bəzən qəbrin dibinə döşənir, bəzən isə divarlarına düzülürdü.

İlk orta əsrlərdə Albaniyada daş qutu qəbirlərdə daşdan geniş istifadə olunması, İslam aləmində qəbirlərin üstünün daşla örtülməsi adəti arxeoloji və etnoqrafik tədqiqatlardan məlumdur.

Cənub-şərqi Şirvanın yaşayış yerlərində və qəbir abidələrində aşkar edilmiş istər bəzək və zinət əşyaları, istərsə də dini əhəmiyyətə malik heykəlcik formasında yonulmuş daşların insanı pis ruhlardan, şər qüvvələrdən qoruması məqsədilə hazırlandığı ehtimal edilir. Daşın belə xüsusiyyətlərə malik olması düşüncəsi ibtidai insanın təbii varlıqlara münasibətdə animist baxışı ilə əlaqədar olmuşdur (178,57).

Cənub-şərqi Şirvanın orta əsr şəhər qəbristanlıqlarında məzar daşlarının böyük əksəriyyəti sənduqələrdən ibarətdir. Onların üzərindəki təsvir və yazılar isə orta əsr xəttatlığının yüksək səviyyəsindən xəbər verir. Belə ki, daş ustalarının böyük əksəriyyəti həm də həkkaklıqla məşğul olurdu(tablo 41; tablo 42, şəkil 2).

Bu sənət sahəsində müxtəlif alətlərdən - gödək dəstəli həkkak çəkici, düz və çəp ağızlı isgənələrdən, zeh mişarı, pərgar, ülgü, həkkak qələmi, kömür və hisqaradan istifadə olunurdu.

Müxtəlif xətt üslublarından istifadə edən orta əsr həkkakları çox vaxt kitabənin boşluqlarını həndəsi və nəbati səciyyəli ornament nümunələrindən ibarət kompozisiya ünsürləri ilə tamamlayıb bəzədiklərindən, eyni zamanda nəqqaş vəzifəsini də görürdülər (95, s 65; tablo 13,şəkil 8,9; tablo 41,şəkil 4).

Ümumiyyətlə, daşişləmə sənətində iş prosesi xammalın, yəni, daşın əldə olunmasından başlanırdı. Xammal ehtiyatları, əsasən Kürsəngi və Mişovdağdan gətirilirdi. Daşın çıxarılması müəyyən istehsalat təcrübəsi və bacarıq tələb edirdi. Daş ustaları əvvəlcə salı (-iri daşları) kəsir, sonra isə doğrayırdılar. Məmulatın hazırlanmasına isə bilavasitə yonma əməliyyatı ilə başlanırdı. Daşı kəsən usta *"daşkəsən"* adlanırdı.

Tətbiq sahəsindən asılı olaraq daşyonma sənətində tarixən ixtisaslaşma getdiyindən tikinti daşının yonulması ilə bənnalar məşğul olurdular. Onlar hörgü daşı, bəzək, sütun və s. olmaqla müxtəlif forma və ölçülü tikinti materialını yonub hazır vəziyyətə gətirirdilər.

Təsərrüfat və məişət əşyalarının həvəng, oxur, kirkirə, dəyirman daşı və s. hazırlanması ilə isə xüsusi ustalar məşğul olurdular. Xatirə abidələrinin bir qismini həkkaklar, müəyyən hissəsini isə daşyonan ustalar hazırlayırdılar (22, 135).

Onu da qeyd edək ki, xatirə abidələri təkcə məzar daşlarından ibarət olmayıb, xeyrat bulaqları üçün lazım olan məmulatı - hovuz və novçaları da əhatə edirdi. Bölgənin daş məmulatları içərisində daşyonmanın bütün üsullarını özündə əks etdirən maddi mədəniyyət qalıqları da aşkar edilmişdir.

Daşyonma üsulları. Daş məmulatının növündən asılı olaraq müxtəlif üsullarla (qaraçapma, cümməçapma, dişəmə və cilalanma) yonulub hazırlanırdı. Qaraçapma üsulu istər tikinti, istərsə də məzar daşlarının hazırlanmasında tətbiq edilirdi. Bu zaman daş balta ilə bir dəfə kobud şəkildə yonulurdu.

Mişovdağ yaşayış yerindən aşkar edilmiş ev qalıqları kvadrat formalı 25 x 25 x 5 sm bişmiş kərpiclərdən inşa edilmiş, ön hissəsi isə yonulmuş daşlarla hörülmüşdür. Həmin daşlar kvadrat və düzbucaqlı formalıdırlar.

Adətən, divarın zahiri üzünün yaraşıqlı olması üçün qaraçapma və cümməçapma üsulu ilə işlənmiş daşın bir üzü təvərdişək vasitəsilə dişənib daha da hamar şəkilə salınırdı. Məscid, hamam, karvansara, türbə və digər ictimai tikintilərin divarlarının bayır üzü bu üsulla hazırlanmış «dişək daşı» ilə hörülürdü. Geniş həyətlər isə düzbucaqlı və kvadrat formalı qaraçapma və cümməçapma üsulu ilə yonulmuş daşlarla döşənirdi.

Mişovdağ yaşayış yerindən tapılmış bir ədəd daş əmək aləti xüsusilə diqqəti cəlb edir. Alətin daxili ağız hissədən nisbətən gen, oturacağa doğru getdikcə daralan formada konusvari hazırlanmış, səthi müəyyən qədər dişənərək hamar vəziyyətə salınmışdır. Çox güman ki, həmin alətdən duz əzmək və digər ədviyyat məhsulları hazırlamaq üçün istifadə edilmişdir. Belə ki, oxşar alətlər son dövrlərə qədər Azərbaycan ərazisində, xüsusilə Şirvan bölgəsində istifadə edilmişdir. Bu tipli həvəngin oxşar nümunələri Şamaxı qazıntılarından da tapılmışdır (31, 35-38).

XIII əsr təbəqəsindən ictimai binanın yaxınlığından en kəsiyi dairəvi formada olan simmetrik formada daşdan hazırlanmış diyircək aşkar edilmişdir. Həmin daşın səthi yonulmuş, sonra isə müəyyən qədər dişənərək hamar formaya salınmışdır. Daşın hər iki başında 10 sm uzunluğunda xüsusi çıxıntılar vardır. Etnoqrafik məlumatlardan aydın olur ki,

daşdan evləri yağışdan qorumaq məqsədilə damüstü torpağın bərkidilməsi üçün istifadə edilmişdir. Onun hər iki qulaqcığına ip keçirib fırlatmaqla görülən iş asanlaşırdı. Son dövrələrə qədər Şirvanın dağlıq yerlərində bu daşların daha təkmilləşmiş formalarından istifadə edilmişdir. Həmin daşlar da slindrik formada olub ortasından birbaşa deşik açılmışdır. Oyuğa xüsusi ox keçirilərək onun hər iki başına ip bağlanırdı ki, bu da daşın daha asan fırlanmasını təmin edirdi.

Sözügedən daşlar istifadə sahəsindən asılı olaraq iki formada, dairəvi və donqarlı hazırlanırdı və belə tapıntılar Şabran qazıntılarından da məlumdur (183, 19,tablo33,şəkil 2-3,5-6).

Məzar daşlarının hazırlanmasına da xüsusi fikir verilirdi. Belə daşların əksəriyyəti sənduqələrdən ibarətdir və böyük bir qismi düzbucaqlı formaya malikdir. Bununla belə, assimmetrik düzbucaqlı formalı sənduqələr də az deyil (tablo 42). Bir çox qəbirlərdə başdaşları kifayət qədər yaxşı qorunub saxlanmışdır. Onların üzərində mərhumun peşə və sənətini əks etdirən bir sıra məişət və təsərrüfat əşyaları, silah və nəqliyyat vasitələrinin (gülabdan, qılınc, xəncər, başmaq, yəhərlənmiş at və s.) təsvirlərinə rast gəlmək olur (tablo 38, şəkil 2).

Sənduqənin yanlarında mərhumun xatirəsinə həsr olunmuş ibratamiz beytlər, bayatılar və hikmətli sözlərdən ibarət nümunələr, Qurandan ayələr və abidənin kimdən yadigar olduğunu bildirən ifadələr həkk edilirdi (tablo 42, şəkil 2).

Qəbirlər üzərindəki həm sinə daşları, həm də baş daşları bəzədilmiş və hər iki üzü dişənərək hamar vəziyyətə

salınmışdır. Daşların birinin üzərində oyma və qabarıq naxışlarla müxtəlif həndəsi və nəbati təsvirlər həkk edilmişdir. Onun ortasındakı haşiyəyə medalyon formalı təsvir verilərək, ətrafı və içərisi güllərlə bəzədilmişdir. Səthində nisbətən düzbucaqlı formada yonulmuş və oyma üsulu ilə iki böyük, ortada isə kiçik ölçüdə gül formalı naxış, çox güman ki, günəşə oxşar təsvir verilmişdir (tablo 41,şəkil 4). Belə səkkizləçəkli təsvirli qəbir daşı Bakıda Qız qalası yaxınlığındakı abidədən tapılan məzar daşlarının içərisində də vardır. Sənduqənin hazırlandığı daşın materialı kövrək olması səbəbindən istehsal prosesində onun baş və içəri hissələri sınmış və iş yarımçıq qalmışdır. Daşın hər iki kənarındakı haşiyənin içərisində isə mərhumun xatirəsinə aid ərəb əlifbası ilə yazılar həkk olunmuşdur.

Eyni formalı qəbir daşı Bakıdakı Qız qalası yaxınlığındakı məzarlıqdan (68,184-198) və Şamaxı rayonunun Kələxana kəndindəki «Yeddi günbəz» məqbərəsindən də məlumdur (117, 2-3).

Qəbir daşlarının əksəriyyəti əhəngdaşından hazırlanmışdır. Belə ki, müxtəlif naxış və yazıları həkk etmək üçün bu növ daşlar daha əlverişli idi. Bölgədə qəbir daşlarının yüksək sənətkarlıq texnikası əsasında hazırlanmasına şərait yaradan amillərdən biri də budur.

Azərbaycanın XI-XIV əsr kitabələrinin yazılmasında daha çox kufi xətdən istifadə olmuşdur. Sonrakı yüzilliklərdə-xüsusilə, XIV-XVII əsrlərdə daş kitabələrin üzəri nəsh və süls, bəzən də nəstəliq xətti ilə işlənmişdirsə, XVIIl-XIX əsr abidələrinin kitabələri bir qayda olaraq nəstəliq üslubundadır.

Ümumiyyətlə, qeyd etdiyimiz məzar daşları əsasən, nəbati naxışlı, mərhumun ölümünə təəssüf bildirən yazı və məişət əşyaları təsviri olan abidələrdən ibarətdir.

Bölgədə aparılmış arxeoloji qazıntılar zamanı bir neçə ədəd kirkirə daşları da tapılmışdır. Daşlar iki hissədən, alt və üst hissədən ibarət olub, yaxşı və dairəvi formalıdır. Bərk və məsaməli daşlardan düzəldilmiş bu məişət əşyasının mərkəzi hissəsində xüsusi ox keçirmək, üst hissəsində isə həm ox, həm də tutacağın bərkidilməsi üçün oyuqlar açılmışdır. Daşın ox keçən hissəsindəki oyuq dən tökmək üçündürsə, ikincisi isə daşı fırlatmaq məqsədi daşıyırdı. Səthi hamar şəklə salınmaq məqsədilə dişəmə əməliyyatından sonra daş törpü və ya yeyə vasitəsi ilə cilalanırdı.

Dənin yaxşı üyüdülməsi üçün adətən kirkirənin üst hissəsi daha ağır hazırlanırdı. Bu cür daş nümunələri demək olar ki, Azərbaycanda bütün orta əsr şəhərlərindən əldə edilmişdir. Mingəçevirdən, Bərdədən, Gəncədən, Şətəldən və Beyləqandan tapılmış kirkirə daşları öz ölçülərinə və formasına görə demək olar ki, eynidirlər (105, 36).

Əl dəyirmanları dənin üyüdülməsində ən əlverişli və səmərəli alətlərdən biri olub, bölgə əhalisinin məişətində uzun müddət qala bilmişdir. Qazıntılar zamanı kirkirə daşlarının müxtəlif qazıntı təbəqələrindən tapılması da bunu sübut edir.

Etnoqrafik müşahidələr kirkirədən Azərbaycanın bəzi dağ kəndlərində yarma çəkmək üçün bu gün də istifadə edilməkdədir.

Kirkirə daşlarından hər bir şəraitdə istifadə edilməsi asandır. İndiyə qədər kirkirə daşlarından (bəzən buna yarma daşları da deyilir) Azərbaycanın rayon və kəndlərində yarma çəkmək üçün istifadə edilir. Mingəçevirdən əldə edilmiş kirkirələrin təsvirini son zamanlara qədər Azərbaycanda işlədilən əl dəyirmanlarına da aid etmək olar. Əl dəyirmanının yaranması, məhz sonrakı dövrdə meydana gəlmiş və mexaniki qüvvə ilə işləyən su, yel dəyirmanlarının kəşfi üçün bir başlanğıc olmuşdur (tablo 46).

Cənub-şərqi Şirvan ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində kürəşəkilli daşlar da aşkar edilmiş və bu növ daşlardan bəzilərinin səthi şüavari -oyma naxışlarla bəzədilmişdir (tablo 33, şəkil 2,3).

Şirvan şəhərindən aşkar edilmiş düzbucaqlı formaya malik daşın bir tərəfində oyuq vardır. Etnoqrafik materiallardan məlumdur ki, belə daşlara heyvanlar bağlanırmış. Səthi sadə həndəsi xətlərlə bəzədilmiş bu cür daşlar çox güman ki, təndir, yaxud quyu qapaqları funksiyasını da yerinə yetirmişdir (tablo 33, şəkil 4).

Cənub-şərqi Şirvanın dəniz kənarında yerləşən, Muğan, I Bəndovan və II Bəndovan şəhər yerlərindən, onların su basmış ərazilərindən aşkar edilən düzbucaqlı daş yakrların çəkisi ağır olurdu. Onların üzərində kəndir bağlanması üçün hər iki tərəfdən deşiklər aşılmışdır. Bəzilərində deşiklərin sayı bir olan.yakrları arxeoloq V. Kvaçidze aşkar etmiş, onların forma və istifadə edilmə qaydalarını bərpa etmişdir (tablo 35; tablo 36).

Bölgədən aşkar edilmiş maddi mədəniyyət qalıqları burada daşişləmə sənətinin şəhər əhalisinin təsərrüfat və inşaat sahəsində geniş yer tutmuşdur. Daşişləmə sənətinin müxtəlif sahələrinə aid məmulatlar, yarımfabrikat məhsulların qalıqları IX-XV əsrlərdə Şirvan daş ustalarının xüsusi daş emalatxanalarında çalışdıqlarını sübut etməklə, ustaların bu sənətin bütün incəliklərinə bələd olması, Şirvan-Abşeron memarlıq məktəbinin digər ərazilərə təsiri barədə zəngin məlumat verir.

Ərazidə aparılan arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, bölgədə daşişləmə və digər sənət sahələri də özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Lakin, daşişləmə sənəti haqqında məlumatlar kifayət qədər azdır. Q.M. Əhmədov (48,36), H.Ciddi və Ö.Ş.İsmizadə (68,184-198), A. M. Məmmədovun (83,112-121) əsərlərində bu məsələyə müəyyən qədər toxunulsa da, problem lazımınca öyrənilməmiş qalır. Bu baxımdan etnoqrafik tədqiqatların nəticələri mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda daşişləmə sənətinin tarixi kökləri qədim insanın təşəkkül tapdığı lap qədim dövrlərə aiddir. Ümumiyyətlə, daş ibtidai insanın həyatında çox mühüm rol oynamış və vacib ov, istehsal və məişət vasitəsi kimi çıxış etmişdir. Məlum olduğu kimi, Orta Paleolit dövründə insanlar iki çaxmaq daşını bir-birinə sürtməklə od əldə etməyi öyrənmiş, daşdan əmək aləti və silah kimi istifadə etmişlər. Daş məmulatının istehsal texnikasının təkmilləşməsi təbii olaraq, xüsusi peşə sahəsinin yaranmasına və tədricən onun ev sənəti halında formalaşmasına səbəb olmuşdur.

İlk əmək alətləri qəlpələmə texnikası əsasında zərbə üsulu ilə çaxmaq daşından hazırlanmış çapacaq tipli kobud çapma alətlərindən (tablo 33,şəkil 8), dişəkləmə və gəzləmə üsulu ilə düzəldilmiş qaşov, isgənə, biz və bıçaqlardan ibarət olmuşdur.

Daşişləmə sənətinin ən qədim sahələrindən biri daş üzərində oyma işi olmuşdur. Qobustan qaya təsvirlərində daş üzərində oyma sənətinin nadir nümunələri öz əksini tapmışdır. Qobustan daş ustaları oyma və cızma texnikalarından məharətlə istifadə etmişlər. Qobustanda (118) aparılan arxeoloji tədqiqatlar sübut edir ki, insanları soyuqdan, vəhşi heyvanlardan qoruyan, ilk məişət qabları rolunu oynayan qablar eyni zamanda ibtidai insanların ən müqəddəs və əlçatmaz arzularının, düşüncələrinin inkas obyekti olmuşdur. Sonralar məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar olaraq daş insanların mədəni məişət həyatında böyük rol oynamağa başlayır. Tikinti işlərinin genişlənməsi ilə əlaqədar olaraq daşişləmə sənətinin tətbiqi istiqamətləri də genişlənir. Daşdan məişət əşyaları hazırlanmasında, yaşayış və müdafiə istehkamları inşasında geniş istifadə edilməyə başlanır (89;179;200).

Dekorativ tətbiqi sənətdə əsas yer tutan daş üzərində oyma üsulu xüsusilə xatirə (məzar) abidələrinin hazırlanmasında daha çox tətbiq olunmuşdur.

Sümükişləmə. Arxeoloji qazıntılar zamanı sümük çıxarları və sümükdən hazırlanmış maddi mədəniyyət nümunələrinin qalıqları aşkar edilmişdir. Sümük nümunələrinin böyük əksəriyyətinin maral, habelə ev heyvanlarının buynuz, bud və lülə sümüklərindən hazırlandığı və müxtəlif növ

məmulat istehsalı üçün tədarük edilmiş materiallardan ibarət olduğu təsdiqlənmişdir. Digər qisim sümüklər isə istehsal prosesi zamanı kəsilib atılmış hissələrdən ibarətdir.

Bu sənət sahəsi ilə məşğul olan sənətkarlar kəsmə, yonma, cilalama və s. üsullardan istifadə etməklə müxtəlif tip sümük məmulatı istehsal etmişlər. Məmulatın hazırlanmasında əsasən bud, lülə və buynuzlardan istifadə olunmuşdur. Həmin hissələr kəsilərək müəyyən formaya salındıqdan sonra şüyrələnib cilalanmışdır.

Sümükişləmə sənətindən xəbər verən maddi dəlillər Şamaxı şəhərinin arxeoloji qazıntılarından da məlumdur. Buradan da xeyli miqdarda istehsal məqsədi ilə kəsilmiş, mişarlanmış və emal edilmiş müxtəlif heyvan sümüklərinə təsadüf edilmişdir (161, 73-76).

Bölgədən tapılmış sümük məmulatını təyinatına görə əmək alətlərinə, məişət və bəzək əşyalarına ayıraraq təsnif etmək olar. Əmək alətləri əsasən heyvanların buynuzları və kürək sümüklərindən hazırlanmışdır.

Aşkar edilmiş sümük əşyaları içərisində kəsici alətlərə məxsus dəstəklər çoxluq təşkil edir. Onlar əsasən bıçaq, xəncər, dəhrə və s. üçün nəzərdə tutulmuş dəstəklərdən ibarət olmaqla müxtəlifliyi ilə fərqlənir. Onların səthi sadə olub yaxşı cilalanmışdır. Lülə sümüyündən hazırlanmış dəstəklərin üzərində iki yerdən deşik açılmışdır. Həmin deşiklərin birində paslı dəmir qalığı aşkar edilmişdir. Alt və üst hissələrdən ibarət sümük dəstəyin üst hissəsi sadə həndəsi xətlərlə bəzədilmişdir.

Dəstəyin nisbətən iri kəsici alətə məxsus olduğunu ehtimal etmək olar.

Digər dəstəklərin alt və üst hissələri yaxşı hamarlanmışdır. Hər iki tərəfin üzərində iki deşik açılmışdır. Buynuz sümüyündən hazırlanmış bu dəstəklərin səthi sadə cızma xətlərlə bəzədilmişdir. Bu cür nümunələrə Şimali Türkmənistanın Daraqan-Atinski rayonunun Çardcou vilayətində aparılan arxeoloji qazıntılar zamanı da rast gəlinmişdir (175,112).

Bəzi bıçaq dəstəklərinin baş tərəfləri dairəvi formada hazırlanmışdır. Digərlərində olduğu kimi dəstəklərin üzərində də iki ədəd deşik açılmışdır. Yan tərəfləri qoşa cızma xətlərlə bəzədilmişdir.

Xəncər və qılınc dəstəkləri bıçaq dəstəkləri ilə müqayisədə nisbətən fərqli olurdu. Belə dəstəklər nisbətən uzun və enli olurdu. Bir çox hallarda dəstəklərin hər iki tərəfi yarımdairəvi sonluqla qurtarır. Xəncər və qılınc dəstəklərinin hazırlanmasında buynuz sümüklərindən daha çox istifadə edilirdi.

Sümükişləmə sənəti nümunələrinin bir hissəsini bəzəklər təşkil edir. Onların içərisində yaxa bəzəyi kimi istifadə edilmiş qarnıyarıq (-kauri) çox zərif hazırlanmışdır. Nisbətən çoxluq təşkil edən düymələr dairəvi, göbələkvari formalı, çəhrayı rəngli olmaqla, ortası deşiklidir. Onlar cilalandıqdan sonra üst hissəsi qabarıq kəsilməklə oxra ilə boyanmış, alt hissələri isə düz kəsilmişdir. Belə düymələrin diametri 2-4 sm-dir və

Azərbaycanın digər orta əsr yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı da aşkar edilmişdir (tablo 47).

Daraqlar sıx və geniş dişli olurdu. Onların əksəriyyəti ikitərəfli formadadır. Belə daraqların bir tərəfində iri, digər tərəfində sıx dişlər olurdu. Daraqlardan saçların daranmasında istifadə edilirdi.

Aşkar edilən maddi mədəniyyət nümunələrinin formalarına görə, demək olar ki, sənətkarlar onları müxtəlif üsullar və mərhələlər üzrə hazırlamışlar. Birinci mərhələdə xammal toplanmışdır. Xammal əsasən ov və ev heyvanlarının buynuz, qabırğa və bud sümüklərindən ibarət olurdu. Sümüklər təmizləndikdən sonra kül və ya turşu məhlulunda bir neçə dəfə yuyulduqdan sonra ustalar kəsmə, çapma üsullarından istifadə etməklə onu müəyyən formaya salmışlar ki, bu mərhələ də qabın formalaşdırılması mərhələsini təşkil etmişdir.

Məmulat tam formalaşdırıldıqdan sonra istifadə üçün yararlı hala salınırdı. Məsələn, düymələri hamarlayıb, daha sonra paltara tikmək üçün bir neçə yerdən deşirdilər.

Sonrakı mərhələdə isə hazır əşyanın üzərinə bəzək vurulurdu. Bu zaman, əsasən cızma, deşmə, kərtmə və s. bu kimi üsullardan istifadə olunurdu ki, onu da sümükişləmə sənətkarlığında dekorativ bəzək mərhələsi adlandırırlar. Dekorativ mərhələ başa çatdıqdan sonra əşyaların üzərini müxtəlif rənglərlə boyayırdılar. Parlaqlığına görə rəngləmə prosesində daha çox oxradan istifadə edilirdi.

Sümük nümunələrinin böyük əksəriyyətinin maral buynuzundan, ev heyvanlarının bud, lülə sümüklərindən hazırlandığı və müxtəlif növ məmulat istehsalı üçün tədarük edilmiş materiallardan ibarət olduğu təsdiqlənmişdir. Digər qisim sümüklər isə istehsal prosesi zamanı kəsilib atılmış hissələrdən ibarətdir.

Zərgərlik. Metalişləmədə zərgərlik sənətinin də özünəməxsus yeri var. Cənub-Şərqi Şirvan bölgəsində arxeoloji qazıntılarında mis, gümüş və qiymətli daşlardan hazırlanmış xeyli zərgərlik nümunələri tapılmışdır.

Bölgənin ənənəvi qadın-bəzək nümunələri təyinatına və istifadəsinə görə baş, boyun-boğaz, sinə-yaxa, bel, bilək-barmaq və libasa bənd edilən bəzək-zinət əşyalarından ibarətdirlər. Onlar müxtəlif materiallardan-metaldan, şüşədən, sümükdən yüksək səviyyədə hazırlanmış nümunələrdir.

Nümunələri, uzun illər Azərbaycanda müxtəlif növ materiallardan hazırlanan qadın geyim bəzəklərinin tədqiqatçısı B.Ə.Rəcəbovaya istinadən aşağıdakı qayda üzrə qruplaşdıra bilərik (116;117).

Baş bəzəkləri. Cənub-şərqi Şirvandan aşkarlanmış baş bəzəklərindən olan sırğa və sancaqlar tapıntılar içərisində azlıq təşkil edir. Onlar ciddi şəkildə korroziyaya uğradıqlarından, formalarını müəyyənləşdirmək demək olar ki, mümkün deyil.

Sırğaların qulağa keçirilən hissəsi nazik mis məftildən olurdu. Ona digər bir kiçik halqa lehimlənir və halqanın gövdəsi kürə formasında tamamlanırdı. Digər sırğa nümunələri

halqa və kürələrə aid hissələrdir. Onların diametri 9 mm-dir. Qala -Orta əsr şəhər yerinin VI qazıntı sahəsindən aşkar edilmiş baş bəzəkləri XI-XII əsrlərə aid edilir. Sırğa nümunəsindən bir ədədi XIII əsrə aid olub sual işarəsi, XV əsrə aid olanı isə buynuz formasındadır.

Boyun, döş və yaxa bəzəkləri. Bu növ bəzəklər əsasən medalyonlardan ibarətdir. Medalyonlar misdən hazırlanmış, dairəvi və oval formalıdırlar. Onlar nazik mis təbəqədən sadə üsulla hazırlanmışdır. Ürək formasında olan digər bir medalyonun yanlarından səliqə ilə deşiklər açılmış, orta hissədə qönçə-gül və sünbül təsvirləri işlənmişdir. Təsvirlər yapma üsulundan istifadə etməklə yerinə yetirilmişdir. Medalyonların hazırlanmasında döymə üsulundan da istifadə olunmuşdur.

Xalq arasında "qan muncuğu" kimi tanınan "əqiq" muncuqlar formalarına görə müxtəlifdirlər. Onlardan iki ədədi kürə formalı, üç ədədi isə ellips formalıdır. Muncuqlardan birinin oyuq yerinə keçirilmiş mis parçası qalmaqdadır. Nümunələrin oxşarları Şamaxı, Şabran, Qırxçıraq və Mingəçevir abidələrindən də aşkar edilmişdir (115,80-83;116,61-63;145,48-50).

Digər bir muncuq gildən hazırlanıb. Nümunənin bir üzü batıq nöqtələrlə, digər tərəfi isə dairənin içərisində qazma üsulu ilə zoomorf təsviri kimi işlənib. Ondan möhür kimi istifadə olunduğunu ehtimal etmək olar.

Başqa bir muncuq isə tünd göy rəngdə olub, üzəri bir-birinə çarpaz formada olan yaşıl rənglə işlənmişdir. Çarpaz

xətlərin arasına müxtəlif rənglərdən istifadə edilməklə dairələr çəkilmişdir. Nümunələr kvadrat və kürə formalı olub, gildən, şüşədən və pastadan hazırlanmışdır. Onlar ağımtıl, göyümtül və yaşıl rəngdədirlər (tablo 48,şəkil 3).

Bir tərəfi nazik olan sümük sancağın baş tərəfi qoşa dairələr içərisində çərtmə xətlərlə bəzədilib. Ehtimal ki, dairəvi formada olan baş tərəfi sınıb. Nümunənin uzunluğu 14 sm-dir.

Uzunluğu 15 sm olan sancaq nümunəsi misdən olub iti ucludur və baş tərəfi kürə formalıdır.

Yaylı mis sancaq nümunəsinin hər iki kənarı diş-diş formasında işlənilib. Nümunənin uzunluğu 6 sm, eni isə 1 sm, yayının uzunluğu qalan hissədə 5 sm-dir (tablo 48, şəkil 2).

Bilək və barmaq bəzəkləri. Bu cür zərgərlik məmulatları içərisində bilərziklər xüsusi yer tutur. Bilərziklərin əsas hissəsini şüşədən hazırlanmış nümunələr təşkil edir. Bu da orta əsrlərdə şüşə bilərziklərin yalnız şəhər əhalisinin deyil, eyni zamanda kənd əhalisinin də daha çox istifadə etdiyi bəzək əşyası olduğunu təsdiq edir. Şüşə bilərziklərin kütləvi şəkildə istehsalı onun digər bəzək məmulatına nisbətən asan üsulla hazırlanması və nisbətən ucuz başa gəlməsidir. Şüşə bilərzik nümunələri açıq göyümtül və tutqun qara rənglidir (tablo 48, şəkil 1,2). Onların hazırlanmasında sərbəst üfürmə, qəlibdə üfürmə, tökmə, dartma, burma, qatlama və s. müxtəlif texniki üsullardan istifadə olunmuşdur. Bilərzik nümunələrinin əksəriyyəti qarşı-qarşıya ilan başı formasında hazırlanıb. Azərbaycanın demək olar ki, bütün orta əsr abidələri üçün xarakterikdir.

Şüşə bilərziklər sadə və  ya burma formada hazırlanır. Onlar göy və qara şüşədən olanlardırlar (tablo 31, şəkil1 7).

Mis bilərziklərdən bir ədədi dairəvi olub,diametri 5 sm-dir; digəri isə en kəsiyi zoomorf formada tamamlanan nümunədir.Bu tip bilərzikləri hazırlamaq məqsədi ilə mis məftil bükülərək boru formasına salınır, sonra isə döyülərək ona istənilən görkəm verilirdi. Sonrakı mərhələdə hazırlanacaq nümunənin ölçüsünə uyğun kəsilmiş mis məftilin uclarını tədricən əyərək üst-üstə qoyub döymə üsulu ilə bərkitdikdən sonra lehimləyirdilər. Hazırlanmış borucuqları qum ilə doldurub qızdırdıqdan sonra tədricən əyərək bilərzik formasına salırdılar. Onların əksəriyyətinin diametri-5.5 sm-dir.

Digər bilərzik nümunələr XII-XIII əsrlərə aid olub, iki ədəddir. Nümunələrdən birinin diametri 5 sm, ikincisinin diametri 6 sm-dir. Hər iki nümunənin en kəsiyi zoomorf formada tamamlanıb. Kiçik bilərziyin bir ucu qırılıb, qaşı lehim etmək üsulu ilə hazırlanıb. İkinci nümunənin qaşı qaynaq və lehim etmə üsulu ilə yerinə yetirilib. 1 sm ölçülü düzbucaqlı qaşın üstündə ərəb əlifbası ilə ”əmələ”-işi sözü yazılıb. Lakin sifariş verənin və ya ustanın adı oxunmur. Bilərzik hissəsində isə şəbəkə bəzək işlənib. En kəsiyi qarşı-qarşıya dayanan “qurd ” başı formasında tamamlanıb. Eni 1 sm olan hər iki nümunənin içəri tərəfi düz, xarici tərəfi isə qabarıq (qabırğa) formalıdır (tablo 48,şəkil 2).

Barmaq bəzəkləri olan üzüklərdən biri halqa formasında,digəri isə kənarları kəsikformalı, yastıqaşlı üzükdür. Üçüncü, nümunə isə ağımtıl rəngli qaşlı üzükdür.

Üzüyün dairəvi qaşı onun nazik, ensiz mis halqasına qaynaq edilib (tablo 48, şəkil 1).

Geyim bəzəkləri. Qazıntıdan az da olsa müxtəlif geyim bəzəkləri-kəmər hissələri, toqqa bağı aşkar edilmişdir.

Bu nümunələr əsasən mis və gümüşdən hazırlanırdı. Materiallar içərisində misdən olan nümunələrə daha tez-tez təsadüf olunur. Orta əsrlərdə kəmərlər ayrı-ayrı hissələrdən ibarət hazırlandıqdan sonra qaynaq üsulu ilə birləşdirilirdi. Qaynaq ediləcək hissələr qatlanılır, bir-birinə geydirilir və isti kürədə qızdırıldıqdan sonra zərif döymə üsulu ilə iş başa çatdırılırdı. Nümunələrin yerli istehsal olduğu heç də şübhə yaratmır.

Məlumat üçün onu da bildirək ki, orta əsrlərdə yerli ustaların hazırladıqları toqqa və kəmər nümunələrindən biri Qırxçıraqdan, onların oxşarları isə 2009-cu ildə Qəbələ Qala orta əsr şəhər yerindən aşkar edilmişdir və toxunma formalıdırlar. Üç hissədən ibarət olan kəmərin uzunluğu 15 sm-dir. Bağlamaq məqsədi ilə ona bir kiçik halqa keçirdikdən sonra ucu qatlanaraq lehimlənib. Qatlanan hissə kürə formalı muncuğun içərisinə yerləşdirilib.

Arxeoloji qazıntılar zamanı aşkar edilən bəzək nümunələrinin bir qismi üst geyimlərində istifadə olunan düymələrdir. Düymələrdən iki ədədi misdən hazırlanıb. Nümunələrdən biri nisbətən iri (diametri 2.3 sm.), digəri isə kiçikdir (diametri 1.2 sm-dir). Diametri nisbətən iri və dairəvi formalı düymənin üst tərəfinin mərkəzi sxematik təsvirlərlə, çevrəsi boyunca isə şaquli xətlərlə bəzədilib. Nümunənin

paltarın üstünə tikilən tərəfi yastı və hamar olub, dörd ədəd düyməciyi var. Digər düymə nümunəsi kiçik, göbələkvarı və sadədir.

Düymə nümunələrinin böyük əksəriyyəti sümükdən olanlardır. Ümumiyyətlə, sümük düymələr arxeoloji qazıntılardan daha çox aşkar edilir. Nümunələr kürəvarı, dairəvi formada düzəldilmiş, parıldayana qədər cilalanmışdır. Düymələrdən biri bikonik formalı olub, diametri 5 sm, mərkəzində olan oyuğunun diametri isə 1.5 sm-dir. Düymənin yan hissəsi boyunca dairəciklər həkk edilmişdir. Digər düymənin diametri 4 sm, mərkəzdə olan oyuğunun diametri isə 1.3 sm-dir. Düymənin mərkəzi 6 ədəd kiçik dairəciklərdən ibarət oyma naxışlarla bəzədilmişdir. Cızılmış dairənin kənarı da düymənin çevrəsi boyunca eyni üsulla iºlənilmiºdir. Düymələrin paltara tikilən tərəfi yastı və hamardır.

Onlardan birinin diametri 2 sm-dir. Əvvəlki nümunələrdən fərqi rənginin tünd çəhrayı və üstündə işlənmiş oyuqların nisbətən kiçik olmasındadır.

Düymələrdən birinin üzəri qoşa çəkilmiş şaquli xətlər arasında dairəvi xətlərlə bəzədilib. Bəzək cızma üsulu ilə həkk edilib(tablo 47).

Sümük nümunələrinin tez xarab olmaması məqsədi ilə məmulat hazırlandıqdan sonra üzərinə oxra çəkilirdi.

Qala arxeoloji qazıntılarından aşkar olunan nümunələrin uc tərəfi nazik,  baş tərəfi isə qoşa dairələr içərisində çərtmə

xətlərlə bəzədilib. Uzunluğu 14 sm olan nümunənin dairəvi formada olan baş tərəfi qırılıb.

Digər sancaq nümunəsi misdən olub, uzunluğu 15 sm-dir. İtiucludur və baş tərəfi kürə formalıdır.

Arxeoloji materiallar, etnoqrafik məlumatlar və yazılı mənbələrdən də göründüyü kimi IX-XVII əsrlərdə Azərbaycanda mövcud olan sənətkarlığın sahələri inkişaf edib. Mövcud dəmirçilik sənətindən nalbəndlik, silahsızlıq və çilingərlik yaranmışdırsa, misgərlikdən-qalayçılıq, gönişləmədən-başmaqçılıq, çəkməçilik, dərzilikdən-palançılıq, papaqçılıq, toxuculuqdan- boyaqcılıq peşələri ayrılmış və ayrılıqda fəaliyyət göstərmişdir. Daşişləmə, ağacişləmə və s. sənət sahələrindən də yeni sahələr-bənna, memar, nəqqaş, dülgər və s. mövcud olmuşdur. Mövcud sənətlərdən yeni sənət sahələrinin yaranması ixtisaslaşmış ustaların artmasına və yeni yaranmaqda olan istehsal sexlərinin birgə fəaliyyət göstərməsinə imkanlar yaradırdı. Beləliklə, IX-XIII əsrlərdə mövcud olan sənət sahələri XIV-XVII əsrlərdə daha da inkişaf etmişdir.

# III FƏSİL.

# ŞİRVANIN İQTİSADİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRİ

Cənub-şərqi Şirvanın iqtisadi və mədəni əlaqələrinin inkişafında bir çox amillər olmuşdur. Yəni, ərazinin coğrafi mövqeyi, dağlıq, dağ ətəyi və düzənlik sahədə yerləşməsi, boyük liman şəhəri ilə Kür çayının qovşağında olması, torpağının münbitliyi və bunlardan yaranan sənətkarlıq sahələrinin inkişafı, nəhayət İpək-karvan yolunun üzərində bərqərar olması idi.

**3.1. İqtisadi əlaqələr.** Cənub-şərqi Şirvanın iqtisadi əlaqələrinin inkişafında kəndlə şəhər arasındakı qarşılıqlı əlaqələr mühüm yer tutur. Belə ki, kəndli şəhəri yetişdirdiyi məhsul və xammal ehtiyatları ilə mütəmadi təmin edirdisə, şəhər də öz növbəsində kəndləri müxtəlif növ əmək alətləri, sənətkarlıq məhsulları və müxtəlif çeşidli ərzaqla təmin edirdi. Bütün bunlarla yanaşı şəhər yerlərində sənətin bir çox sahələri inkişaf edirdi ki, bu da şəhərlə kənd arasında məhsul mübadiləsi demək idi.

Azərbaycanın ayrı-ayrı abidələrində, o cümlədən cənub-şərqi Şirvanın yaşayış yerlərində aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri şəhər və kənd tipli yaşayış yerlərinin bir-biri ilə sıx bağlı olduğunu deməyə əsas verir. Əgər şəhərlər kənd əhalisinə mövsümü işlərdə dəstək olurdularsa, kənd əhalisi də öz növbəsində şəhərin mühüm işlərində, yol çəkilməsində, qala divarlarının tikilməsində, ümumilikdə şəhərin abadlıq işlərində yaxından iştirak edirdilər.

Bu, bir tərəfdən kəndin və şəhərin eyni zamanda inkişafı demək idisə, digər tərəfdən də hər hansı baş verən təhlükə zamanı bir yerdə cəm olan insanlar tərəfindən şəhərin müdafiəsi demək idi. Bu da o, deməkdir ki, cənub-şərqi Şirvanın orta əsr şəhərləri həm hərbi-inzibati, sənətkarlıq, həm də ticarət və mədəniyyət mərkəzləri olaraq fəaliyyət göstərmişdir.

Cənub-şərqi Şirvanın orta əsr yaşayış yerlərində sənətkarlığın müxtəlif sahələrinin inkişafı, karvan yolunun bu ərazidən keçməsi, ərazinin liman şəhərinə (Bakı) yaxın olması, eyni zamanda bolsulu çayların (Kür çayı) axması, habelə ərazinin düzənlik, dağlıq və dağətəyi yerləri əhatə etməsi yerli ticarətlə yanaşı beynəlxalq ticarətin də inkişafına təkan vermişdir.

Beynəlxalq ticarətin inkişafına cənub-şərqi Şirvanın Liman (Bakı) şəhərinə yaxın yerləşməsi idi. Ölkəyə böyük gəlir gətirən Beynəlxalq əhəmiyyətli ticarətin inkişafı məqsədilə yerli feodallar şəhərlərdə karvan yolları üzərində yeni körpülər tikməklə yanaşı, uçulub-dağılan körpüləri də bərpa edir və karvansaralar tikirdilər.

**3.1.1. Pul dövriyyəsi.** Yerli və Beynəlxalq ticarət əlaqələrinin öyrənilməsində ayrı-ayrı abidələrdən aşkar olunan sikkə nümunələri mühüm rol oynayır. Cənub-şərqi Şirvanın IX-XVII əsr yaşayış yerlərində aparılan tədqiqat işləri zamanı xeyli sikkə qalıqları da aşkar edilmişdir. Sikkə nümunələri təsərrüfat işləri, yerüstü və arxeoloji qazıntı işləri zamanı tapılmışdır.

Şirvan şəhərinin Nizami kəndinin Əyri-çala yaşayış yerində təsərrüfat işləri zamanı tapılmış sikkələr ən qədim sikkələrdir. 110 ədəd olan sikkə miladdan əvvəl III əsrin ortalarında Parfiya hökmdarının adından kəsilmiş sikkələrdir (tablo 49, şəkil 9,10).

2009–cu ildə Şəhərgah yaşayış yerində aparılan arxeoloji qazıntı işləri zamanı yerli sakinlər tərəfindən ekspedisiyaya təqdim olunan 13 ədəd sikkə daha çox istehsalçıxarı xarakteri daşıyır. Mis sikkələrin birləşmiş formada aşkar olunması orta əsrlərdə Şəhərgah yaşayış yerində bir çox sənət sahələri ilə yanaşı, yerli zərbxananın da fəaliyyət göstərdiyini deməyə əsas verir.

Təyin olunan mis sikkə nominalları fulus olaraq orta çəkisi 0,5-1 qram arasındadır (inv. № 2, 154, 155, 156, 158). 2 saylı sikkənin nöqtəvari reversinin kartusunda Şirvanşah Mənuçöhrün adı aydın oxunur. Aversdə əsasən İslam rəmzinə aid "Allahdan başqa Allah yoxdur" kəlamı da müəyyən həndəsi elementlərlə bəzədilmişdir. Yazıların xətti süls və küfiyə aid olub, D=12-13 mm; çəkisi təqribən 0,50 ≠ 0,20 qr-dır**.**

155 saylı sikkə erkən Hülakilər dövrünə aiddir. D = 18-20 mm; çəkisi təqribən 1,02 qrama qədərdir. Anonim olan bu sikkə misdən ibarət olub, gümüş qatışığı demək olar ki, yoxdur.

Beləliklə, 2009-cu ildə Şəhərgah (Kürdəmir r-nu) orta əsr yaşayış yerində aparılan arxeoloji tədqiqatlar zamanı mədəni təbəqədən aşkar edilən, habelə yerli sakinlər tərəfindən təqdim olunan mis sikkələr XII əsrin sonu-XIII əsrin əvvəllərinə aid

olub, yerli zərbxanada kəsilmişdir (37, 261-268) ( qeyd: sikkə nümunələri Q.Pirquliyeva tərəfindən təyin edilmişdir).

IX-XVII əsrlərə aid sikkələr isə 2011-ci ildə Qırxçraq qazıntıları zamanı aşkar olunan nümunələrdir. Nümunələr Cəlari, Hülaki hökmdarları qızıl Orda xanları, Qara Qoyunlu Qara Yusifin və Şirvanşahların adına zərb olunub. Şamaxıda və Təbrizdə zərb edilmiş sikkələrin dövrü XV əsrə aiddir (tablo 49, şəkil1 1-12).

2010 –cu ildə Muradxan kəndi (Kürdəmir r-nu) ərazisində kanal yeri qazılan zaman saxsı küpdə dəfnə aşkar edilmişdir. Uzun illər torpaq altında qalan dəfnə oksidləşmiş və kütlə halında idi. Mis pul kimi qəbul olunan Muradxan dəfnəsinin ümumi çəkisi 5470 qram, ümumi sayları 1132 ədədir və onların 16 ədədi xırda hissələrə parçalanmışdır. Yuyulub təmizləndikdən sonra onların gümüş sikkə olduğu məlum oldu. Sikkələrin hər birinin ayrı-ayrılıqda çəkisi 2,2-4,5 qramdır. Şamaxı, Qəbələ, Bakı, Dərbənd və Ərdəbil şəhərlərində fəaliyyət göstərən zərbxanalarda kəsilən təngələrin ən qədimi miladi 1410-1411-ci illərə (h. 813-cü il), ən son kəsilən çavan təngə isə miladi 1460-1461-ci illərdə (h.865-ci il) zərb edilib.

Muradxan dəfinəsində olan təngələrin əksəriyyəti miladi 1441-ci ildə (h. 845-ci il) zərb olunub. 1441 –ci ildə zərb olunan təngənin çoxluq təşkil edilməsi ehtimal ki, I Xəlilullahın oğlu, şahzadə Fərrux Yasərin dünyaya gəlməsi ilə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, Muradxan dəfinəsində olan pullardan 1 ədədi Ərdəbildə, 2 ədədi Qəbələdə, 20 ədədi Bakıda, çoxluq isə Şamaxı və Dərbənddə zərb olunub. XIV-

XVI əsrlərə aid olan Muradxan dəfnəsinin hamısının aversində (AV) zərb yeri, Şirvanşahın epitetləri (əl - Sultan, əl-Əzəm, əl – Adil, Xalid - Mülke, reversində (RV) çərçivənin daxilində " La İləhə İlləllah, Məhəmməd Rəsul Allah" kəlmələri, şəbəkənin ətrafında isə raşidi xəlifələrdən Əbubəkr, Ömər, Osman və Əlinin adı yazılıb. Sikkələr üzərində oxunması mümkün olan yazılar nəstəliq və kufi xətti ilə verilib (tablo 49, şəkil 1-8).

Azərbaycan dövlətçilik tarixinin, beynəlxalq əlaqələrinin öyrənilməsində, habelə ticarət-karvan yollarının istiqamətinin düzgün müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edən Qırxçıraq və Muradxan dəfnələri numizmatika şöbəsinin rəhbəri Akif Quliyev tərəfindən təyin edilib (75,177-180;76).

### 3.1.2.Ticarət yolları, körpülər, karvansaraylar.

Qədim "El yolu" adlı ticarət yolunun Şirvan şəhərindən keçməsi əhalinin məskunlaşmasında az rol oynamamışdır. Xatırladaq ki, həmin yol Dərbənddən başlayaraq orta əsr Şabran şəhərindən və Qalacah yaşayış yerindən keçərək Şamaxıya daxil olur, sonra isə Göylər, Quşçu və Kolanı qalacıqlarının yaxınlığından keçməklə Güngörməz qalasına-orta əsr Hacıqabul yaşayış yerinə daxil olub, Şirvan şəhəri, Cavad qəzası (indiki Sabirabad rayonuna), "Cavad bərəsi"nə doğru davam edərək "Kür körpüsü"ndən İran-Muğanına daxil olmuşdur. Cənub istiqamətində isə bu yol Mərkəzi İrandan keçməklə Yaxın Şərq, Dəclə və Fərat çayları hövzəsinə qədər uzanmışdır (106,181-184).

Bu ərazidən keçən digər ticarət yolu Yaxın Şərqdən başlayaraq Mərkəzi İran, Xudafərin körpüsü, "Yeddi təpə" (Füzuli bölgəsi) Bəhramtəpədən keçərək Şirvan düzü ərazisinə daxil olur və Salyandan ötərək Şirvan şəhərinə çatır. Daha sonra isə aşağı yolla çarpazlaşıb Şamaxı və Dərbənd istiqamətində davam edərək Udulu, Quşçu-Kolanı, Qalacıq, Güngörməz abidələrinin yerləşdikləri ərazilərdən keçərək, "Xəlifə yolu" adı altında Şamaxıya daxil olur və oradan çətin keçidlərlə orta əsr Şabran şəhərinə və Dərbəndə doğru uzanır.

Bəzi məlumatlara görə, haqqında bəhs etdiyimiz yolların hamısı qədim şəhər xarabalıqlarını adlayaraq Dərbənddən Volqaboyuna və Mərkəzi Rusiyaya doğru istiqamət götürmüş, hətta Yakutiyaya qədər gedib çatmışdır.

Azərbaycanın qədim ticarət yollarından digəri indiki Quba rayonunun Sandıq təpələri və Qəflə təpələri adlı ərazilərindən Alpan çayı hövzəsindən və bir sıra ilk orta əsr yaşayış məskənlərindən keçmişdir. Bu qədim ticarət yolu Şamaxı rayonunun Kolanı-Quşçu və Göylər qalacıqlarının yanından Xanəgah (Şabran), Oqnya stansiyası (Dağıstan) yaxınlığındakı müdafiə istehkamından keçərək Dərbəndə, oradan da Volqaboyuna doğru uzanırdı.

Dərbənddən keçən yol Şərqə doğru davam edərək qədim "İpək yolu"nun bir hissəsi olan Amu-Dərya (Oks), Sır-Dərya (Yaksa) çayları hövzəsi ilə uzanan yolla birləşib Mərkəzi Asiyanın cənub hissəsinə, Əfqanstan və Çinə qədər davam edirdi.

Qədim ticarət yollarından bəzilərinin adı ərəbmənşəllidir. Ərəbmənşəlli toponimlərə-Xəlifə və Dəvə yolunu göstərə bilərik.

Bakıdan Şamaxıya gedən Nöyüt (Neft-E.A) yolu, Böyük Qafqaz sıra dağlarının cənub ətəkləri boyunca keçən və Dib yolu kimi məlum olan qədim ticarət yolları da bu qəbildəndir.

Qədim zamanlardan mövcud olan bu yollar indi də fəaliyyət göstərməkdədir. Ticarət yolları yaşayış məntəqələrinin ticarət və sənətkarlıq mərkəzləri kimi formalaşmasında mühüm rol oynamışdır.

Şirvan ərazisindən keçən, cənub və şimal istiqamətində olan qədim ticarət yollarından biri də Şıxbörkü yoludur (bu yola xalq arasında "Kolanı girdəsi"də deyilir-E.A.). Bu yol Kolanı, Quşçu, Göylər, Bağırlı-Gümüşlü arxeoloji abidələr kompleksindən keçərək Dərbəndə doğru istiqamət götürür.

Yazılı qaynaqlarda Şirvan yaşayış yerindən keçən Qızılca və Damcılı yolları haqqında da məlumat vardır. Dərbənddən başlanan və "El yolu" adlanan Qızılca yolu Şamaxı, Göylər və Şirvan yaşayış yerlərindən keçərək daxili ticarətdə mühüm rol oynamışdır (106,181-184). Şirvan şəhərindən keçən ikinci yol Dağmalı ticarət yoludur. Orta əsrlər də Azərbaycanın iri yaşayış məntəqələrini əlaqələndirən tranzit yollarla yanaşı ona birləşən ikinci dərəcəli yollar da olmuşdur. Tədqiqatçıların fikrincə belə yollar insanlar üçün məsafəni (piyada gediş-gəliş) qısaltsa da, dar və təhlükəli olduğu üçün əksər hallarda sarbanlar (karvançılar) ondan istifadə etməmişlər.

Elə tarixi yollar da var ki, istifadəsi çətin və keçilməz olsalar da bu gün də zəruri və əhəmiyyətlidirlər. Məhz, Böyük Qafqaz sıra dağlarını Şirvan düzü ilə birləşdirən Dib və Dərə yolları belə qədim ticarət yollarındandır.

Bakıdan başlanan Şirvan yaşayış yerinə qədər davam edən qədim ticarət yolu adına uyğun olaraq Dib yolu adlanır. Çoxəsirlik tarixə malik olan bu yol Böyük Qafqaz sıra dağlarının dibi ilə istiqamətləndiyi üçün belə adlandırılmışdır. Bu qədim yol Şirvan şəhərindən keçib Şamaxı ətrafı abidələrdən ibarət olan Quşçu, Kolanı və Göylər qalacıqları yaxınlığından, Bağırlı və Hacıqədirli kəndləri də daxil olaraq Şəhərgah abidəsi ərazisindən, Ağsu və İsmayıllı abidələrindən keçərək Qafqaz Albaniyasının ilk paytaxtı olan Qəbələyə qədər davam edirdi.

Dəvə karvanlarının hərəkəti üçün əlverişli qədim ticarət yollarından biri, habelə Dərbənddən Şamaxıya və orta əsr Göylər yaşayış yerindən keçərək Şirvana doğru istiqamətlənən Quru dərə yoludur. Bu yol Göylər kəndindən keçdikdən sonra Şəhərgah istiqamətində davam edərək qədim Xəlifə yolu deyilən yola qatılır, sonra isə Dib yoluna istiqamət alaraq şərqə-Şirvan şəhərinə qədər uzanırdı.

Şamaxıdan və Göylər yaşayış yerindən keçərək cənub istiqamətində uzanan Ləyləli qədim ticarət yolu da mühüm əhəmiyyətə malik olmuşdur. Etnoqrafik müşahidələrə görə karvanın gediş-gəlişi üçün olduqca rahat olan bu ticarət yolu ilk baxışda "Layla" çalırmış kimi rahat olmuş və ən kövrək ticarət mallarının daşınması məqsədilə istifadə edilmişdir. Bu yol cənub istiqamətində Xəlifə yolu ilə birləşərək Böyük

Qafqaz dağ silsiləsi istiqamətində Dib yolu deyilən şərq-qərb istiqamətli ticarət yolu ilə birləşərək Muğan istiqamətində uzanmışdır. Şamaxı rayonunun yaşlı sakinlərinin verdikləri məlumata görə Ləyləli yolu əlverişli olduğu üçün Hacıqabula gedən əhali məhz bu yoldan istifadə edirmişlər. Habelə əsrlər boyu mövcud olmuş qədim karvan yolundan insanlar bu gün də istifadə edirlər.

Məlum olduğu kimi karvan yolu Dərbənddən Qubaya, sonra isə Şamaxı istiqamətindən keçərək Pirsaat çayı yolu ilə indiki Hacıqabul rayonuna, Bakıdan isə Atbulaq stansiyasına qədər uzanırdı. Bu yol Şamaxıdan Pirsaat çayı ərazisinə keçirdi. Qədim Şamaxının dağətəyi ərazisində yaşayan əhali bu yol vasitəsilə nəinki ətraf ərazilərdə yaşayan əhali ilə ticarət edirdi, habelə Şərq ölkələri ilə də sıx ticarət əlaqələri saxlayırdılar. Yerli əhali ticarət zamanı nəqliyyat vasitəsi kimi daha çox dəvədən istifadə edirdilər.

**Körpülər.** Cənub-şərqi Şirvanın tikintiləri içərisində körpülər mühüm əhəmiyyət kəsb edir. Beləki, körpülər örjinallığı ilə seçilən və memarlıq üslubu baxımından yüksək tikinti texnikasına malikdirlər. Əsasən beynlxalq ticarət yollarının üzərində inşa edilən körpülər daha çox ictimai-iqtisadi əlaqələr ilə bağlı olmuşdur. Yəni, Azərbaycanın coğrafi cəhətdən əlverişli ərazidə yerləşməsi bu ölkəni dünya ticarətinə çıxara bilmişdir. Məhz bu baxımdan körpülər Azərbaycanın qədim şəhərlərindən olan Bərdə, Naxçıvan, Gəncə, Şamaxı, Ərdəbil, Təbriz və s. ticarət yollarının üstündə tikilirdi.

Cənub-şərqi Şirvanın Salyan bölgəsi də tarixən quru və su yollarının qovşağında yerləşdiyindən sərbəst gediş-gəlişin

təmin edilməsində tikilən körpülərin rolu danılmazdır. Kür çayının Salyan ərazisindən keçməsi, onun gəmiçilik ticarət üçün mühüm rol oynamışdır. Kürün tez-tez daşması nəticəsində dayaqları yuyub apardığından burada körpülər uzun müddət qala bilmirdi. Məhz Kür çayının bir tərəfindən digər tərəfinə keçmək üçün sallardan istifadə edilirdi. Qeyd edək ki, bu gün də sallardan istifadə edilir.

Salyan ərazisində orta əsr tigarət-karvan yolunun və Kür çayının qolu üzərində tikilən körpülərdən biri ikitağlı Qumlavar körpüsüdür. Körpünün eni 4,6 metr, uzunluğu 20 metrdən çoxdur. Aşırımların eni 3,5 metrdir. XII əsrin sonu-XIII əsrin əvvəllərində inşa edilən körpüdən XVIII əsrin sonlarına qədər istifadə olunmuşdur.

XIII əsrin əvvəllərində inşa olunan ikinci körpü isə bir aşırımlıdır və aşırımının eni 3,8 metrdir (86,108-110).

Körpülərin tikintisində çayın yerləşdiyi ərazinin relyefi nəzərə alınaraq müxtəlif aşırımlı inşa edilirdi. Habelə, körpülərin inşasında yerli xammal ehtiyatlarına daha çox üstünlük verilirdi. Məhz Salyan ərazisindən keçən Kür çayının qolu üzərində inşa olunan körpülərdən biri çay və qaya daşlarından, ikincisi isə yalnız bişmiş kərpiclə yerli ustalar tərəfindən inşa edilmişdir.

**Karvansaraylar.** Cənub-şərqi Şirvanın karvan yolları üzərində bir günlük məsafədə karvansaralar tikilirdi. Bu karvansaralar təkcə səyyahların və karvanların qalması üçün deyil, eyni zaman da müxtəlif ticarət əməliyyatlarının aparılmasında da istifadə edilirdi (199).

Belə karvansaraların çox az hissəsi və onların qalıqları bu günədək qorunub saxlanmışdır. Onlardan biri Şirvan şəhərinin yaxınlığında Hacıqabul gölünün şərq sahilində olmuşdu. Təəssüf ki, həmin karvansara özülünün az hissəsi qaldığından abidənin plan və quruluşu barədə məlumat vermək imkan xaricindədir.

Hacıqabul-Bakı yolu üzərində Hacıqabul rayonu ərazisində və Pirsaat xanəgah abidələr kompleksində də ( orta əsrlərdə) karvansaralar mövcud olmuşdur. Həmin karvansaraların içərisində Sanqaçal karvansarası (XV əsr) nisbətən yaxşı qorunub saxlanmışdır.

Orta əsrlərdə karvansaralar şəhər quruluşunda da əsas yer tuturdu. Evliya Çələbinin verdiyi məlumata görə təkcə Təbriz şəhərində 200-ə yaxın karvansara olmuşdur (44,8).

Lakin ticarət yolu üstündə olan karvansaralardan fərqli olaraq şəhər karvansaralarında şəhərlər və ölkələr arasında iqtisadi, siyasi əlaqələr yaratmaq, ticarət sazişləri bağlamaq üçün xüsusi binalar nəzərdə tutulurdu.

İqtisadi və ticarət əlaqələri genişləndikcə orta əsr karvansaralarında Şərq sitili və memarlıq üslubu daha çox özünü göstərirdi.

**3.2. Mədəni həyat. Evlər, hamamlar, su təchizatı sistemi.**

Evlər. Arxeoloji və etnoqrafik tədqiqatlat sübut edir ki, qədimdə insanlar yaşayış yerlərini seçərkən zəngin, strateji cəhətdən əlverişli yerlərdə-yol və çay kənarlarında, su

hövzələrinin yaxınlığında məskən salırdılar. Çünki belə yerlər əkinçilik və maldarlıq təsərrüfatının inkişaf etdirilməsi, ticarət əlaqələrinin qurulması ilə bərabər, xarici təhlükədən müdafiə baxımından da əlverişli idi. Belə yaşayış yerlərində eyni zamanda küləkdən, qardan, yağışdan və soyuqdan qorunmq da nəzərdə tutulurdu. Cəmiyyətin sosial quruluşunda hansısa əsaslı bir dəyişiklik baş verdikdə, yaxud digər obyektiv səbəblər yarandıqda, həmin yerlər ya müvəqqəti, ya da birdəfəlik başqa yaşayış yerləri ilə əvəz edilirdi.

Cənub-şərqi Şirvanda orta əsrlərdə evlərin otaqlarının uzunluğu təxminən 7-8, eni 3-4 m, divarlarının qalınlığı 80 sm olurdu. Otaqların döşəməsinin suvanmasında gəc və gildən istifadə edilmişdir. Yaşayış yeri qalıqlarının ayrı-ayrı hissələrində saxsı sınıqlarına kütləvi şəkildə təsadüf edilir. Arxeoloji tədqiqatlar Mişovdağ yaşayış yerinin şəhər tipli olduğunu sübut edir.

Feodal cəmiyyətinin sosial struktur xüsusiyyətlərindən asılı olaraq, şəhərlərdə yaşayış evləri müxtəlif memarlıq üslubunda inşa olunurdu. İnşaat işlərində landşaft xüsusiyyətləri nəzərə alınmaqla, müxtəlif tikinti materiallarından-yerli daşlardan, bişmiş və çiy kərpiclərdən istifadə edilirdi.

Bu cür kompleks tədqiqat işləri Azərbaycanın Qəbələ, Şamaxı kimi şəhərlərindəki arxeoloji qazıntılarından məlumdur.

Cənub-şərqi Şirvanın orta əsr şəhər tipli yaşayış yerlərində aparılmış arxeoloji müşahidələr əsasında belə bir

fikir də irəli sürmək olar ki, şəhərdə evlər bir-birinə yaxın olmuşdur. Kiçik həyətli evlər daha çox idi. Şəhər əhalisinin əkin sahələri düzənlik ərazidə yerləşirdi. Burada nəhəng çalalar /kiçik göllər/ qazılır və su ehtiyatları saxlanılırdı.

Orta əsrlərdə Şirvanda evlərin işıqlandırılmasında müxtəlif tipli çıraqlardan geniş istifadə edilmişdir. XI-XII əsrlərdə əsasən silindrik və dar bağazlı çıraqlar, XIII əsrin sonu-XIV əsrin əvvəllərindən isə əsasən boğazı qıfvari çıraqlar geniş yayılmışdır. Orta əsr şəhər yerindən şirsiz saxsı nümunələrlə yanaşı külli miqdarda şirli saxsı qab qırıqlarına da təsadüf edilir.

Beləliklə, aydın olur ki, cənub-şərqi Şirvanın (Ərəbşahverdi, Zubovka, Şirvan) yaşayış yerləri vaxtilə Mişovdağın ətəklərində salınmış və hal-hazırda şəhər qalığı Mişovdağ boyunca böyük bir ərazini, təxminən 10-15 hektarlarla sahəni əhatə edir.

Hamamlar. İslam dini qəbul edildikdən sonra təmizlik qaydalarına əməl etməklə yanaşı, karvansaralarda və ona yaxın olan yerlərdə hamamların inşası dini baxımdan da olduqca vacib idi. Ona görə ki, dinə xidmət edən yerli sakinlərlə yanaşı ticarət edən zəvvarların məscidə getməzdən əvvəl namaz qılmaq və dua etmək üçün yuyunmaları olduqca vacib sayılırdı.

Maraqlı hallardan biri də budur ki, orta əsr hamamlarından idman etmək üçün də istifadə olunurdu. Şirvanda olan bəzi orta əsr səyyahlarının verdikləri məlumata görə hamamlarla yanaşı, burada “zorxana”lara da rast gəlmək mümkündür.

Cənub-şərqi Şirvanın orta əsr hamamları tikiliş quruluşuna görə iki böyük düzbucaqlı formasında olub, dörd kiçik otaqlara bölünürdü. Bir qrup binalar "çöl" və "bayır" adlanaraq soyunmaq üçün "içəri" adlanan otaq, digərləri isə yuyunmaq üçün nəzərdə tutulurdu. Soyunma otağının divarında çox da böyük olmayan taxçalar olurdu ki, bu da paltar, ləyən, su qabı (parç-dolça) üçün nəzərdə tutulurdu.

Hamamın digər otaqlarından biri isə "xəzinə"dir ki, burada soyuq və isti su birləşirdi. Orta əsr hamamlarına su saxsı borular vasitəsilə ovdanlardan gətirilirdi.

Arxeoloji qazıntılar zamanı aşkar edilərək tədqiq olunan hamalardan biri 2009-cu ildə Şəhərgah (Kürdəmir rayonu) abidəsindən məlumdur. Aşkar olunan hamam kompleksi 5 otaq, 9 vanna, 2 buxarı, 1 ocaq-kürə və 3 qapı yerindən ibarətdir. Tikintinin şərq-qərb istiqamətində şimal divarının uzunluğu 11,5 metr, salamat qalmış hissədə hündürlüyü 1.6 metr, şimaldan cənuba uzanan istiqamətdə olan şərq divarının uzunluğu 13.5 metr, salamat qalmış hissədə divarın hündürlüyü 2.2 metrdir. Tikintinin konstruksiyasından görünür ki, hər birinin sahəsi təqribən 9-11 kv.m. olan vanna otaqlarının üstü ayrı-ayrılıqda tağvari formada örtülmüşdür (37, 261-268 ; tablo 44;45).

Hamam kompleksinin içərisi təmizlənərkən vanna otaqlarının döşəmə hissəsində 40-50 sm qalınlığında qum təbəqəsi aşkar edilmişdir. Ehtimal ki, bu qum təbəqəsi ərazini sel sularının basması nəticəsində əmələ gəlmişdir.

Kompleksin bünövrə hissəsi yonulmuş mədən daşından, divarların qalan hissəsi isə müxtəlif ölçülü bişmiş kərpiclərdən istifadə olunmaqla hörülmüşdür. Tikintidə əsasən 22x22x4; 24x24x5; 26.5x27.5x6.5; 27.5x27x7; 34.5x37.5x9 sm ölçülü bişmiş kərpiclərdən, az halda iriölçülü kərpiclərdən istifadə olunmuşdur.

Hamam-kompleksin şimal və cənub istiqamətində olan şərq divarında 24 cərgə kərpic işlədilmiş və həmin kərpiclərin istehsalında bərkidici material kimi kirəc məhlulundan istifadə olunmuşdur.

Bir nömrəli vanna otağının şimal-qərb küncündə oturmaq üçün uzunluğu 56 sm, eni 41sm, hündürlüyü isə 36 sm nəzərdə tutulan tumba aşkar edilib. 2 və  3 nömrəli otaqları birləşdirən qapı yerinin sağında və solunda bişmiş kərpicdən buxarı yerləri vardır. Hamamın qızdırılmasında uzun müddət istifadə olunduğundan hər iki buxarının divarları yanaraq hisdən qaralmışdır. Otaqları qızdırmaq məqsədi ilə qazanxanadan otaqların içərisinə istilik sistemi çəkilmişdir. İstilik sistemi kvadrat formalı bişmiş kərpiclərin tinləri uc-uca qoyularaq tağvarı formada hörülmüşdür.

Habelə, suyun qızdırılması məqsədilə kompleksin cənub tərəfindəki uzunluğu 1.97 m, eni 57 sm olan nisbətən iri həcmli ocaq-kürədən istifadə olunmuşdur. Ocaq-kürənin ətrafında aşkar edilən üç ədəd kiçik vannadan çimmək, yaxud da paltar yuyulması məqsədilə istifadə olunduğunu ehtimal etmək olar. Tədqiq olunan vannaların uzunluğu səksən, eni 70-87 sm, dərinliyi isə 65-75 sm-dir. Kiçik vannalarla bitişik olan

nisbətən iri vannanın uzunluq ölçüləri isə 1.62 X 91 sm, dərinliyi isə 61 sm-dir.

Vannalardan ikisi ocaq-kürənin şərq, digər ikisi isə qərb tərəfindədir. Həcmlərinin iri olmaları ilə fərqlənən vannalar kompleksin əsas divarları boyunca yerləşdirilib. Kərpicdən hörülən vannaların uzunluğu 2.2-2.35sm, eni 58-66sm, dərinliyi isə 75-80 sm –dir (tablo 44).

Daxildən və xaricdən səliqə ilə suvanmış vannaların hamısı bir-biri ilə əlaqəlidir. Vannalardan birincisi dolduqdan sonra su ikinci, üçüncü, daha sonra isə sonuncu vannaya axırmış.

Şəhərgah yaşayış yerində aparılan arxeoloji tədqiqatlara və aşkar olunan çox saylı maddi mədəniyyət nümunələrinə əsasən hamam-kompleksi XII əsrə və XIII əsrin I yarısına aiddir.

Su təchizatı sistemi. Azərbaycanın orta əsr şəhərlərində mədəni-məişət və təsərrüfat həyatının yüksək olmasında sistemli, mükəmməl suyun və su qurğularının olması vacibdir. Şirvanın orta əsr şəhərlərində aparılan quruculuq və abadlıq işlərindən biri də ətraf ərazilərdə yerləşən kənd və şəhər tipli yaşayış yerlərinin su ilə müntəzəm olaraq təmin olunması idi. Bu baxımdan orta əsr sənətkarları sənətkarlığın bir çox sahələri ilə yanaşı, hidromühəndislik sənətinə də çox önəm verirdilər. Hidromühəndislər IX-XVII əsr şəhər və kənd əhalisinin içməli su ilə təmin olunmasını bir çox vasitə və üsullarla yerinə yetirirdilər. Bununla da onlar Şirvan əhalisinin daima içməli, kənd təsərrüfatının suvarma suları ilə təmin olunmasını

nəzarətdə saxlayırdılar. Bunu Şirvanın orta əsr şəhərlərində aparılan arxeoloji qazıntıların nəticələri də təsdiq edir.

Arxeoloji qazıntılar zamanı Şirvanın mühüm sənətkarlıq və ticarət mərkəzləri sayılan Şamaxı, Qəbələ, Salyan, Kürdəmir, Ağsu, Şirvan şəhərlərindən müxtəlif formalı təchizat qurğuları aşkar edilmişdir. Aşkar olunan su qurğuları və tutarları, arxlar, kanallar, saxsı tünglərdən quraşdırılmış su kəmərləri, ovdan, bulaq və kəhrizlərdən ibarətdir (72;73). Orta əsrlərdə Şirvanda mədəni və iqtisadi həyatın inkişafından asılı olaraq digər sahələrdə olduğu kimi, su təchizatı sistemində də müsbət dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərdən ən başlıcası suyun lazımı yerlərə itkisiz çatdırılması idi. Ona görə də hidromühəndislər suyun çatdırılması məqsədi ilə əlverişli üsul və vasitələrdən istifadə edirdilər.

Eyni zamanda Şirvan bölgəsinin əhalisinin məişət və təsərrüfat ehtiyaclarının təmin olunması məqsədi ilə şəhərətrafı su mənbələri ilə yanaşı uzaq məsafələrdən də su xətləri çəkilirdi.

Cənub-şərqi Şirvan bölgəsinin orta əsr su təchizində Girdimançay, Ağsuçay, Kür, Dəmiraparan, Vəndam, Həmzəli, Arpalıçay, Qaraçay, Qəbələçay, Ağçay və s. çaylardan müxtəlif qurğular vasitəsi ilə şəhərlərə su gətirilmişdir.

Orta əsr Azərbaycan əhalisi mədəni və təsərrüfat həyatlarını su təchizatı ilə təmin etmək üçün müxtəlif üsullarla dağlıq rayonlardan şəhərə yaxın çaylardan və ya bulaqlardan çəkilmiş arxlar, kəhrizlər və saxsı su tünglərdən olan kəmərlər vasitəsilə su ilə təmin olunmuşlar. Kəhriz sistemi ilə şəhəri su

ilə təchiz etmək üsulu Bakıda, saxsı tünglərdən olan kəmərlər vasitəsi ilə su təchizi üsulu Gəncədə, Qəbələdə, Salyanda aşkara çıxarılmışdır. Habelə, arxeoloji qazıntılar zamanı Beyləqan şəhərinin IX- X əsrlər mədəni təbəqəsindən su quyuları (48,31), Qəbələ Qala şəhər yerinin X-XVII əsrlərə aid mədəni təbəqələrindən su quyusu, saxsı tünglərlə kəmərvarı çəkilmiş su xətti üzə çıxarılmış və tədqiq edilmişdir (35,107-108).

Aparılan arxeoloji və elmi tədqiqatlar deməyə əsas verir ki, orta əsr Azərbaycan şəhərləri istər memarlıq, istərsə də su təchizatı baxımından heç də geridə qalmamış, zaman baxımından onlardan üstün olmuşdur. Belə ki, əgər XII-XIII əsrlərdə avropalılar saxsı su tüngündən istifadə edirdilərsə, qocaman Şərqin beşiyi Azərbaycanda azərbaycanlılar bu sistemdən IX-XI əsrlərdən istifadə etməyə başlamışlar (73).

3.2.1. Elm. Mənbələr araşdırıldıqda aydın olur ki, Azərbaycanda yaranmış dövlətçilik yerlərdə, xüsusilə də iri şəhərlərdə elmi mərkəzlərin yaranmasını tələb edib. Belə elmi mərkəzlər Qarabağda, Gəncədə, Təbrizdə, Naxçıvanda, Şirvanda və digər orta əsr şəhərlərində fəaliyyət göstərib. Ümumiyyətlə, müsəlman Şərqində IX-XVII əsrlərdə elm və mədəniyyət inkişaf səviyyəsində idi. Bu dövrdə (IX-XVII əsrlər) istər Yaxın və Orta Şərqdə, istərsə də Azərbaycanda ərəb dili geniş yayıldığından alimlər elmi əsərlərini bu dildə yazırdılar. Mənşəcə ərəb olmayan və elmi əsərlərindən bəhrələndiyimiz ərəbcə yazan Bəlazuri, Təbəri, ibn Xordadbeh, əl- Bəlxi, əl-İstəxri kimi tarixçi və coğrafiyaşünaslar öz

vətənlərindən çox uzaqlarda da məşhur olmuşlar (21, 258-259;131).

IX–XIII əsrlərdə fəaliyyət göstərən elmi mərkəzlərdən biri Şirvanda idi. Bu yüzilliklər ərzində baş verən müharibələr, habelə təbii fəlakətlər digər sahələrdə olduğu kimi, elmin inkişafında da tənəzzülə səbəb olurdu. Lakin Şirvanın ayrı-ayrı bölgələrində aparılan arxeoloji qazıntılarda mədəni təbəqədən tapılan maddi mədəniyyət qalıqları sikkələr, yerli və xarici müəlliflərin əsərləri dəyərli faktlar əldə etməyə imkan verir.

Şirvanın çiçəklənən dövrü XI əsr Şirvan şahı I Fəriburz ibn Saların hakimiyyəti illərinə təsadüf edir. Şirvanda tibb, astronomiya, riyaziyyat, musiqi, məntiq, fəlsəfə və s. elmlərin inkişafında, Ömər ibn Osman Kafiəddin Şirvaninin əməyi xüsusilə qeyd olunur. Şirvanın baş şəhəri Şamaxıda X-XIIIəsrlərdə elmi mərkəzlər fəaliyyət göstərmişdir (78).

Şirvanın orta əsrlərdə yüksək mədəniyyətə malik olmasını arxeoloji qazıntılar nəticəsində aşkar edilən maddi mədəniyyət nümunələri də təsdiq edir. Arxeoloji qazıntılar zamanı III – IX (Torpaqqala abidəsi), IX –XVII əsr, XVIII əsrin əvvəlləri ( Qəbələ Qala), XII əsr-XIII əsrin əvvəlləri (Şəhərgah - Kürdəmir rayonu, Muradxan kəndi), XII əsrin sonu, XIII-XVII əsr (Salyan – Qırxçıraq) mədəni təbəqələrindən tapılmış, çox incə toxunuşlu qadın kəməri və sinə bəzəkləri (Qəbələ Qala), şar gövdəli və kəmərvari naxışlı yapma bəzəklə üzəri işlənmişi iri təsərrüfat küpləri və nazik divarlı, üzəri zərif naxışlarla işlənmiş məişətdə istifadə edilən kuzələr, müxtəlif təyinatlı (şar – konuslar, ətriyyat və dərman qabları – flakonlar) keramik və şüşə qablar, şirli keramika və

fayans qablar üzərində şux (şəffaf) rənglərdən istifadə olunaraq çəkilmiş nəbati, həndəsi və sxematik təsvirlər, eyni zamanda qabların üzərində həkk olunan yazılar, habelə 3,5, 6 və 8 guşəli kaşı və müasir divar bəzəklərindən seçilməyən divar bəzəkləri və qabların oturacaqlarına vurulan damğalar bu sahədə çalışan ustaların dərin bilik sahibləri olduğundan xəbər verir.

IX-XIII əsrin əvvəllərində digər elmlərlə yanaşı ədəbiyyat, o cümlədən poeziya yüksək səviyyəyə çatdı. Şairlər ərəb, fars dili ilə yanaşı Azərbaycan dilində də yazıb yaradırdılar. Türk dillərinin oğuz qrupuna daxil olan Azərbaycan dili danışıq dili kimi çox illər əvvəl mövcud olmuşdur. XI əsrin ortalarında oğuz tayfaları dilinin təsiri altında tam formalaşan Azərbaycan dili XII əsrdə ədəbi dil olaraq təşəkkül tapdı. Ədəbi mühitdə fars və ərəb dilləri ilə yanaşı Azərbaycan dilində də əsərlər işıq üzü gördü. XIII əsrin sonlarında ədəbi-mühitdə xüsusi dəsti xətti olan şair Həsənoğlu fars dili ilə yanaşı, Azərbaycan dilində də lirik şerlər yazdı. Eyni zamanda, Həsənoğlunun müasiri Nəsirin (XIV əsrin əvvəlləri) Məhəmməd Xudabəndə Ölcaytuya həsr etdiyi müxəmməs də Azərbaycan dilində yazılmışdır. Ölcaytuya Bakı əhalisini bir çox ağır vergilərdən azad etmiş və şəhərin abadlaşdırılmasına dair bir çox fərmanlar vermişdir (*25*,258-259).

“ Kitab - i Dədə Qorqud” dastanı şifahi xalq poetik ənənəsini əks etdirən oğuz qəhrəmanlıq eposudur. Müxtəlif vaxtlarda (IX əsrdən-XV əsrədək) fərqli ozanlar tərəfindən qoºulmuº bu epos giriºdən və on iki boydan ibarətdir. Eposda xanlar xanı Bayandır xan və Qazan xan xatırlanır. Habelə

dastanda XI-XII əsrlərdə Qafqazda və Azərbaycanda yaşamış oğuzların feodal-patriarxal köçəri həyatları öz əksini tapmaqla yanaşı, Azərbaycan və Şirvanın qalaları, çay və gölləri xatırlanır.

IX-XIII əsrlərdə Orta Şərqdə olduğu kimi Şirvanın saray şairləri arasında da feodalları, şahları mədh etmək dəbdə idi. Demək olar ki, bu dövrdə Şirvanda, sarayda çalışan şairlər ordusu vardı. Onlardan biri də XI əsrdə yaşamış saray şairi Qətran Təbrizidir.

III Mənuçöhrün Şirvanda apardığı abadlıq və mədəniyyətin tərəqqisi üçün çox iş görmüş ağıllı hökmdar olaraq qəsidələrində təbliğ edən isə Xaqani Şirvaninin dostu Fələki ªirvani idi.

XII əsr Şirvanın saray şairləri arasında ən görkəmlisi Əfzələddin Xaqani idi. Əmisi Kafiəddin Ömərdən yüksək təlim-tərbiyə almış, kamil şer texnikasına sahiblənmiş, fəlsəfəni, ilahiyyatı, təbabəti, ədəbiyyatı dərindən öyrənmişdir. III Mənuçöhrün sarayında yaşayan şair “xaqana məxsus” olduğunu Xəqani təxəllüsünü götürməklə bildirmişdir. Xaqani III Mənuçöhrə və şahın oğlu I Axistana bir neçə mətihə yazmış olsa da, daha çox lirik, səmimi şerlər yazmışdır. Şair şerlərində taleyin dönüklüyündən, xalqların və dövlətlərin taleyi haqqında fəlsəfi qəzəllər yazmışdır (20,263-264).

Elm və mədəniyyətin qollarından biri memarlıq və şəhərsalmadır. XI-XIII əsrin əvvəllərində digər elm sahələri ilə yanaşı Şirvanda şəhərlərin və şəhər mədəniyyətinin inkişafı ilə əlaqədar memarlıq və şəhərsalma da yüksək səviyyədə inkişaf

edirdi. Tədqiq olunan dövr Azərbaycanda, o cümlədən Şirvanda yerli memarlıq sənətinin, onun formalarının özünəməxsusluğu, dekor bəzəyinin zənginliyi və təkmilləºmə dövrü olaraq tarixə daxil olub.

IX-XIII əsrlərdə ibadətxanalar və məscidlərlə yanaşı memarlıq baxımdan yüksək səviyyədə inşa edilən saraylar, karvansaraylar, körpülər və s. tikilirdi. Bu dövrdə Azərbaycanda qədim memarlıq ənənələri ilə yanaşı qonşu ölkələrin memarlığından fərqlənən, özünəməxsus yerli xüsusiyyətləri ilə seçilən memarlıq məktəbi yarandı.

Azərbaycan memarlıq tarixində özünəməxsus yeri və əhəmiyyəti olan məktəblərdən biri də Şirvan-Abşeron memarlıq məktəbidir. Şirvanşahlar dövlətinin Kəsranilər sülaləsi zamanı möhkəmlənməsi, yeni inşaat sənəti ilə yanaşı yerli memarlıq məktəbinin yaranmasına və çiçəklənməsinə zəmin yaradırdı. Şirvanşahlar dövləti hörgüdə təbii inşaat materialları ilə zəngin olan əhəng daşından da geniş istifadə edirdilər. Ona görə ki, əhəng daşı bir inşaat materialı olaraq binaların bəzəyində oyma şəklində tətbiq edilən yeganə material idi.

Şirvan-Abşeron memarlığı tikinti texnikası və bədii xüsusiyyəti ilə Aran və Naxçıvan memarlığından fərqlənir. Şirvan- Abşeron memarlığının əsas üslub xüsusiyyətləri daş və onun üzərində tətbiq edilən ornamental oymanın birlikdə təsiri əsasında formalaşması ilə diqqəti cəlb edir. Yerli daşın diqqətlə yonulması və onun səthinin hamarlanması Şirvan tikililərinin hörgüsünə xüsusi bir görkəm verirdi. Şirvan- Abşeron memarlıq məktəbinin xüsusiyyətlərindən biri də hörgüdə

relyeflə işıq- kölgə effekti yaradan zəngin dekor elementlərinin olmasıdır (74, 48-49;45,84-92;86,108-109;89).

Məhz bu xüsusiyyətlər Şirvanda XI-XIII əsrlərdə şəhərsalmanın və memarlığın inkişaf səviyyəsini göstərdi, həmçinin memarlar gözəlliyi ilə bir- birindən fərqlənən yeni xahəgahlar, saraylar, karvansaralar, məscidlər, körpülər və s. tikirdilər.

Yazılı kitabələr bizə bir çox alim-şeyxlərin, memarların, rəssamların, daş üzərində bədii oyma sənətinin görkəmli nümayəndələrinin adlarını çatdırmışdır. Onlardan Pir Hüseyn, Şeyx Əbubəkr, Şeyx Babi Yəqub, Zeynəddin ibn Əburəşid Şirvani və b. göstərmək olar.

Şamaxıdan cənub–şərqdə Göylər kəndində, Şamaxı – Ərdəbil ticarət – karvan yolunun üzərində yerləşən “ Pir Mərdəkan” xanəgahı və Cami məscidi də belə memarlıq abidələrindəndir (108,268-269).

X-XIII əsrlərdə yaşayıb yaratmış bir çox Azərbaycan memarları, bənnaları və memarlıq bəzəyi ustalarının adları müxtəlif tikililərin kitabələrində, daş plitələrində, dekorativ bəzək məmulatlarında və digər qaynaqlarında dövrümüzədək çatmışdır. Bunlardan Məhəmməd ibn Cəfər (Beyləqan rayonundakı "Peyğəmbər" qəbiristanlığındakı kitabəli plitə X əsr), İbrahim ibn Osman (Gəncə darvazası, 1063) və s. misal göstərmək olar.

Azərbaycana işğalçılıq hücumları edən monqollar bir çox sahələrdə olduğu kimi yerli xalqların mədəniyyətinə müəyyən

zərbələr vurmaqla yanaşı, həm də yerli mədəniyyəti istər-istəməz qəbul edirdilər. Bu illərdə yeni məktəblər, mədrəsələr, ali təhsil müəssisələri təsis edilirdi. İbtidai təhsil “məktəb”, orta təhsil müəssisəsi isə “mədrəsə” adlanırdı. İbtidai təhsil müəssisəsində şagirdlər əsasən müxtəlif fənlər haqqında ilkin biliklər əldə edirdilərsə, mədrəsələrdə isə dini dərslərlə yanaşı, ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, məntiq, nücum, fəlsəfə və s. dərslərə də üstünlük verilirdi. Bu məktəblərlə yanaşı “yetimlər evi”, “təlim evi” adlanan xeyriyyə müəssisələri də mövcud idi

Azərbaycan Şərqin ən mühüm mədəniyyət ocaqlarından biri sayılırdı. Məktəb və mədrəsələrdə ərəb və fars dilləri əsas sayılsa da Azərbaycan dili də keçirilirdi. Habelə fars və ərəb dilləri ilə yanaşı Azərbaycan dilində də əsərlər yazılmış və bir çox əsərlər Azərbaycan dilinə tərcümə edilmişdir.

Nücum elminin banisi Azərbaycanlı Nəsrəddin Məhəmməd Tusinin rəhbərliyi ilə 1259-cu ildə ilk dəfə olaraq Marağa ətrafında Yaxın və Orta Şərqin məşhur rəsdxanası təsis edilmişdir. Onun ulduzların, planetlərin düzülüşünə aid “Zic Elxani” (“Elxani cədvəlləri”-E.A.) əsəri ilə yanaşı, “Əxlaqi-Nasiri”, “Əxlaqi-Möhtəşəmin”, “Qəvaidi-elmi-tibb”, “Risaleyi-fəlsəfi” və s. əsərləri mühüm yer tutur (26).

Məhəmməd ibn Hinduşah Naxçıvani, Əhməd ibn Məhəmməd, Həmdullah Qəzvini, Əbdürrəşid Bakuvi və başqaları XIV əsr Azərbaycan tarixşünaslığında xüsusi yeri olan alimlərdirlər.

XIII-XV əsrlərdə Azərbaycan ədəbiyyatı, əsasən saray mühitini təbliğ etdiyi üçün çətin mərhələ yolu ilə inkişaf etmişdir.

XIV əsrin əvvəllərində Şamaxıda anadan olmuş, orada mükəmməl təhsil almış Zülfüqar Şirvani fəlsəfə, məntiq və digər elm sahələri ilə yanaşı, qəsidə, qəzəl, qitə, rübailərdən ibarət böyük divanı vardır. Zülfüqar Şirvani əsərlərini altı dildə, o, cümlədən Azərbaycan dilində yazmışdır.

XIV əsrdə Azərbaycan poeziyası sürətlə inkişaf edirdi. Yazılan əsərlərin əsas məzmununu insanların mistikadan uzaqlaşaraq daha çox həyatla əlaqələrinə həsr edilirdi. Beləki, Arif Ərdəbilinin "Fərhadnamə"si və Əssar Təbrizinin "Mehr və Müştəri" əsərləri dövrün hadisələrini əks etdirən əsərlərdəndir.

Əssar Təbrizi əruz vəzni və qafiyəyə aid "Əl-vafi fi tədadül-qəvafi" adlı lüğət tərtib etmiş olsa da XIV əsr Azərbaycan ədəbiyyatı tarixində "Mehr və Müştəri" adlı əsəri ilə yer tutmuşdur.

XIV əsrin ikinci yarısında - XV əsrin əvvəllərində Azərbaycan fəlsəfi şerinin inkişafında Nəsiminin xidmətləri danılmazdır. Ərəb, fars dillərində şer yazan İmadəddin Nəsimi divanını Azərbaycan dilində yazmışdır.

XVI əsrin əvvəllərində Azərbaycanda Səfəvi dövləti yarandı və Şamaxı, Marağa, Ərdəbil, Gəncə, Təbriz şəhərləri bu dövrün mühüm mədəniyyət mərkəzləri olaraq fəaliyyət göstərdilər.

Bu dövrdə riyaziyyat, münəccim elmləri ilə yanaşı təbabətdə də inkişaf vardı. Demək olar ki, dövrün məşhur həkimləri şah sarayında yaşamışlar.

Xəstəlikləri təyin etməkdə bacarıqlı olan Əbülfəth Təbrizi I Şah Təhmasibin şəxsi həkimi olmuş və ömrünün son illərini I Şah Abbasın sarayında keçirmişdi. Əli Təbrizi də uzun müddət Şirvan hakimi Abdulla xan Ustaclının həkimi olmuşdu.

XVI əsrin sonu və XVII əsrin əvvəllərində baş verən Səfəvi-Osmanlı müharibələri xalqın həyatına sarsıdıcı zərbələr vurmuşdu. Azərbaycanın bir çox alimləri, sənətkarları əsr alınmış, İstanbula, Qəzvinə, İsfahana və başqa yerlərə aparılmış yaxud da köçürülmüşdülər. XVII əsrin ortalarından etibarən Azərbaycanda elmin müxtəlif sahələrində inkişaf nəzərə çarpırdı. Demək olar ki, XIII-XV əsrlərdən fərqli olaraq XVI-XVII əsrlərdə tarix elmi daha çox inkişaf etmişdi. İsgəndər bəy Münşi, Həsən bəy Rumlu və başqaları tarixi hadisələri yalnız təsvir etməklə kifayətlənmir, baş vermiş hadisələrə münasibətlərini də bildirirdilər.

XVI-XVII əsrlərdə Azərbaycanda xeyli sayda mədrəsə və məktəb vardı ki, onlara da ruhanilər başçılıq edirdilər. Beləki, Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsə, Şamaxıda 40 məktəb və 7 mədrəsə fəaliyyət göstərirdi. Mədrəsələrdə 50-yə yaxın şagird təhsil alırdı. Onlara dərs deyən müəllimlər arasında dövrün tanınmış alimləri də var idi (44).

Azərbaycan xalqının tarixinə görkəmli dövlət xadimi Şah İsmayıl Xətai həm də istedadlı şair kimi daxil olmuşdur. Onun ədəbi irsi Azərbaycan dilində yazdığı lirik qoşmalardan,

“Divan”dan, “Nəsihətnamə” və “Dəhnamə” poemasından ibarətdir.

Azərbaycan ədəbi mühitini əsərlərində üç dildə canlandıran Füzuli yaradıcılığı da ictimai və bəddi fikir tarixində yeni mərhələ olmuşdur. Mərumiyyətlər içərisində yaşamasına baxmayaraq bütün ömrünü elmi və fəlsəfi əsərlər yazmağa sərf etmişdir. Onun əsərləri əsrlər boyu yalnız Azərbaycanda deyil, bütün dünyada yüksək qiymətləndirilmişdir.

XVI-XVII əsrlər aşıq sənəti ilə də xatırlanır. Böyük nüfuz sahibi olan aşıqlar əsərlərini əsasən epik və lirik janırda yazırdılar. İstər Aşıq Qurbani, istərsə də Abbas Tufarqanlı və Sarı Aşıq Abdulla müasirləri arasında daha çox nüfuza malik idilər.

Beləliklə,IX-XVII əsrlərdə Azərbaycanın ictimai-iqtisadai və siyasi həyatında olduğu kimi, mədəni həyatında da tənəzzül və inkişaf dinamikası aydın hiss olunur.

# NƏTİCƏ

Monoqrafiyada ilk dəfə olaraq cənub-şərqi Şirvanın və ətraf ərazilərinin orta əsr yaşayış yerləri, arxeoloji abidələri kompleks şəkildə elmi tədqiqata cəlb edilmiş və uzunmüddətli aparılan arxeoloji tədqiqatların nəticələri yazılı mənbə məlumatları ilə uzlaşdırılır.

Beləliklə, tarixi mənbələrin verdiyi məlumatlardan və arxeoloji tədqiqatların nəticələrindən aydın olur ki, cənub-şərqi Şirvan Kür çayının sol sahili boyu geni° bir ərazini əhatə etmişdir. Cənub-şərqi Şirvanda aparılmış arxeoloji tədqiqatların nəticələri bölgənin IX-XVII əsrlərdə Azərbaycanın iqtisadi həyatında mühüm yerlərdən birini tutduğunu təsdiqləyir. Bölgənin şəhər və kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar təsdiq edir ki, bu ərazilərdə yaşayan əhalinin əsas hissəsi oturaq həyat keçirmiş, əkinçilik, maldarlıq, sənətkarlıq, ticarət, balıqçılıqla və digər sənət sahələri ilə məşğul olmuşlar.

Vilayət ərazisinin əsas hissəsini münbit torpaqlar təşkil edir. Ərazidən bolsulu çayların axması tarixən bölgənin iqtisadi inkişafında mühüm rol oynamış, Kür çayından çəkilən arxlar və Pirsaatçay orta əsrlərdə burada əkinçilik və sənətkarlığın inkişafına təkan vermişdir. Təsadüfi deyil ki, Şəhərgah, Qırxçıraq, I Bəndovan və II Bəndovan şəhərləri düzənlik ərazilərdə süni suvarma sistemləri ilə təchiz edilmişdir.

Şərti olaraq Şirvan şəhəri adlandırdığımız digər yaşayış yeri Kür çayının sol sahilində Mişovdağın ətəklərində və geniş düzənlik sahədə, Qırxçıraq, I Bəndovan, II Bəndovan şəhərləri

isə Xəzər dənizinin qərb sahillərində salınmışdır. Bu şəhərlər gəmiçilik və ticarət baxımından mühüm əhəmiyyət kəsb etməklə bərabər, Şirvanşahların dəniz sərhədlərinin qorunmasında da müstəsna rola malik olmuşlar. Məsələn, Qırxçıraqda möhtəşəm qala divarlarının qurulması bilavasitə dənizdən hücum edə biləcək düşmən qüvvələrinin dəf edilməsi məqsədinə xidmət edirdi.

IX-XVII əsrlərdə Şəhərgah, Qırxçıraq, Şirvan şəhərlərinin iqtisadi həyatında canlanma baş verir. Burada planlı şəkildə tikintilər davam etdirilir, ictimai binalar tikilir, yollara daş və bişmiş kərpic döşənir. Urbanizasiya – şəhərlərə axın daha da güclənir. Şəhərgah və Qırxçıraq daha sıx əhaliyə malik olmuşdur. Evlər bir-birinə çox yaxın tikilir, lakin bununla belə, şəhərlərin əraziləri nəzərə çarpacaq dərəcədə genişlənir.

Sənətkarlıq məhəllələri şəhər kənarlarında - çay, yaxud arxların yaxınlığında salınırdı. Məsələn, Şirvan şəhərinin sənətkarlıq məhəlləsi onun qərb tərəfində yerləşmişdir. Burada 14 dulus kürəsi aşkar edilmiş, dairəvi planlı dulus kürələrindən üçayaq, çıxdaş qablar, onların dayaqları və s. tapılmışdır. Sənətkarlıq məhəllələrinin salınması zamanı onun xammalla təchizi məsələləri də nəzərə alınmışdır.

Şəhər evlərini üç tipə ayırmaq olar. Əhalinin varlı zümrəsi daş və kərpic, orta təbəqə nümayəndələri daş, kasıblar isə bir qayda olaraq möhrə və çiy kərpic (palçıqdan tikilmiş) evlərdə yaşayırdı. Daş evlər əsasən Şirvan şəhərində və dağətəyi zonada tikilmiş kəndtipli yaşayış yerlərində çoxluq təşkil edirdi. Yaşayış evlərinin əsas hissəsi tək və ikiotaqlı

olurdu. Şəhər tipli yaşayış yerlərinin əhalisinin bir qismi sənətkarlıqla məşğul olurdu. (Bölgə sənətkarları müxtəlif sənət nümunələrinin istehsalı ilə məşğul olurdular). Şəhərgahdan, şərti olaraq Şirvan adlandırdığımız şəhər yerindən Qırxçıraq, I Bəndovan, II Bəndovan şəhər yerlərindən istehsal ocaqlarının qalıqları, çıxdaş qablar, şlaklar, istehsalda istifadə edilmiş avadanlıqlar aşkar edilmişdir. Bütün bunlar bu şəhərlərdə yerli istehsalın mövcudluğunu sübut edən faktlardandır.

Şəhər sənətkarları kənd təsərrüfatında istifadə edilən əmək alətlərinin istehsalı ilə də məşğul olurdular.

Cənub-şərqi Şirvanın orta əsr yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar zamanı geniş miqyaslı yerli istehsal olduğunu təsdiqləyən çoxsaylı kürələr, müxtəlif təyinatlı əmək alətləri, maddi mədəniyyət nümunələri, hazırlanma texnikasına və dekor işləmələrinə görə bir-birindən fərqlənən çoxçeşidli saxsı qab nümunələri, bişirilərkən zay olan qab çıxarları və s. sənətkarlığın müxtəlif sahələrinin eyni vaxtda fəaliyyət göstərdiyindən xəbər verir. Bütün bunlar cənub-şərqi Şirvanın IX-XVII əsrlərdə Azərbaycanın iqtisadi və siyasi həyatında mühüm rol oynadığını təsdiqləyir.

Qırxçıraqdan, I Bəndovan və II Bəndovandan arxeoloq V. Kvaçidze tərəfindən tapılmış qarmaq qalıqları Xəzəryanı şəhərlərdə əhalinin balıqçılıq təsərrüfatı ilə geniş məşğul olduğunu sübut edir.

Cənub-şərqi Şirvanın arxeoloji abidələrinin əsas hissəsini kəndtipli yaşayış yerləri təşkil edir. Yaşayış yerlərinin əksəriyyəti Kür və Pirsaat çayları boyunca salınmışdır. Çaydan

uzaqda yerləşən yaşayış yerlərinə arx və kanallar vasitəsilə su aparılmışdır. Qırxçıraq, Şirvan şəhər qalığının ərazisində belə arx qalıqları indi də xəndək formasında qalmaqdadır.

IX-XVII əsrlərdə bölgə əhalisinin əksəriyyəti əkinçiliklə məşğul idi. Burada aparılmış arxeoloji qazıntı işləri nəticəsində kömürləşmiş və daşlaşmış taxıl qalıqları, meyvə tumları, bostan bitkilərinin çəyirdəklərinin aşkar edilməsi təsərrüfatın bu sahəsinin qeyd olunan dövrdə nəzərəçarpacaq dərəcədə inkişaf etdiyini təsdiqləyir.

Kür çayının sahilləri boyu bəzi yaşayış yerləri hündür ərazidə yerləşdiyindən, birbaşa arxları su ilə doldurmaq mümkün olmurdu. Etnoqrafik materialların tədqiqi göstərir ki, belə hallarda su çaydan arxlar vasitəsilə çıxarılır və kanallara vurulurdu. Elə kəndlər var idi ki, 10-15 çarx qurulurdu və bu çarxlar atların köməyi ilə hərəkətə gətirilirdi.

Əhalinin sosial tərkibinin əksəriyyətini kəndlilər təşkil edirdi. Arxeoloji materialların təhlili göstərir ki, IX əsrdən başlayaraq iqtisadiyyatda sənətkarlığın çəkisi tədricən artır. Sənətkarlıq inkişafının ən yüksək səviyyəsinə XII-XIII əsrin əvvəllərində (monqol istilasınadək) çatmışdı. Bu dövrdə şəhərlərin iqtisadiyyatı inkişaf edir, əhalinin sayı çoxalır və urbanizasiya prosesləri güclənirdi. Şəhərlərin sərhədləri genişlənir və tədricən Şirvan, Qırxçıraq, I və II Bəndovan və Şəhərgah kimi şəhərlər mühüm sənətkarlıq və ticarət mərkəzlərinə çevrilirdi. Qırxçıraq və I, II Bəndovandan tapılmış metal və daşdan olan müxtəlif formalı lövbərlər şəhərdə buxta olduğunu və gəmiçiliyin inkişaf etdiyini təsdiqləyir.

Karxana və sexlərdə istehsal olunan məhsullar həm sexin özündə satılır, həm də tacirlər tərəfindən alınırdı. Karxanalarda işləyən usta köməkçilərinə muzd ödənilirdi. Şagirdlərə muzd verilmirdi.

Müvəqqəti yaşayış yerlərinin əsas tapıntıları müxtəlif ölçülü və formalı metal nallar, yüyən qalıqlarıdır. Bu tip yaşayış yerlərindən tapılmış saxsı qabların böyük əksəriyyəti isə maldarlıqda geniş istifadə edilən badyalardan ibarətdir.

Qışlaqların əksəriyyəti şimal küləyindən qorunmaq üçün hündür dağ yamaclarının cənubunda salınırdı. Mişovdağın cənubunda salınan Daşağıl, Tava, Nemət Tava, Keçiyatağı, Çıraqlı, Mişovdağ, Qəhrəmanlı qışlaqları şimal küləklərindən yaxşı qorunurdu. Bu qışlaqların əsas tapıntıları maldarlıqda istifadə edilən saxsı və mis badyaların qalıqlarından və nallardan ibarətdir. Yeri gəlmişkən tədqiq edilən müvəqqəti yaşayış yerlərindən XX əsrin 60-cı illərinədək istifadə edilmişdir.

Cənub-şərqi Şirvanın münbit torpaq və əlverişli iqlim şəraiti qədim zamanlardan oturaq əkinçi və maldar tayfalarına məxsus yaşayış yerlərinin yaranmasına şərait yaratmışdır. Beləliklə də, yerlərdə əkinçilik və maldarlıq mədəniyyətinin formalaşması sənətkarlığın da inkişafına müsbət təsir göstərmişdir.

Ticarət və sənətkarlığın inkişafı ilə əlaqədar pul dövriyyəsi də daim artırdı. Arxeoloji tədqiqatlar zamanı cənub-şərqi Şirvanın tədqiq olunan orta əsr şəhərlərindən xeyli miqdarda mis və gümüş sikkələr aşkar edilmişdir.

Ticarət əlaqələrini sübut edən digər tapıntılar farfor və Çində istehsal edilmiş seladon tipli qablardır. Bu tip məhsullar həm karvan, həm də dəniz yolları ilə gətirilə bilərdi. XI-XIII əsrlərdə bölgədə Qırxçıraq, I Bəndovan və II Bəndovan kimi liman şəhərlərində ticarət gəmilərinin dayanması üçün hər cür şərait var idi. Bütün bunları V. Kvaçidzenin apardığı sualtı arxeoloji tədqiqatlar zamanı aşkar etdiyi gəmiçiliyə aid çoxsaylı tapıntılar bir daha təsdiqləyir.

Bölgədə istehsal edilmiş məhsullar ilk növbədə daxili ehtiyacların ödənilməsinə sərf edilmişdir. Bölgə sənətkarlığının təhlili göstərir ki, XI – XIII əsrlərin əvvəllərində istehsalın bu sahəsi daim inkişafda olmuş və bu inkişaf Azərbaycanın digər şəhərlərində olduğu kimi burada da Monqol istilasınadək davam etmişdir. Bir çox şəhərlərdə aparılmış arxeoloji tədqiqatlardan belə bir nəticəyə gəlmək olar ki, bu dövrdə şəhərlər ya tamamilə dağıdılmış, yaxud da uzun müddət tənəzzül dövrü keçirmi°dir.

Şəhərgahdan aşkar edilmiş hamam kompleksi orta əsrlərdə cənub-şərqi Şirvanın tikinti mədəniyyətinin və sosial inkişafın mühüm göstəricisidir. Kompleksin bünövrəsi yonulmuş mədən daşından, divarlarının qalan hissəsi isə müxtəlif ölçülü bişmiş kərpiclərdən inşa edilmişdir. Hamamın vanna otaqlarının qızdırılması üçün buxarı düzəldilmişdir. Suyun qızdırılması üçün ayrıca iri ocaqlar quraşdırılmışdır. Hamam kompleksindən aşkar edilmiş vannaların uzunluğu 80-100 sm, eni 70-87 sm. dərinliyi isə 65-75 sm-dir. Nisbətən iri vannaların uzunluğu 162 sm, eni 91 sm, dərinliyi 61 sm-dir.

Bişmiş kərpicdən hörülmüş vannalardan dördü bir-birinə birləşdirilmişdir.

Azərbaycanın XII-XV əsrlərinin memarlığını ayrı-ayrı abidələrdə salamat qalan çoxsaylı tikililər - karvansaraylar, hamamlar, məscidlər, mədrəsələr və s. ilə müşahidə olunurlar. Ölkə daxilində inşa olunan memarlıq abidələri yalnız ölçüləri ilə deyil, həm də dekor baxımından fərqlənir.

Saxsı qablar və daş sənduqələr üzərində xəttatların həkk etdirdikləri yazılar IX-XV əsrlərdə bölgə əhalisinin müəyyən savada malik olmasını təsdiqləyir.

Müxtəlif sənətkarlıq sahələrində, xüsusilə dulüsçuluqda bədii sənətkarlıq dövrün incəsənətini təhlil etməyə imkan verir. Bədii sənətkarlıqda təbiət təsvirləri, heyvan, quş təsvirləri üstünlük təşkil edir. Əgər əvvəlki dövrlərdə bu təsvirlərdən ayrıca istifadə edilirdisə XI-XII əsrlərdə sujetli təsvirlər üstünlük təşkil etməyə başlayır.

Şəhərgah orta əsr şəhər yerində aparılan arxeoloji tədqiqatlar nəticəsində belə bir qənaətə gəlmək olar ki, XIII əsrin ortalarında şəhər əvvəlcə monqollar, daha sonra isə Xarəzmşah Məhəmmədin ordusu tərəfindən yandırılaraq dağıdılmış və süqut etmişdir.

Qeyd edək ki, XII-XIII əsrlərə aid olan Şəhərgah hamam-kompleksi bir çox xüsusiyyətlərinə görə XIX-XX əsrin ortalarında Bakıda və digər müsəlman şərqində istifadə edilən hamam-sağlamlıq komplekslərindən heç də geridə qalmır. Bu da Azərbaycanın orta əsr şəhərlərində İslamdan sonra səhiyyə-

sanitariya mədəniyyətinin kifayət qədər yüksək səviyyədə olduğundan xəbər verir.

IX-XVII əsrlərdə Azərbaycanın digər bölgələrində olduğu kimi cənub-şərqi Şirvanda da torpaq feodalların, qismən də ruhanilərin əlində idi. Şirvanşahların və onların ailə üzvlərinin əlində olan torpaqlar “xas torpaqları”, dövlətin ixtiyarında olanlar “divan torpaqları”, feodal və əyanların əllərində ki, “mülk”, məscid və dini xeyriyyə təşkilatlarının sərəncamında olan torpaqlar “vəqf” torpaqları adlanırdı. XIII əsrin əvvəllərində mülk torpaqları daha çox idi.

Əvvəllər iqta sahibi ancaq rəiyyətdən renta vergi toplamaq hüququna malik idi. XII əsrin axırlarına yaxın iqta sahibləri kəndliləri və təsərrüfatı müstəqil idarə etmək hüququna malik idilər.

Kəndlilər divan torpaqlarından istifadə etdikləri zaman dövlətə xərac (torpaq vergisi) verirdilər. Onlar torpaq vergisini taxıl, yağ, qoyun, qaramal və s. ilə ödəyirdilər. Dövlət adamları şəhər əhalisindən, sənətkarlardan və tacirlərdən də müxtəlif vergilər toplayırdılar. Vergi toplayanlar dövlətə ödəniləcək vəsaitdən qat-qat artıq vergi toplayırdılar.

Şəhər əhalisinin əksəriyyətini sənətkarlar və şəhər yoxsulları, ziyalılar təşkil edirdi. Şəhər yoxsullarının bəziləri sənətkar emalatxanalarında işləsələr də əsas hissəsi şəhərətrafı ərazilərdə əkinçiliklə məşğul olurdular.

Şəhərlərdə eyni peşədən olan sənətkarlar “ həmkarlar” yaradırdılar. XI -XIII əsrlərdə əxi (qardaş) təşkilatları da

yaranmışdı. Bu təşkilatlar da sənətkarların maraqlarını müdafiə edirdi. Əxilər (-qardaşlar) öz üzvlərinə kömək etmək üçün "xeyriyyə" təşkil edirdilər. Bu yolla onlar işsiz qalan üzvlərinə, başqa şəhərlərdən gəlmiş əxilərə də kömək edirdilər.

Tədqiq edilən qəbr abidələri əsasən baş daşları və sənduqələrdən ibarətdir. Bu materiallar, əgər bir tərəfdən IX-XVII əsrlərdə bölgədə daşişləmə sənətinin yüksək səviyyədə olduğunu təsdiqləyirsə, digər tərəfdən əhalinin dini dünyagörüşünü öyrənmək üçün mühüm mənbədir. Tədqiq olunan qəbirstanlıqların hamısı müsəlmanlara aid olub, onların başdaşları üzərində mərhumların adları, doğum-ölüm tarixləri, sinədaşları üzərində isə bayatı-ağılar, əksər hallarda isə Müqəddəs kitabdan ayələr həkk edilmişdir. Bu tapıntılar bölgədə xəttatlıq sənətinin kifayət qədər inkişaf etdiyini və tədqiq edilən dövrdə (IX-XVII əsrlərdə) yerli əhalinin böyük əksəriyyətinin müsəlman olduğunu bir daha təsdiqləyir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

***Azərbaycan dilində***


1. Abbasova E. C. Azərbaycanın Gəncə-Qazax bölgəsinin erkən feodalizm və intibah dövrü mədəniyyəti.Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının avtoreferatı. Bakı-2010.
2. Abbasova E.İ. Orta əsr Əli Bayramlı şəhərinin dulusçuluq məhəlləsi // Elmi axtarışlar. Bakı: 2002, VII buraxılış, səh. 94-97.
3. Abbasova E.İ. Azərbaycanda dulusçuluq mədəniyyətinin sosial tədqiqi tarixindən // Ekologiya, fəlsəfə, mədəniyyət. Bakı: Nurlan, 2002, səh. 284-285.
4. Abbasova E.İ. Orta əsr Ərəbşahverdi toponimi haqqında //Azərbaycan arxeologiyası, Bakı: Xəzər Universitetinin nəşriyyatı, 2002 №1-2, səh. 101-104.
5. Abbasova E.İ. Ərəbşahverdi yaşayış yeri haqqında //Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri. Ö.Ş. İsmizadənin anadan olmasının 100 illiyinə həsr olunur. Bakı: 2006, səh. 165-167.
6. Abbasova E.İ. Qırxçırağın orta əsr saxsı məmulatı // Elmi araşdırmalar. Bakı:, 2006, VIII buraxılış, №1-4, səh. 358-361.
7. Abbasova E.İ. Abdulabad və Dağ Xilə yaşayış yerləri haqqında //2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları / A. A. Abbasovun anadan olmasının 70 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı: Nafta-Press, 2007, səh. 95.

8. Abbasova E. İ, Cənub-Şərqi Şirvanın bəzi pirləri //Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: 2007, № 1. səh. 141-146.
9. Abbasova E.İ. Cənub-Şərqi Şirvanın orta əsr qəbirüstü abidələri haqqında //Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: 2008, № 2, səh. 75-80.
10. Abbasova E. İ. Hacıqabul bölgəsində tapılan antropomorf və zoomorf keramika məmulatı //Azərbaycan arxeologiyası, Bakı: Xəzər Universitetinin nəşriyyatı, 2008 №1-2, səh. 82-87.
11. Abbasova E.İ. Cənub-Şərqi Şirvanın orta əsr yaşayış yerləri //AMEA-nın Tarix İnstitutunun Elmi əsərləri. Bakı, 2009, №27, səh.57-63.
12. Abbasova E.İ. Orta əsr Şəhərgah yaşayış yeri // Tarix və onun problemləri. Bakı Dövlət Universitetinin nəşriyyatı, Bakı, 2011, №1, səh. 227-232.
13. Abbasova F.A. Azərbaycanda orta əsr zoomorf qabların hazırlanmasında ənənəvilik və yenilik // S.M.Qazıyevin 100 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı, Elm, 1994, səh.74-77.
14. Abbasova F. A. Bulaqbaşı abidələri. Bakı: Elm, 2003,176 s.
15. Abdulla B. Folklorda say simvolikası. Bakı: Elm, 2006, 148 s.
16. Abdulla B. Kitabi-Dədə Qorqud da rəng simvolikası. Bakı: Çaşıoğlu,2004, 128 s.
17. Ağalarzadə A.M. Kürqırağı abidələri (Neftçala bölgəsi əsasında tarixi-etnoqrafik tədqiqat). Bakı, Avropa nəşriyyatı, 2005,64 s.
18. Ağamalıyeva S. M. Qocaman el sənəti // Elm və həyat Jurnalı, 1979, №11, səh. 36-38.

19. Allahverdiyeva S.K. İlk orta əsrlərdə Gəncəbasarda sənətkarlıq və ticarət (arxeoloji materiallar əsasında). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş issertasiyasının avtoreferatı. Bakı -2010.
20. Aşurbəyli S. B. Şirvanşahlar dövləti. Bak: Elm, 1997, 408 s.
21. Azərbaycan arxeologiyası (orta əsrlər): 6 cilddə, VI c., Bakı: Şərq-Qərb nəşriyyatı, 2008, 632 s.
22. Azərbaycan etnoqrafıyası: 3 cilddə, I c., Bakı: Şərq-Qərb nəşriyyatı, 1988, 329 s.
23. Azərbaycan SSR-in fiziki coğrafiyası. Bakı: Azərbaycan Dövlət Universitetinin nəşriyyatı, 1959, 367 s.
24. Azərbaycan tarixi. Azərb.SSR EA nəş., Bakı, 1958,447 s.
25. Azərbaycan tarixi: 7 cilddə, II c., Bakı: Elm, 1998, 596 s.
26. Azərbaycan tarixi XIII-XVIII əsrlər: 7 cilddə, III c.,Bakı: Elm, 2007, 648s.
27. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, 17 s.
28. Azərbaycan toponimləri. Bakı. AE-nın nəş., 1999, 551 s.
29. Babayev İ.A. Qəbələnin ilk şirli qabları //AMM, V c., Bakı: Azərb.EA nəşriyyatı, 1964, cəh. 131-148.
30. Bəşirov R.Y. Orta əsr Şəmkir şəhər yerindən tapılmış qəlyanlar haqqında //Azərbaycan arxeologiyası, 2008, №1-2, səh. 102-107.
31. Bünyadov T. Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı: Azərbaycan EA nəşriyyatı, 1964,152 s.
32. Bünyadov T. Ə. Qədim sənət abidələri // Elm və həyat Jurnalı, 1970 [1]12, səh. 24-25.
33. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr., 1989,392.

34. Cəbiyev Q. C. Azərbaycan keramikası (XIV-XVII əsrlər). Bakı: Elm, 2003, 236 s.
35. Cəbiyev Q.C. Qəbələ şəhərinin Qala hissəsində arxeoloji tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar, 2008, səh. 107-108.
36. Cəbiyev Q. C. Kürdəmirdə orta əsr şəhər mədəniyyətinə aid tapıntılar //Xalq qəz., 2009, 7 noyabr, səh. 5.
37. Cəbiyev Q. C., Abbasova E.İ., Nemətov S. //Şəhərgahda ilk arxeoloji tədqiqatlar. Bakı: Xəzər Universitetinin nəşriyyatı, 2009-2010, səh. 261-268.
38. Cəbiyev Q.C. Ağsuda arxeoloji tədqiqatlar //Ağsu şəhəri orta əsrlərdə kitab-albomu, buraxılış I. Bakı: CBS, 2010, 182 səh.
39. Cəbiyev Q. C. Cirdimanın tarixi və tarixi coğrafiyası. Bakı. "Elm-təhsil" 2015, 450 s.
40. Cəlilov. B. M. Göygöl-Goranboy arxeoloji ekspedisiyasının 2010-cu ildə İlanlıtəpə kurqanında apardığı tədqiqatların yekunlarına dair (Göygöl, Goranboy rayonları). //Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı 2011. səh. 95-104.
41. Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. Bakı: BDU-nun nəşri, 1993, 56 s,
42. Ciddi H.A. Şirvanın qədim yolları və ticarət əlaqələri. //"Elm və həyat" jurnalı, 1972, №4. səh.22-23.
43. Ciddi H.A. Orta əsrlərdə Azərbaycanla Özbəkistanın iqtisadi mədəni əlaqələrindən //Elm və həyat Jurnalı, 1973, № 7, səh. 30-31.
44. Evliya Çələbi Səyyaətnaməsində Azərbaycan. Qafqaz Universiteti,Qafqaz Araşdırmalar İnstitutu. 2012,296 s.
45. Əfəndi R.S. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı: İşıq, 1976.

46. Əfəndi. R.S., Əfəndi T.R. Azərbaycan bəzək sənəti. Bakı: BP 2002, 190 s.
47. Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı: Azərbaycan SSR. EA nəşr., 1959,144 s.
48. Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri. Bakı: Elm, 1979, 197 s.
49. Əhmədov R.C. Hacıqabul minillik yollarla. Bakı: Nurlan, 2002, 22 s.
50. Əhmədov.S.Ə. Şar-konusvari qabların hərb işində istifadəsinə dair yeni araşdırmalar //Azərbaycan Arxeologiyası ,2000. № 1-2,səh.35-38.
51. Əhmədov S. Ə., Xəlilov M. C. Şəhərgahdan (Kürdəmir rayonu) tapılmış keramika parçası üzərində döyüşçü təsviri //Azərbaycan Tarixi Muzeyi, 2007, səh. 280-288.
52. Əhmədov S.Ə., Cəfərova E. B. Azərbaycanın orta əsr silahları (arxeoloji materiallar əsasında). Bakı: Elm, 2005, 156 s.
53. Əhmədov Ş.S. Pirsaatçay hövzəsinin ilk orta əsr arxeoloji abidələri //Bakı: Elm, 2006, 251 s.
54. Əhmədov Ş.S., Abbasova E. İ. Cəmcəmli kənd ərazisində aşkar edilmiş nümunələr // Elm və həyat Jurnalı, Bakı, 2006. №3-4, səh. 32-34.
55. Ələkbərov A.İ. Cənub-Şərqi Azərbaycanda qoyun ayini ilə bağlı maddi mədəniyyət abidələri haqqında //A EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1994, №4, səh. 140-146.
56. Ələkbərov A.İ., Mirabdullayev A.M., Əzizov T.N. Cənub Şərqi Azərbaycanda arxeoloji tədqiqatlar (Cəlilabad rayonu). //Azərbaycanda arxeoloji tədqiqatlar-2012. Bakı, 2013, səh. 302-307.
57. Əliyev T.R.,Babayev F.İ., Hüseynova T.T.Qalatəpə şəhər yerində 2010-cu ildə aparılan arxeoloji tədqiqatlar haqqında

(Ağcabədi rayonu).//Azərbaycanda arxeoloji tədqiqatlar-2010.Bakı, səh. 179-185.
58. Əliyev T. V. Əlican və Türyancay hövzəsinin tarixi-arxeoloji tədqiqi (IV-XIII əsrlər). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş issertasiyasının avtoreferatı. Bakı -2014.
59. Əliyeva K. Qəbirüstü daş at və qoç nümunələrimiz //Elm və həyat" jurnalı, 1972, №7, səh.16-18.
60. Ərəb fars sözləri lüğəti. Bakı: 1966,450 s.
61. Göyüşov R.B. Qəbələdə tapılmış gil qazanlar haqqında //Azərb.SSR EA " Məruzələri", 1960, №10,səh.38-45.
62. Hacıyev C.O.Kürəkbasarın ilk orta əsr abidələri (arxeoloji materiallar əsasında). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının avtoreferatı. Bakı,2010.
63. Hacıyev Q. Ə. Bərdə şəhərinin coğrafi, siyasi və mədəni tarixi. Bakı: Uni Print, 2001, 234 s.
64. Xəlilov C.Ə. Qazıməmməd rayonunun bəzi arxeoloji abidələri. // AEA-nın məruzələri, 1958,№11, səh. 917-923.
65. Xəlilov M. C. Örənqaladan tapılmış metal fiqur mifik surət təsviri kimi // AMEA Folklor institutu "Ortaq Türk keçmişindən Ortaq Türk gələcəyinə" IV Uluslararası folklore konfransı. Bakı-Azərbaycan (1-3 noyabr 2006), səh.207-209.
66. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər. Bakı: Elm, 1988, 176 s.
67. İbrahimov F.Ə., İbrahimov K.F. Bakı İçəri şəhər. Arxeoloji albom, 2 cilddə, I c., Bakı, OKA Ofset //Azərbaycan-Türkiyə Nəşriyyat və Poliqrafiya Şirkəti,2002,112 s.

68. İsmizadə Ö.Ş.,Ciddi H.Ə. Bakı Qız qalası yaxınlığındakı abidələrdən tapılan məzar daşları haqqında. // AMM.Bakı, 1976, səh. 184-198.
69. İsmayılov P. Muğanın çay və dəniz balıqçılığına dair. // Azərbaycan arxeologiyası, 2003, №1-4, səh. 96-101.
70. Kəsəmənli H. P., Babayev İ.A. Əli Bayramlı rayonunda arxeoloji tapıntılar //Azərbaycan SSR EA Məruzələri, XIX c., №3, 1963, səh. 87-92.
71. Kvaçidze V. A. Xəzər Atlantidası. Bakı, 2009,112s.
72. Qasımlı V.A. Naxçıvan ilk orta əsrlərdə (tarixi arxeoloji tədqiqat): Tarix üzrə fəlsəfə dok... dis. avtoref. Bakı, 2011.
73. Qasımov E.Ə. Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı (XI-XV əsrlər) (Tarixi arxeoloji tədqiqat). Bakı: Adiloğlu, 2002, 200s.
74. Qiyasi C.Ə. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
75. Quliyev A. A. Salyanda aşkar edilmiş sikkələr. Salyan tarixi, arxeologiyası, etnoqrafiyası və memarlığı. Elmi praktik konfrans. //Bakı. "Təknur" -2012, səh. 177-180.
76. Quluyev A. A., Cəbiyev Q. C., Xəlilli F. S. Muradxan dəfinəsi. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur. /Humanitar və İctimai Elmlər//. Bakı, Elmin İnkişaf Fondu, 2012, 526 s.
77. Qurani-Kərim.Tərcümə edənlər: Bünyadov Z. M., Məmmədəliyev V. Bakı: Çıraq, 2004, 633 s.
78. Mehrəliyev. E. Q. Şirvan Elmlər Akademiyası ( X-XIII əsrlər) Bakı: Çaşıoğlu, 2000, 70 s.

79. Məhəmməd Həsən Vəlili (Baharlı). Azərbaycan coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı, Azərb.Döv.Nəşr., 1993,204s.
80. Məmədov A.M., MəhərrəmovA. Goranboy orta əsrlərdə.Bakı,1990,170s.
81. Məmmədov A. M. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqat). Bakı: Elm, 1993; 204s.
82. Məmmədov A. M., Cəfərov R., Hasilov Ş., Əliyev T. Dünya ticarətində Bərdə şəhərinin rolu //Azərbaycan Arxeologiyası və etnoqrafiyası, 2005, № 2, səh. 47-53.
83. Məmmədov A.M., Abbasova E.İ. Orta əsr Şabran şəhərində daşişləmə sənəti haqqında (arxeoloji və etnoqrafik materiallar əsasında) //Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2006, №1. səh. 112-121.
84. Məmmədov A.M. Arxeologiya və etnoqrafiya. Bakı: Müəllim nəşriyyatı, 2008, 240 s.
85. Məmmədov A.M. Salyan. Bakı: Elm, 2011, 61 s.
86. Məmmədov A. M. Salyan tarixi, arxeologiyası, etnoqrafiyası və memarlığı. Elmi praktik konfrans. Bakı. "Təknur" -2012, səh. 108-110.
87. Məmmədov R. S., Kvaçidze V. Qədim Güştəsfi //Elm və həyat" jurnalı,1981, № 12, səh. 18-20.
88. Məmmədov R. S., Kvaçidze.V. Qırxçıraq abidəsi //Bakı: Elm və həyat" jurnalı, 1974 № 4, səh.26-27.
89. Məmmədzadə K.M.Azərbaycanda inşaat sənəti IV-XVI əsrlər.Bakı. "Elm", 1978, 209 s.
90. Mustafayev A.N. Şirvanın maddi mədəniyyəti. Bakı: Elm, 1977,158 səh.
91. Mustafayev M. M., Abbasova E.İ. Muxortəpə orta əsrlər yaşayış yerində arxeoloji qazıntılar //Azərbaycanda arxeoloji

tədqiqatlar. Bakı: Xəzər Universitetinin , 2008 №1-2, səh.109-111.
92. Müseyibov M. A. Azərbaycanın fiziki coğrafiyası //Bakı: ADU-nun nəşriyyatı, 1998,340 s.
93. Müseyibli N. Ə. Qırxçıraqda arxeoloji tədqiqatlar (2000-2001-ci illərdə aparılan arxeoloji tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya (çöl tədqiqatları və nəzəri problemlər) tezislər //Bakı: Elm, 2002, səh.46-47.
94. Nemət M.S. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair.Bakı, 1959,142 s.
95. Nemət M. S. Azərbaycanda pirlər. Bakı: ADN, 1992,99 s.
96. Novruzlu Ə.İ. Mişovdağın ətəyində orta əsr şəhəri //”Xalq” qəz., 2002, 9 santyabr.
97. Novruzlu Ə.İ., Qəhrəmanova S.M., Vəliyeva G.Ə. Qədim və müasir Əli-Bayramlı şəhəri. Bakı: Elm, 2004, 16 s.
98. Novruzlu Ə.İ. Cavad bölgəsinin (Sabirabad) tarixi. Bakı: Elm, 1994, 120 s.
99. Novruzlu Ə.İ. Azərbaycanın orta əsr sənətkarlığı (XIV-XVII əsrlər). Bakı: Elm, 1997, 420 s.
100. Novruzlu Ə.İ. Bəxşəliyev V.V. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 181 s.
101. Novruzov Ə. İ. Naxçıvanın orta əsr şar-konusvari qabları //Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1986, № 3, səh.81-86.
102. Novruzlu Ə.İ., Nuriyev A.B. Azərbaycanın yeni tikinti sahələrində arxeoloji tədqiqatlar(Xaraba şəhər). Bakı: Elm, 2 clddə, I c., 2002, 72 s.
103. Novruzlu Ə.İ. Azərbaycanın yeni tikinti sahələrində arxeoloji tədqiqatlar // Bakı: Elm, 2 cilddə, II c., 2003, 127 s.

104. Nuriyev A. B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsal tarixi. Bakı: Elm, 1981,7səh. 85-100 .
105. Nuriyev A. B., Məmmədov A.M. Bərdənin orta əsr dəyirmanları //Bakı: "Elm və həyat" jurnalı, 1986, № 6.
106. Nuriyev A. B., Qasımlı Y.A. Qədim ipək yolunun Azərbaycandakı istiqamətləri.// Elmi axtarışlar, IX buraxılış, 2003, səh.181-184.
107. Nuriyev A.B., Babayev Ə.H. Bərdə şəhərinin tarixi-arxeoloji oçerki(antik və orta əsrlər). Bakı: Nurlan, 2001, 136 səh.
108. Nuriyev A.B., Abbasova E.İ., Əbdülrəhmanov Ə. Şirvanın memarlıq abidəsi (Şamaxı Cami məscidi). //Ekologiya, fəlsəfə, mədəniyyət - elmi məqalələr məcmuəsi. Bakı: 2003, səh. 268-269.
109. Nuriyev A.B., Abbasova. E.İ. Şərgah abidəsi haqqında //Arxeologiya və etnoqrafiya institutunun 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: 2003, səh. 69-71.
110. Nuriyev A. B., Sadıqov S. Pirsaat xanəgahı // Elmi axtarışlar, IX buraxılış, 2003, səh.184-185.
111. Orucov A.Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq. Bakı: Elm, 1989,72 s.
112. Osmanov F.L. Qəbələnin şüşə məmulatı haqqında.//AMM, 5cild. Bakı: Azərb. EA nəşr. 1964,səh.149-160.
113. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə.Bakı: Elm, 1978,161s.
114. Piriyev V.Z. Teymurun və Toxtamışın Azərbaycana yürüşləri və işğallarına qarşı mübarizə (1385-1401-ci illər) //Azərbaycan EA Xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası, 1983, №1, s. 58-67.

115. Rəcəbova B.Ə. Şabrandan tapılmış muncuqlar haqqında //Azərbaycan EA Məruzələri, 1986, №9, s. 80-83.
